www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 sentyabr 2017-ci il Cümə axşamı № 199 (6813) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakı-Tiflis-Qars dəmir yolu xətti istismara verildi

yazısı səh.2-də

**Gündəm**

### Ukraynada müəmmalı partlayışlar - Bakı və Tiflisə siqnal?



Rusiya separatçı hərəkatlara dəstək siyasətini cilalayır - Azərbaycana da ismarış; Ermənistanla labüd müharibə vəziyyətində olan ölkəmiz içindəki casus şəbəkəsinə qarşı indi xüsusilə diqqətli olmalıdır, çünki...

yazısı səh.9-da

### Borclu bankirlərin ölkədən çıxışına qadağa qoyula bilər

yazısı səh.3-də

### Yasamal müəmması: icra başçısı təyinatı niyə yubanır?

yazısı səh.6-da

### Mübariz Mənsimov Vahid Ələkbərovu ona 4 milyard ziyan vurmaqda suçladı

yazısı səh.8-də

### "Masonam, mason olmağımla da fəxr edirəm" - Adnan Oktar

yazısı səh.10-da

### "Ermənistanın öyündüyü reaktiv sistemlər köhnəlib" - azərbaycanlı general

yazısı səh.11-də

### TIR-ın yük yerində Avropaya qaçmaq istəyən 200 nəfər ələ keçdi

yazısı səh.12-də

### ATV-də vitse-prezident müəmması

yazısı səh.2-də

### Region ölkələri kürd separatizminə necə reaksiya verəcək...

yazısı səh.12-də

### Dəhşətli avtoqəzada 7 nəfər öldü - iki ailə məhv oldu

yazısı səh.14-də

### Soyuqlar gəldi: uşaqları infeksiyalardan necə qorumalı...

yazısı səh.13-də

## İşıqlı projelər qaranlıq sularda necə batırılır

# İKİ ŞƏRİFOVUN SABOTAJI - ƏLƏT LİMANININ TİKİNTİSİNDƏ QORXUNC MAXİNASİYALAR

Ələt azad ticarət zonasının yaradılmasının və limanın açılışının ləngiməsinin arxasında baş nazirin müavini Abid Şərifovun və maliyyə naziri Samir Şərifovun şəxsi maraqlarının və təxribatlarının dayandığı deyilir; ölkənin gələcəyi üçün mühüm sayılan projelərə məmurların qarşı çıxmasının müdhiş səbəbləri




yazısı səh.5-də

## Abbas Abbasovun əsas "krışası" vəzifədən getdi

Dağıstan prezidentinin qəfil istefasına səbəb nədir; Şübhə yoxdur ki, Abdulatipovdan sonra Abbasovların da qonşu respublikadakı biznesi sıxışdırılacaq...

yazısı səh.8-də



*Hikmət Hacıyev:*

**"Danışıqlarda Azərbaycanın güzəştə getməsi haqda ermənilərin iddiası cəfəngiyatdır"**

yazısı səh.4-də



*Qulu Məhərrəmli:*

**"Ölkəmizdə rus dilinə xüsusi statusun verilməsinin əhəmiyyəti yoxdur"**

yazısı səh.13-də



*Müğənni İradə İbrahimova:*

**"Ərimin xəyanətinə də dözərəm"**

yazısı səh.15-də



# Prezident Şəkidə turizmin inkişafına 1 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Şəki rayonunun mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Şəki Şəhər İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat ayrılması ilə bağlı sərəncam verib.**

"Report" xəbər verir ki, sərəncama əsasən, Şəki rayonunun Kiş kəndindəki "Kiş alban məbədi"nə aparan dairəvi avtomobil yolunun tikintisi və yolboyu ərazinin abadlaşdırılması üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Şəki Şəhər İcra Hakimiyyətinə 1 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.



# "Turizm sahəsində problemli, axsayan yerlərimiz var"- nazir Əbülfəs Qarayev

**"Turizm sahəsində bizim problemli, axsayan yerlərimiz var. Heç kim deyə bilməz ki, hər şey idealdır". APA-nın məlumatına görə, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev belə deyib.**

O qeyd edib ki, çəkilən əziyyətlərə baxmayaraq, yay-çimərlik sahəsində xidmətlərin artırılmasında istənilən nəticələrə nail olmaq mümkün olmayıb: "Müəyyən yerlərdə alındı, müəyyən yerlərdə baş tutmadı. Son nəticədə biz nümunəvi çimərliklərin yaradılmasına, beynəlxalq təşkilat tərəfindən qəbul olunacaq nəticələrə gəlib çıxa bilmədik. Amma proses gedir və yerli icra hakimiyyətləri də bununla məşğuldur. İnanıram ki, gələn il bu sahədə inkişaf böyük olacaq. Amma insanların sayının çox olmasına baxmayaraq, faciəvi hadisələr çox olmadı".

# Bələdiyyə sədri kəsdiyi ağacın altında qalaraq öldü

**Daşkəsən rayonunun Zinzahal kənd bələdiyyəsinin sədri bədbəxt hadisə nəticəsində ölüb. ARB TV xəbər verir ki, kənd sakini, 37 yaşlı Füzuli Quliyev meşədə ağac kəsən zaman ehtiyatsızlıq nəticəsində ağacın altında qalıb.**

Ağır bədən xəsarətləri alan Füzuli Quliyev xəstəxanaya yerləşdirilsə də, onu xilas etmək mümkün olmayıb.

Faktla bağlı araşdırma aparılır.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Bakı-Tiflis-Qars dəmir yol xətti istismara verildi



**Regionun ən böyük nəqliyyat dəhlizi olan Bakı-Tiflis-Qars dəmir yolu artıq istismara hazırdır. Sentyabrın 27-də "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Əhməd Arslan, "Gürcüstan Dəmir Yolu" SC-nin sədri Mamuka Baxtadze səhər saatlarında xüsusi qatarla Tiflisdən Axalkalaki stansiyasına gələrək dəmir yolunu istismara qəbul ediblər. Musavat.com xəbəri Gürcüstandakı qaynaqlardan alıb.**

Həm Azərbaycan, həm Gürcüstan, həm Türkiyə heyətlərini hökumət üzvləri və çoxsaylı jurnalistlər müşayiət edib. Gürcüstan Dəmir Yollarının rəhbəri Mamuka Baxtadze yerli mediaya açıqlamasında bildirib ki, yaxın günlərdə Bakı-Tiflis-Qars dəmir yolu ilə yüklərin daşınması qrafiki təsdiqlənəcək.

Bakı-Tiflis-Qars (BTQ) planlaşdırılmış dəmir yolu layihəsidir. Dəmir yolu xətti Azərbaycanın paytaxtı Bakı şəhərindən Gürcüstanın Tiflis və Axalkalaki şəhərindən Türkiyənin Qars şəhərinə gedəcək. Bu dəmir yolu Azərbaycanla Türkiyəni birləşdirəcək.

2007-ci il, noyabr 21-də Gürcüstanın Marabda kəndində Bakı-Tiflis-Qars dəmir yolu xəttinin tikintisinin təməli qoyulub. Hər üç ölkənin prezidentlərinin iştirakı ilə Gürcüstanın Marabda stansiyasında açılış mərasimi keçirilib.

BTQ Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan böyük bir əhəmiyyət daşıyır. Dəmir yolu vasitəsilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş əldə edəcək. Dəmir yolu ilə bir günə Qarsa və iki gün yarıma İstanbula getmək mümkün olacaq. Bakı-Tiflis-Qars dəmiryolu xəttinin fəaliyyətə başlamasından sonra Azərbaycan iqtisadiyyatını daha da inkişaf etdirəcək. Azərbaycanın ilk illərdə tranzitdən minimal illik gəliri 50 mln. dollar təşkil edəcək.

Dəmir yolu xəttinin tikintisinə 2005-ci ildə başlanması nəzərdə tutulsa da, həmin dövrdə maliyyə mənbələrinin olmaması tikintinin başlanmasını ləngidib. RAR və Avropa Birliyi Ermənistandan kənar keçdiyinə görə layihəyə qarşı çıxıblar və tikintinin maliyyələşdirilməsindən imtina ediblər. Onlar Bakı-Tiflis-Qars dəmir yolunun tikilməsi əvəzinə Qars-Gümrü-Tiflis dəmir yolu xəttinin açılmasını tələb edirdilər. Lakin Azərbaycanla Ermənistan arasında olan Dağlıq Qarabağ münaqişəsi səbəbindən bu tələblər rədd edilib və dəmir yolu xəttinin tikintisinin maliyyələşdirilməsini sonradan Azərbaycan öz üzərinə götürüb. Bu məqsədlə Azərbaycan Gürcüstana ildə 1% dərəcəsi ilə 25 illiyinə 220 milyon dollar kredit verib.

❑ **Musavat.com**

# ATV-də vitse-prezidentik müəmması

## Vaqif Aydınoğlu vitse-prezident təyin edildiyini dedi, kanalın rəhbəri Azər Xəlilov təkzib etdi



**Sentyabrın 27-də günün ən müəmmalı gelişmələrindən biri də ATV kanalının rəhbərliyi ilə bağlı oldu. Belə ki, günorta saatlarına media və sosial şəbəkələrdə "Azad Azərbaycan" Müstəqil Teleradio Kompaniyasının (ATV) vitse-prezident vəzifəsinə təyinat olduğu xəbəri yayıldı. Məlum oldu ki, vitse-prezident vəzifəsi müvəqqəti olaraq ATV-nin İctimai-siyasi verilişlər departamentinin baş redaktoru Vaqif Aydınoğluna həvalə edilib.**

ATV-nin İctimai-siyasi verilişlər departamentinə isə müvəqqəti olaraq Ceyhun Əli rəhbərlik edəcək.

Qeyd edək ki, telekanalın vitse-prezidenti vəzifəsini tutan Rauf Dadaşov dünən öz ərizəsi ilə işdən azad edilib.

"Yeni Müsavat" xəbəri dəqiqləşdirmək üçün V.Aydınoğlu ilə əlaqə saxladı. Həmkarımız xəbəri təsdiqləsə də, bundan artıq hər hansı informasiya vermək səlahiyyətinin olmadığını dedi.

Bir qədər sonra isə fərqli xəbər yayıldı.

**"Vaqif Aydınoğlunun Azad Azərbaycan Müstəqil Teleradio Şirkətinin vitse-prezidenti təyin olunması barədə xəbər yanlışdır".**

**Bunu "Report"a açıqlamasında şirkətin prezidenti, əməkdar jurnalist Azər Xəlilov deyib. O bildirib ki, hələ heç bir rəsmi təyinat olmayıb:** "Ümumiyyətlə, vitse-prezident vəzifəsini hələ ki heç kim icra etmir. Heç bir şəxsi heç bir vəzifəyə təyin etməmişik. Hələlik yeganə göstəriş odur ki, iş davam edir. Təyinatlarla bağlı yayılan xəbərlər səhv, təhrif olunmuş, yanlış məlumatlardır".

A.Xəlilov eyni zamanda deyib ki, CBC kanalına da rəhbərliyi hələlik özü edir. O deyib ki, ATV-də üç nəfərdən başqa ərizə yazaraq işdən çıxmaq istəyən olmayıb. A.Xəlilov onu da qeyd edib ki, iki verilişdən ("Yoxlama" və "ATV səhər") başqa, hansısa proqramın bağlanması barədə heç bir qərar qəbul olunmayıb: "Hazırda gərgin iş rejimi olduğundan yaxın gələcəkdə ATV üçün hansısa dəyişikliklərin edilməsi barədə danışmaq tezdir".

"Vaqif Aydınoğlu ATV-də cari məsələlərin yerinə yetirilməsi məqsədilə müvəqqəti olaraq mənim köməkçim funksiyasını yerinə yetirir".

A.Xəlilov açıqlamasında bunu deyib. O qeyd edib ki, bu təyinat telekanalda keçid dövrünə hesablanıb.

Bu arada mediada ATV-dən 32 nəfərin uşaqlaşdırılması ilə bağlı xəbər yayılsa da, dünən əldə etdiyimiz məlumatda bu, təkzib edildi. Məlum oldu ki, kanaldan ümumən 3 nəfər çıxıb və bunlardan biri də V.Qaradağlıdır. Onun işdən çıxarılma səbəbləri rəsmi olaraq açıqlanmır. Amma indən belə kanalda əyləncəli verilişlərin azaldılacağı, xəbər siyasətinin dəyişdiriləcəyi ilə bağlı xəbərlər dolaşır.

Xatırladaq ki, sentyabrın 26-da "Azad Azərbaycan" Müstəqil Teleradio Kompaniyasının təsisçisinin qərarı ilə ATV-nin rəhbəri Vüqar Qaradağlı da vəzifəsindən azad olunub. Onun yerinə Azər Xəlilov təyin edilib. A.Xəlilov buna qədər CBC televiziyasının rəhbəri olub.

❑ **Sevinc TELMANQIZI**



# ARDNF-in 2017-ci il büdcəsinə dəyişikliklər ediləcək

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.**

Fondun İctimaiyyətlə əlaqələr sektorundan "APA-Economics"ə verilən məlumata görə, baş nazir, ARDNF-nin Müşahidə Şurasının sədri Artur Rasi-zadənin sədrliyi ilə keçirilən iclasda Fondun 2017-ci il büdcəsində dəyişikliklərin edilməsi məsələsinə baxılıb.

Müşahidə Şurası təqdim olunmuş ARDNF-nin 2017-ci il büdcəsinə dəyişiklikləri məqbul hesab edib və həmin dəyişikliklərin təsdiq olunmaq üçün Azərbaycan prezidentinə təqdim olunması barədə qərar qəbul edib.

# Yol polisi yağışlı hava şəraiti ilə əlaqədar sürücülərə müraciət etdi

**Baş Dövlət Yol Polisi idarəsi yağışlı hava şəraiti ilə əlaqədar sürücülərə müraciət edib.**

İdarədən APA-ya verilən xəbərə görə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaxın bir neçə gündə havaların yağmurlu keçməsi barədə məlumat yayıb: "Artıq Bakıda və respublikanın digər bölgələrində yağıntı müşahidə edilir. Buna görə, sürücülər bir neçə məqama xüsusi diqqət yetirməlidirlər. İlk növbədə avtomobilin şüşəsilənləri, işıq cihazları saz vəziyyətdə olmalıdır".

Məlumatda qeyd olunur ki, yollarda sürət rejimi yolun vəziyyətinə uyğun seçilməlidir: "Yolda sürət həddi 110 km/saat göstərilirsə, sürücü mütləq bu sürətlə avtomobili idarə etməməlidir. Yol hərəkəti qaydalarında və qanunvericilikdə də qeyd edildiyi kimi, sürücü yol və meteoroloji şəraitə uyğun sürət rejimi seçməlidir, Belə havalarda avtomobilin təkərlərinə xüsusi diqqət yetirilməlidir. Əksər yerlərdə yolun səthi islanıb. Bu vəziyyət çox ciddi bir təhlükəni gizlədir. Uzun müddət quraqlıqdan sonra belə çiskin asfalt üstündəki tozu isladır və çox sürüşkən bir təbəqə əmələ gəlir. Bu təbəqənin sürüşkənliyi bəzən qardakı kimi ola bilər. Nə qədər ki, yağış gur yağaraq o sürüşkən təbəqəni yoldan yumayıb, diqqətli olun, sərt manevr etməyin, sürəti aşağı salın, ara məsafəsini bir az da artırın".

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

# Borclu bankirlərin ölkədən çıxışına qadağa qoyula bilər

“Bank Standard”la bağlı baş verənlər dərs olmalıdır; **Əkrəm Həsənov:** “Səlim Krimanla yanaşı, Mərkəzi Bankın da rəhbərliyi istintaq obyekti olmalı və ölkədən çıxışı yasaqlanmalıdır”

**Müflis elan olunaraq bağlanan “Bank Standard”ın keçmiş rəhbəri Kriman Səlim Eldaroviçin barəsində cinayət işinin istintaqı dayandırılıb və o, beynəlxalq axtarışa verilib.**

Cinayət işi materiallarında qeyd olunur ki, S.Kriman bir neçə sahibkarla əlbir olaraq bankdan milyonlarla manat pul mənimsəyib. Hazırda burada problemli məqam sabiq bankirin ölkədə olmaması və beynəlxalq axtarışa verilməsidir.

Belə olan halda bağlanan bankların rəhbərlərinin, yəni əmanətçilər qarşısında borclu olan bankirlərin ölkədən çıxışının qadağan olunması daha doğru olmazmı? Bank haqqında qanunvericilikdə belə bir dəyişikliyin olmasını ekspertlər necə dəyərləndirirlər? “Bank Standard”ın timsalında cinayətlərə məsul olan şəxsin ölkədən qaçması və məsuliyyətə cəlb edilə bilməməsinin doğurduğu nəticələr göz qabağındadır. Mərkəzi Bank necə, belə bir qanunun qəbul olunmasına tərəfdar olacaqmı?

“Yeni Müsavat”ın suallarını cavablandıran hüquqşünas, uzun illər bank sektorunda, o cümlədən “Bank Standard”da mühüm vəzifədə çalışan **iqtisadçı ekspert Əkrəm Həsənov** bildirdi ki, belə bir qanunun qəbulu nə bankların, nə də Mərkəzi Bankın marağında deyil: “Əvvəla, gəlin ondan başlayaq ki, ”Bank Standard"ın İdarə Heyətinin hansı sabiq sədri axtarışdadır. Bu, Səlim Krimandır. Kriman bankın müflisləşməsindən bir neçə il əvvəl vəzifəsindən azad olunub. Aydın məsələdir ki, bank ilk növbədə məhz Krimanın yaratmaz fəaliyyəti və böyük ehtimalla cinayət əməlləri nəticəsində müflis olub. Sonra gələnlər artıq viran qalmış obyektə rəhbər idilər".

**Hüquqşünas vurğuladı ki, indiki halda Kriman bankın müflisləşməsindən öncə ölkəni tərk edib:** “Kriman uşaqlıqda peşəkar şahmatçı olub, gedişləri qabaqcadan hesablamağı bacarır. Odur ki, tədarükünü qabaqcadan görmüşdü. Ona görə də onun ölkədən çıxışına yasaq qoymaq mümkünsüz idi. Hətta hesab etsək ki, hansısa bank rəhbəri müflisləşmə anında hələ ölkədədir, onun təqsirinin araşdırılması zaman tələb edir. Krimanın da təqsiri barədə rəyin formalaşmasına bir neçə ay vaxt gedib. Yəni sadəcə, bank müflis oldu deyə onun rəhbərliyinin ölkədən çıxışına məhdudiyyət qoymaq olmaz. Araşdırma zamanı isə təbii belə rəhbər aradan çıxmaq imkanına malikdir. Təbii, həmin rəhbər aradan çıxmayıbsa, çıxışına qadağa qoymaq lazımdır”.

**Ə.Həsənov vurğuladı ki, “Bank Standard” kimi böyük şirkətin müflisləşməsində təkcə Krimanın günahının olmasına inanmaq sadəlövhlük olardı:** “Kriman, sadəcə, icraçıdır. Yəni o, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev kimi müstəqil fiqur deyil. Onun əməllərinin sifarişçiləri və onlara göz yumanlar var. Bax, bu, ciddi araşdırılmalıdır. Burada ən azı Mərkəzi Bankın suçu açıq-aşkardır. Mərkəzi Bank illərlə banklar üzərində bank nəzarətini həyata keçirib. İndi isə məlum olur ki, uzun müddət ərzində bu bankda misli görünməyən qa-



Əkrəm Həsənov

nun pozuntuları olub. Təkrar edirəm ki, Kriman Cahangir Hacıyev deyil ki, Elman Rüstəmov onun rəhbərlik etdiyi banka nəzarət etməkdən, səsini çıxartmaqdan qorxsun. Əksinə, Mərkəzi Bank rəhbərliyinin ”Bank Standard"la çox isti münasibətləri olub, həmin banka xeyli kredit veriblər. Əmanətlərin Sığortalanması Fondu Kreditorlar Komitəsinə rəsmi bildirib ki, Mərkəzi Bank “Bank Standard”a hətta təyinatlı kreditlər də verib. Məsələn, deyib ki, mən sənə bir neçə milyon kredit verirəm, sən də onu, filan sahibkara ver, girovu da mənim adıma rəsmiləşdir. Əvvəla, bunun özü artıq qanun pozuntusudur: Mərkəzi Bank belə təyinatlı kreditlər verə bilməzdi. Digər tərəfdən isə bu, çox isti və qeyri-rəsmi münasibətlərdən xəbər verir".

**Ekspert bu cinayət işində Mərkəzi Bank rəhbərliyinin də məsuliyyət daşıdığını diqqətə çatdırdı:** “Deməli, Mərkəzi Bankın hər şeydən xəbəri var idi və bankın müflisləşməsində əli var. Hətta KPMG audit şirkəti Elman Rüstəmova 3 dəfə müraciət etmişdi ki, ”Bank Standard"ı yoxlaya bilmirəm, imkan vermirlər. Amma tədbir görülməyib. Deməli, Krimanla yanaşı Mərkəzi Bankın da rəhbərliyi istintaq obyekti olmalı və ölkədən çıxışına qadağa qoymaq lazımdır. Amma heç Elman Rüstəmov konkret öz əleyhinə işləyən belə tədbirə təşəbbüs göstərərmi? Əlbəttə, yox. İndi o maraqlıdır ki, bütün təqsir Krimanın üstünə atılsın. Amma Kriman birdən tutulub gətirilsə, Elman müəllimin evi yıxıla bilər. Kriman sandığı açıb, pambığı tökə bilər. Odur ki, Mərkəzi Banka hansısa qanunvericilik təşəbbüsü verilsə, əksinə, qaçaq bankirlərin ölkəyə gətirilməməsi haqda layihə təklif edər.

Eyni zamanda onu da başa düşmək lazımdır ki, bankın daxilində də Kriman təkbaşına iş görə bilməzdi. “Bank Standard”ın bütün rəhbərliyinin fəaliyyəti ciddi araşdırılmalıdır. Amma hələlik bunu görmürük. Əksinə, hamısı indi başqa banklarda rəhbər vəzifə tutur. Bankın keçmiş sədr müavini Orxan Xubanov isə bu yaxınlarda hətta Əmanətlərin Sığortalanması Fondunda yüksək vəzifə alıb. Yeri gəlmişkən, o, Mərkəzi Bankın sədr müavini Vadim Xubanovun qardaşı oğludur. Təsəvvür edirsiniz də: müflis bankın keçmiş inzibatçısı indi onun ləğvedicisinin rəhbərlərindən biridir. Beləsi heç ölkədən getmək istəyər? Hazırda yüksək vəzifədə oturub, özü də törədilmiş qanunsuzluqların ört-basdır edilməsinə imkan verən vəzifədə. Mən hesab edirəm ki, müflis bankların nəinki inzibatçıları, hətta struktur bölmələrinin rəhbərləri azı 5 il maliyyə sektorundan və dövlət qulluğundan uzaqlaşdırılmalıdır. Təqsirlərinin olub-olmaması isə sonra araşdırılmalıdır. Təqsiri varsa, məsuliyyətə cəlb olunmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# “Azərbaycanda heç zaman kürd problemi olmayıb”

Sabiq MTN polkovnikindən mühüm açıqlamalar; **İlham İsmayıl:** “O şəxs nəzarətə götürülər ki, Azərbaycan dövlətinin maraqlarının, konstitusiyasının əleyhinə fəaliyyət göstərsin”

**Sentyabrın 25-də Şimali İraq Kürd Muxtariyyətinin keçirdiyi qanunsuz referendum dünya boyunca gündəmdədir. Bir sıra ölkələrə qarşı ərazi iddiaları ilə çıxış edən separatçı kürdlərin yaşadıqları ölkələrdə nəzarətə götürülmələri ilə bağlı tələblər səslənir. Doğrudur, bunun düzgün olmadığı barədə fikirlər də az deyil.**

Çünki müstəqil dövlət olmaq bütün kürdlərin istəyi deyil. Elə dövlətlər var ki, orada yaşayan kürdlər dövlətçiliyə sadiq qalır, yerli əhali ilə qaynayıb-qarışıblar. Azərbaycanda da yaşayan kürdlər var. İndiyə qədər onların dövlətimiz əleyhinə hər hansı bir fəaliyyətlərinin şahidi olmamışıq. Amma bununla belə, Azərbaycan dövlətinin onları referendumdan sonra nəzarətə götürməsinin vacibliyi barədə fikirlərə rast gəlirik. Buna səbəb isə Laçın Rayon İcra Hakimiyyətinin hüquqşünasının tutduğu vəzifəyə rəğmən kürd separatçılarını açıq şəkildə dəstəkləməsidir.

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bütün kürdlərin nəzarətə götürülməsini doğru saymır:** “Azərbaycanda kürdlərin sayı azdır. Çoxluq deyillər ki, sıx yaşadıqları yer də olsun. Əvvəllər Laçında 7, Kəlbəcərdə 3, Qubadlıda 2 kürd kəndi mövcud idi. Sonradan həmin yerlər işğal olunduğu üçün ölkənin müxtəlif yerlərinə səpələndilər. Ümumiyyətlə, Azərbaycanda kürd problemi olmayıb. ”Kürdüstan" məsələsindən sonra onları nəzarətə götürmək lazım deyil. Onları nəzarətə götürmək qanunsuzluq olar.



İlham İsmayıl

O şəxsi nəzarətə götürməlidirlər ki, Azərbaycan dövlətinin maraqlarının, konstitusiyasının əleyhinə fəaliyyət göstərsin. O şəxs fərdi şəkildə nəzarətə götürülə bilər. Əgər buradan kimsə “Kürdüstan” dövlətini təbliğ edib, kürdləri ora köçürməyə çağırırsa, burada da bir qəbahət yoxdur. Azərbaycanda o şəxs nəzarətə götürülməlidir ki, dövlətimizin qanunlarının əleyhinə getsin. Əgər kürd separatçılığı yoxdursa, nəzarətə götürülmənin nə anlamı var ki. “Kürdüstan” dövlətinə ölkəmizin maraqları əleyhinə mənəvi və maddi tərəfdən işlər görülürsə, bu şəxslər nəzarətə götürülə bilər. Şəxsən tanıdığım kürdlər var. Heç ağıllarına gəlmir ki, “Kürdüstan” dövləti var, yaxud yaranıb. Azərbaycanda fərdi şəkildə bəzi şəxslər var ki, bütövlükdə mənəvi iqlimi pozmaq üçün burada müəyyən işlər görüblər. Bu fəaliyyət nədən ibarət olub? Burada Abdulla Öcalanın şəkillərini, təqviminі yayırdılar. Yadınızdadırsa, atası milli qəhrəman olan şəxs var idi ki, kürd bayrağı altında şəkillər çəkdirib yaymışdı. Belə şəxslər müəyyən mənada nəzarətə götürülə bilərlər. Amma bütövlükdə birində kürd sevgisi varsa, “Kürdüstan” dövlətinin yaranmasını istəyirsə, qəbahət deyil. Vaxtilə İsrail dövləti yarananda dünyanın bir çox yerindən, o cümlədən SSRİ-dən nə qədər adam ora getdi. Bir faktı demək yerinə düşər. Xatırlayırsınızsa, Öcalanın məhkəməsində o dedi ki, bizim Azərbaycanda güclü dayaqlarımız var. Bu fikirlər buradan adamları aparıb PKK-ya qoşmaq mənasını daşımırdı. Sadəcə, onların burada maliyyə dayaqları var idi. Ola bilər ki, həmin şəxslərin hansısa formada “Kürdüstan”a dəstəkləri olsun. Orada da Azərbaycan qanunları pozulmursa, yenə də qəbahət yoxdur. O şəxsləri nəzarətə götürməliyik ki, Azərbaycanın bütün maraqlarına zərər gətirə bilərlər. Bir kürd ki, Azərbaycan vətəndaşıdır, amma kürdlərin dövlət qurmalarına sevinir, qoy sevinsin. Burada heç bir problem yoxdur".

**Təhlükəsizlik eksperti Laçın Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Füzuli Tanrıverdiyevin kürd referendumunu dəstəkləməsinə də toxundu:** “Bu adam açıq şəkildə deyir ki, mən kürdəm, ”Kürdüstan" dövlətinin qurulmasına sevinirəm. Bunların hamısı normaldır. Amma onun xüsusi təbliğatı ölkəmizdə mənəvi iqlimin pozulması deməkdir. Qardaş Türkiyənin ərazi bütövlüyünə təhlükə yarandığını hamımız bilirik. Separatçılar Türkiyə daxilində və sərhədlərində fəaliyyət göstərirlər. Bu mənada araşdırmaq olar ki, belə təbliğatlar sonu nəyə aparır. Amma nəzarətə götürmək olmaz. Füzuli Tanrıverdiyev burada konkret ərazi göstərib desəydi ki, burada da kürd muxtariyyəti yaratmaq istəyirik, hətta işğal altında olan Laçın, Kəlbəcər, Qubadlı kimi yerləri göstərsəydi belə, o, mütləq nəzarətə götürülməli, önləyici tədbirlər görülməli idi. O şəxs səhv etmirəmsə, hakim partiyanın üzvüdür, onun səhvi siyasidir, yeni milli səhvi yoxdur. Kürd milliyyətinin nümayəndəsi kimi heç bir səhvi yoxdur. Sadəcə, düşünməli idi ki, Azərbaycan vətəndaşıdır, partiya mənsubiyyəti var, atdığı addımların siyasi, dövlətçilik üçün zərəri var".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

# "Azərbaycanın xoş niyyətlə danışıqlar prosesində iştirakı elə güzəştdir"

## XİN sözçüsü ölkəmizin danışıqlar prosesində güzəştə razı olmasına dair ermənilərin iddialarını yalanladı; **Hikmət Hacıyev:** "Ermənistana heç kim haqq verməyib ki, Azərbaycanın işğal olunmuş ərazilərini hər hansı bir öz bildiyi formada sövdələşmə obyektinə çevirsin"



**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a geniş müsahibə verib. Qarabağ probleminin həlli ilə bağlı aparılan danışıqların perspektivi, işğalçı tərəfin iddiaları, BMT-dəki sərt çıxışlardan sonrakı gözləntilər və digər məsələlərdən bəhs edən söhbətimizi təqdim edirik:**

***- Hikmət bəy, Ermənistan mətbuatı iddia edir ki, Azərbaycan tərəfi XİN rəhbərlərinin son görüşündə güzəştlərə razılığını bildirib. Bakı Qarabağla bağlı hansı güzəştləri vəd edib ki, bunlar hay-küy salıbar?***

- Bu, tamamilə cəfəng fikirlərdir, erməni təbliğat maşınının uğursuz cəhdləridir. Münaqişənin həlli prinsipləri və planlar göz qabağındadır. ABŞ-dan olan keçmiş həmsədr Riçard Hoqland tərəfindən hazırda danışıqlar masasında olan prinsiplər və planlar açıqlandı. Münaqişə mərhələli yolla həll olunmalıdır. Mərhələli həll prosesinin ən vacib və ümdə tərkib elementlərindən biri də Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasıdır. Ona görə də xarici işlər nazirləri səviyyəsində Nyu-Yorkda keçirilmiş görüşdə məhz bu əsnada danışıqlar aparılıb. Baxmayaraq ki, Ermənistan tərəfi yenə də xarici işlər naziri Edvard Nalbəndyanın timsalında danışıqlara texniki xarakter verməyə çalışırdı. Amma həmsədrlərin bəyanatından da göründüyü kimi, burada danışıqların substantiv şəkildə aparılması üçün ciddi məsələlər müzakirə olunub. Həmişə də qeyd edirik ki, substantiv danışıqlar status-kvonun dəyişdirilməsidir. Status-kvonun dəyişdirilməsi isə Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasıdır. Azərbaycanın xoş niyyətlə danışıqlar prosesində iştirakı elə Azərbaycanın güzəştidir.

***- Nazirlər səviyyəsində keçirilən görüşə sayılı günlər qalarkən Nalbəndyan Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsi istiqamətində danışıqların aparıldığını açıqlamışdı. Lakin erməni ordusunun rəhbərliyindən sərt təpki gəldi və Nalbəndyan tam əksini söylədi, fikirlərinin təhrif olunduğunu iddia etdi. Əslində nə baş verir? Danışıqlarda nələr müzakirə olunur? Erməni nazir hansı sözlərində haqlıdır?***

- Ermənistan tərəfinin nə deməsindən asılı olmayaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması hazırda aparılan danışıqların ən ümdə və vacib prinsipidir. Həmçinin yenilənmiş Madrid prinsiplərinin və hazırda danışıqlar masasındakı təkliflərin məzmununu və məntiqini bu təşkil edir. Göründüyü kimi, Ermənistan da bununla hesablaşır və hesablaşmalıdır.

***- Hesab etmək olarmı ki, Ermənistan XİN başçısı ordudan, yaxud başqa hansısa qüvvələrdən çəkindiyi üçün mövqeyini dəyişdi?***

- Erməni nazirin nə deməsindən asılı olmayaraq... Ümumiyyətlə, danışıqlar prosesinin mahiyyəti budur: Ermənistana heç kim haqq verməyib ki, Azərbaycanın işğal olunmuş ərazilərini hər hansı bir öz bildiyi formada sövdələşmə obyektinə çevirsin. Ermənistanın buna haqqı və əsası yoxdur. Azərbaycanın mövqeyi birmənalıdır və danışıqlar prosesinin də mahiyyəti budur ki, Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır və mərhələli proses çərçivəsində münaqişənin həlli başlamalıdır ki, burada da ilk və vacib şəxs Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsi ətrafındakı ərazilərdən Ermənisan qoşunlarının çıxarılması və məcburi köçkünlərin geri qayıtmasının təmin olunmasıdır.

***- Ermənistan ordusunun rəhbərliyi iddia edir ki, Dağlıq Qarabağ ətrafındakı rayonlarda müdafiə sistemi qurulub və o sistemin dağılması onlar üçün fəlakətli nəticələr verə bilər. Deməli, İrəvanın güzəştli siyasətinə qarşı çıxan ordu var. 1999-cu ildə İstanbul sammitində razılaşma gözləntisi olarkən də Ermənistan parlamenti güllə-baran edildi. Belə etirazlar olduğu halda, aparılan danışıqların nəticəsi ola bilərmi?***

- Ümumiyyətlə, danışıqlar prosesində hər hansı bir konkretlik və mahiyyətlik ortaya çıxdığı təqdirdə Ermənistan prosesi pozmaq üçün müxtəlif təxribatlara əl atır. Artıq biz bunu uzun müddətdir ki, yaşayırıq və görürük. İndi də danışıqlar masasında kifayət qədər konkret mahiyyət kəsb edən məsələlər var. Ermənistanın da təxribatlara əl atması istisna edilmir. Amma bunu Minsk Qrupunun həmsədrləri də görməlidirlər, qeydə almalıdırlar. Yenə də Ermənistan təxribatlara əl atacaqsa, bundan nəticə çıxarılmalıdır.

***- Mövcud durumda həmsədrlərin Qarabağ məsələsinin həlli ilə bağlı mövqeyi üst-üstə düşürmü? Rusiya ilə ABŞ arasındakı konfrontasiya Qarabağın həllinə təsir edirmi?***

- Həmsədrlər arasında fikir ayrılığı görmürük. Yəni formalaşdırılan prinsiplər və münaqişənin həlli üzər atılmalı addımlar barədə ümumi bir fikir formalaşıb. Həmsədrlər arasında da eyni mövqe var. Azərbaycan da bu və ya digər şəkildə bu fikirlərlə razıdır. O mənada ki, tərəflər substantiv danışıqları davam etdirərək münaqişəni həllində irəliləyişə nail olmalıdırlar. Burada da ilk addım işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasıdır. Yəni işğal faktına son qoyulmasıdır. Münaqişənin fundamental əsasını məhz bu amil təşkil edir.

***- Hoqland planı ilə yanaşı, ortada Lavrov planı da var...***

- Burada Hoqland planı ifadəsi düzgün olmazdı. Bu, Minsk Qrupunun həmsədrlərinin illər ərzində danışıqlar prosesində formalaşdırdığı prinsiplərdir. Sadəcə olaraq, Hoqland bir həmsədr olaraq, Minsk Qrupunun adından bu prinsipləri səsləndirib. Digər həmsədr ölkələr də buna razıdırlar və bunu dəstəkləyirlər və onların iştirakı ilə bunlar hazırlanıb.

***- Bəs Lavrovun masaya qoyduğu təkliflərin, planın taleyi necə oldu?***

- Bundan əvvəl də danışıqlar masasında digər təkliflər var idi və bu da var. Bu və ya digər təkliflər biri digərindən fərqli xarakter daşımır. Bunların mahiyyəti eynidir: münaqişə mərhələli şəkildə həll olunmalıdır və mərhələli həll prosesi çərçivəsində də ilkin addım kimi, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsi ətrafından qoşunlar çıxarılmalı və məcburi köçkünlər geri qayıtmalıdır.

***- Hikmət bəy, son vaxtlara qədər Ermənistan Laçın dəhlizini "vazkeçilməz" hesab edirdi və həmin ərazinin qaytarılmasını mümkünsüz sayırdı. Amma keçən ay Vardenis-Ağdərə yolu istifadəyə verildi və belə görünür ki, Ermənistan Qarabağa daha qısa yolun keçdiyi ərazini, həmçinin Kəlbəcəri geri qaytarmaqdan imtina edəcəklər. Elə isə bundan sonrakı danışıqların perspektivini görürsünüzmü?***

- Görünən odur ki, Ermənistan tərəfi hər bir vəcdlə status-kvonu saxlamağa çalışır. Status-kvo da işğala əsaslanır və onun tərkib hissəsi kimi işğal olunmuş ərazilərimizdə qeyri-qanuni fəaliyyətlərini həyata keçirir. Bunun da tərkib elementlərindən biri işğal olunmuş ərazilərdə infrastrukturun dəyişdirilməsi kimi əməllərdir. Biz də bunu Minsk Qrupu həmsədrləri qarşısında qaldırırıq ki, əgər siz münaqişənin danışıqlar yolu ilə həllinə çağırış etdiyiniz halda, Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinə insanların köçürülməsi, məskunlaşma həyata keçirmək kimi qeyri-qanuni əməllərinə də göz yummamalısınız. Ona görə də Ermənistanın hər bir işğal olunmuş ərazidə apardığı fəaliyyət ciddi şəkildə monitorinq edilir, öyrənilir, araşdırılır və Minsk Qrupunun həmsədrləri qarşısında da qaldırılır. Ermənistanın işğal olunmuş ərazilərdə həyata keçirdiyi fəaliyyəti qeyri-qanunidir, bu, beynəlxalq humanitar hüquqda da və Cenevrə konvensiyalarında da təsbit olunub. Qeyri-qanuni həyata keçirilən əməllər heç bir halda münaqişənin həllinə təsir etməməlidir, edə də bilməz, çünki beynəlxalq hüquqda da təsbit olunub.

***- BMT Baş Assambleyasının son sessiyasında Ermənistan tərəfin iddialarına Azərbaycanın dövlət başçısı səviyyəsində çox sərt və tutarlı cavablar verildi, erməni prezidentin cani olması yüksək tribunadan bəyan olundu. Bundan sonra prezidentləri bir masa arxasında əyləşdirmək cəhdləri yaxın perspektiv üçün mümkün görünürmü?***

- Dövlətimizin başçısı tərəfindən dünyanın ən ali tribunasından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun humanitar aspektləri, münaqişənin həllinin əsasını təşkil edən fundamental prinsiplər və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün Azərbaycanın ata biləcəyi və atmalı olduğu addımların hüquqi əsasları barədə beynəlxalq ictimaiyyətə dolğun, ətraflı və qətiyyətli məlumat verildi, beynəlxalq ictimaiyyətə tam şəkildə rəsmi Bakının mövqeyi çatdırıldı. Ermənistan tərəfi ilə dövlət başçıları səviyyəsində görüşə gəldikdə isə, xarici işlər nazirlərinin Nyu-Yorkda keçirilmiş görüşündə bu məsələ müzakirə olunub, həmsədrlər tərəfindən belə bir təklif var. XİN rəhbərləri də dövlət başçılarına məruzə edəcək və belə bir görüşün keçirilməsi məsələsi barədə qərar qəbul edəcək. Azərbaycanın mövqeyi yenə də odur ki, biz bu görüşlərə hazırıq. Amma bu görüşlərdə məzmun, mahiyyət olmalıdır və substantiv danışıqlara xidmət etməlidir. Göründüyü kimi də hazırda müzakirə üçün əsas yarada biləcək fikirlər, tezislər və planlar var.

***- Ermənistan tərəfdən səslənən bəyanatlar var: "Biz bir qarış da torpağı geri qaytarmayacağıq, bir addım da geri çəkilməyəcəyik" kimi. Bundan sonra görüşlərin mənası varmı?***

- Azərbaycan tərəfi hesab edir ki, münaqişənin danışıqlar yolu ilə həlli üçün imkanlar tükənməyib. Ermənistanın da işğalçılıq siyasətinin mahiyyətinin tam varlığı ilə sübut etmək üçün Azərbaycan sülh və danışıqların yaratdığı bütün imkanlardan maksimum istifadə etməlidir və edir də. Ona görə də münaqişənin həlli üçün yarana biləcək danışıq imkanını qiymətləndiririk və bundan istifadə edərək beynəlxalq ictimaiyyətə də, Ermənistan tərəfinə də sübut etməyə çalışırıq. Ona görə də Azərbaycan bu xətti davam etdirir və əgər Ermənistanın mahiyyəti, məzmunu bundan ibarətdirsə, bu yolla da o, ifşa edilir.

### "Türkiyədən Dağlıq Qarabağa səfər edənlər qardaş Türkiyəyə qarşı müəyyən siyasi xətt yürüdən şəxslərdir"

***- Son dövrlərdə Qarabağa qanunsuz səfərlər yenə də intensivləşib. Fransadan gələn bir qrup işğal olunmuş Azərbaycan şəhərləri ilə "qardaşlıq sazişi" imzaladılar. Eyni zamanda Türkiyədən bir heyət işğal zonasına səfər etməklə bizi üzdü. Rəsmi Bakı bununla əlaqədar hansı işləri görür?***

- Göründüyü kimi, Ermənistan tərəfi son dövrlərdə Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərin kütləvi şəkildə azalmasından narahat olaraq, buraya erməni lobbi dairələrinin və Ermənistana daim yaxınlığı ilə seçilən şəxsləri cəlb edərək, bu səfərlərin intensivliyinin artmasının imitasiyasını yaratmağa çalışır. Amma səfər edən şəxslərin mahiyyətinə və onların dünyagörüşünə baxdıqda, tam şəkildə aydın olur və görünür ki, bu, mahiyyət etibarilə anti-Azərbaycan, islamafob, irqçi təmayüllü insanlardırlar. Bunların da erməni lobbisi ilə bilavasitə bağlılığı heç kimdə şübhə doğurmur. Bu qəbildən olan insanların qanunsuz səfərini təşkil etməklə belə bir imitasiya yaratmağa çalışırlar. Ancaq təbii ki, hər bir belə hal təfərrüatı ilə, tam şəkildə araşdırılır. Türkiyədən Dağlıq Qarabağa səfər edən şəxslərə gəldikdə isə, birinci onlar elə qardaş Türkiyəyə qarşı müəyyən siyasi xətt yürüdən şəxslərdir. Onların həmişə erməni lobbi dairələri ilə təmasları olduğu heç kimdə şübhə doğurmur.

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 219 (6247) 5 oktyabr 2015

# İşıqlı projelər qaranlıq sularda necə batırılır




## İki Şərifovun sabotajı - Ələt limanının tikintisində qorxunc maxinasiyalar

**Ələt azad ticarət zonasının yaradılmasının və limanın açılışının ləngiməsinin arxasında baş nazirin müavini Abid Şərifovun və maliyyə naziri Samir Şərifovun şəxsi maraqlarının dayandığı iddia edilir; ölkənin gələcəyi üçün mühüm sayılan yeni projelərə məmurların qarşı çıxmasının müdhiş səbəbləri**

**Azərbaycan iqtisadiyyatının şaxələnməsi, qeyri-neft sektorunun inkişafı ölkəmizin alternativi olmayan əsas prioritet istiqamətdir. Bu istiqamət üzrə 2 mühüm sahədə həyata keçirilən tədbirlər diqqəti cəlb edir. Bunlardan biri aqrar sektorun inkişafıdırsa, digəri orta və uzunmüddətli perspektivə hesablanaraq Azərbaycanın regional ticarət-tranzit-logistik qovşağa çevrilməsini nəzərdə tutur. İkinci sahə üzrə aparılan işlərin ən mühüm həlqəsi Ələtdə azad ticarət zonası-liman tipli habın yaradılmasıdır.**

Musavat.com xəbər verir ki, ölkəmiz üçün tamamilə yeni bir sahə olan Ələt azad ticarət zonasının (ATZ) yaradılması, o cümlədən Ələt beynəlxalq dəniz limanının inşası son illərdə dövlət rəhbərliyi, bilavasitə prezident İlham Əliyev tərəfindən diqqətdə saxlanılır.

Qeyd edək ki, ötən ilin dekabrında prezident fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə görə, ölkənin regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi üçün artıq planlaşdırılmış, qismən icra edilmiş və tamamlanması mühüm əhəmiyyət kəsb edən üç layihə mövcuddur. Bunlar Ələt yeni Bakı Limanı kompleksi, Bakı-Tiiflis-Qars dəmir yolu və Astara-Astara dəmir yoludur. Davam edən bu layihələr üçün 1 milyard 200 milyon manat investisiya vəsaitinin lazım gələcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, Ələtdə yeni və müasir tipli dəniz limanının tikintisi ilə bağlı işlərə 2007-ci ildən başlanıb. Ötən illər ərzində tikinti işlərində xeyli ləngimələr qeydə alınıb. Belə ki, hələ 2008-ci ildə sabiq nəqliyyat naziri Ziya Məmmədovun mətbuata verdiyi açıqlamada limanın birinci mərhələsinin 2008-2011-ci, ikinci mərhələnin 2011-2013-cü, üçüncü mərhələnin isə 2013-2015-ci illəri əhatə edəcəyi, tikinti işlərinə bütövlükdə təqribən 400 milyon ABŞ dolları sərf olunacağı bildirilmişdi. Lakin cənab Məmmədovun rəhbərlik etdiyi nazirlik limanın texniki-iqtisadi əsaslandırma və layihəsinin işlənmə mərhələsini 2010-cu ilə güclə başa çatdıra bildi. Həmin il prezidentin iştirakı ilə limanın təməli qoyuldu.

### İki Şərifov bir layihəyə niyə pəl vurur?

Liman kompleksi akvatoriyasında (giriş kanalı və dönmə akvatoriyası) dibdərinləşdirmə işləri Hollandiyanın "Van Oord Dredging And Marine Contractors B.V." şirkəti tərəfindən yerinə yetirilib. Qalan bütün işlər "Evrascon" ASC-yə həvalə olunub. Məhz bu seçim limanın tikintisinin çox ciddi yubanmalarla aparılmasına səbəb oldu. İşlərin yubanması ilə bərabər, ona çəkiləcək xərclər də artdı. 2008-ci ildə elan edilən 400 milyon dollar *(təxminən 300-320 milyon manat)* 2012-ci ildə 870 milyon manata çatdı. Ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyətə malik layihənin icrasında maraqlı olan dövlət rəhbərliyi tikinti üçün vəsaitlərin ayrılmasını təmin etsə də, baş nazirin müavini Abid Şərifova bağlı olduğu deyilən "Evrascon" ASC işləri bir türlü irəli apara bilmədi.

Maraqlıdır ki, ASC-nin icraçı direktoru Manaf Şirinov özü də Ələt Limanının tikintisi ilə bağlı işlərdə problem yarandığını təsdiq edib. O, 2015-ci ilin yekunları ilə bağlı səhmdar cəmiyyətin səhmdarlarının yığıncağında bildirib ki, limanın tikintisi ilə bağlı 2014-cü il üçün görülən işlərə sərf olunacaq 50 milyon manatı ona büdcədən 2015-ci ilin may-iyun aylarında ödəyiblər. Bu üzdən də ASC layihə üzrə işləri davam etdirmək üçün dollar və avro ilə kreditlər götürüb. Bu, faktiki olaraq, yubanmanın məsuliyyətini büdcədən pulu təmin edən maliyyə naziri Samir Şərifovun üzərinə qoymaqdır.

Maraqlıdır ki, bu ilin yanvarında hökumət müşavirəsindəki çıxışında ölkə prezidenti İlham Əliyevin verdiyi məlumatdan aydın olur ki, 2014-2015-ci illərdə maliyyəni gec aldığını deyən ASC rəhbərliyi 2016-cı ildə ayrılan pulları xərcləməyib. Həmin müşavirədə İ.Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin gedişində meydana çıxmış problemləri dilə gətirdi. Bildirdi ki, tikintinin birinci mərhələsinin başa çatması ilə bağlı qrafikə əməl olunmayıb: "Bəzi icraçılar bu məsələyə çox laqeyd yanaşmışlar, baxmayaraq ki, dövlət vəsaiti ayrılıb, 2016-cı ildə o vəsaitdən tam istifadə edilməyib. Bu, dözülməzdir. Ona görə, əgər o məsuliyyəti dərk etmirlərsə, əgər dövlətin verdiyi sifarişi yerinə yetirməyə laqeydlik göstərirlərsə, bundan sonra dövlət sifarişlərindən məhrum ediləcəklər, qoy bunu bilsinlər. Ona görə, bu ilin payızına qədər Ələt Beynəlxalq Dəniz Limanının birinci mərhələsi bütün avadanlıqlarla, kranlarla təmin edilməlidir, əks halda özlərindən küssünlər".

Musavat.com bildirir ki, prezidentin bu çıxışından sonra işlərin sürətlənəcəyi gözlənirdi - sentyabrda limanın birinci mərhələsinin başa çatacağı elan edildi. Hətta iyun ayında mətbuata açıqlama verən "Evrascon" ASC İdarə Heyətinin sədri M.Şirinov işlərin qrafik üzrə getdiyini bildirib, "maliyyələşmə, mal və materialların alınması ilə bağlı heç bir problem yoxdur" deyib: "Bildiyiniz kimi bu yaxınlarda layihənin sifarişçisi dəyişdi, işlərə nəzarət İqtisadiyyat Nazirliyinə həvalə edildi. Həmin vaxtdan etibarən işlər daha da sürətləndirilib, müəyyən ləngimələrə səbəb olan problemlər aradan qaldırılıb."(virtualaz.org)

Lakin bu açıqlamadan 2 ay sonra - avqustun 2-də prezident sərəncamı ilə liman üçün 6 ədəd portal kranın alınması və 2 ədəd mövcud kranın modernləşdirilməsi məqsədilə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə 36,8 milyon (otuz altı milyon səkkiz yüz min) manat, digər sərəncamı ilə limanın tikinti işlərinin davam etdirilməsi üçün İqtisadiyyat Nazirliyinə 30 milyon manat ayrılıb. Göründüyü kimi, "Evrascon" yenə də üzərinə götürdüyü öhdəlikləri icra edə bilməyib. Buna görə də limanın birinci mərhələsi üzrə işlərin yekunlaşma tarixi sentyabrdan 2017-ci ilin sonunadək ertələndi.

Bu layihə ilə sıx bağlı olan Bakı-Tiflis-Qars dəmiryol xəttinin oktyabrın sonu üçün istifadəyə veriləcəyi nəzərdə tutulur. Eyni zamanda Xəzər dənizi üzərindən yük və sərnişindaşımaların həcmi sürətlə artır. Ələt Limanından verilən məlumata görə, bu ilin ilk yarısında Bakı Limanında ümumi yükaşırmanın (neft məhsulları xaric) həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 43,5 faizə qədər, Ələtdə yerləşən Bərə Terminalında vaqon aşırılması 35,2 faiz, Türkmənistan, Qazaxıstan istiqamətində sərnişindaşıma isə 50 faizə qədər artıb. TIR aşırılmasında isə artım 53,7 faiz olub. Bu şəraitdə limanın tikintisinin yubadılması dövlətin maraqlarına böyük zərbədir.

### Ələt ATZ-yə müstəsna hüquq verilməsi kimlərə sərf etmir?

Limanın tikintisi ilə bərabər, Ələtdə ATZ-in yaradılması üzrə işlər də yubanmaqdadır. Xatırladaq ki, ATZ-nin yaradılması barədə sərəncamı İ.Əliyev ötən ilin martında imzalayıb. Sentyabrda isə ATZ-in yaradılması üzrə məsləhətçilik işi dünyanın 3-cü böyük belə limanı olan Cəbəl-Əlinin yaradıcısı "DP World" şirkətinə həvalə olunub.

Qeyd edək ki, həm məsləhətçi şirkət, həm də "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC Ələt ATZ üçün müstəsna hüquqi rejimin nəzərdə tutulmasını istəyirlər. Hasilatın pay bölgüsü sazişləri kimi, ATZ-in fəaliyyətinə dair qanunun da xüsusi statusa malik olması təklif edilir. Bu, ATZ-in işinə yersiz müdaxilələrin qarşısını almaqda mühüm rol oynaya bilər.

Əldə etdiyimiz məlumata görə, bu ilin yazında hazırlanma prosesi başa çataraq Milli Məclisin payız sessiyasının gündəliyinə salınmalı olan qanunun yubanması da məhz bu istəklə bağlıdır: bir sıra məmurlar ATZ-ə müstəsna hüquqların verilməsini istəmirlər. Buna görə də qanun layihəsinin hazırlanması işi yubanır. Bu isə birbaşa prezidentin diqqət mərkəzində olan böyük bir layihənin icrasına mane olmaq deməkdir.

**❑ "Yeni Müsavat"ın iqtisadiyyat şöbəsi**

# Bədbəxtliyi müşahidə edənlərin 5 dəqiqəlik xoşbəxtliyi



**Samir SARI**

**Uzun illərdir baxdığım seriallarda (indi yüksək intellektlərdən kimsə deyəcək, "aaa, siz serial baxırmışsınız, gözləməzdim") belə epizodlar olur: müdir, sahibkar, işverən gəlir, tabeçiliyində olan və nəsə bir qüsura, qəbahətə yol verən işçiyə deyir: "Kovuldun!"**

Elə olur ki, "qovuldun" əmri eşidənlərdən bəziləri - kasıb və qürurlu insanlar "xeyr, özüm istefa verirəm" deyir, başlarını dik tutub gedirlər, elə də olur ki, işdən çıxarılan adam fondan verilən həzin musiqinin sədası altına kədərlənir.

Hər necə olur, olsun, o cür epizodlardan zəndeyi-zəhləm gedir. Məndən olsa, o cür epizodlara senzura tətbiq edərəm. Çünki burada insan ləyaqətinin alçaldılması var. İntəhası, görünür, o cür səhnələr birinin pis adam olmasını göstərmək üçündür, rejissor kəsə yoldan gedir ki, tamaşaçı "kovuldun" deyən şəxsin eşşəyin biri olduğunu dərhal anlasın.

Bununla belə, fikir verirəm ki, Anadolu türklərində bu "kovuldun" sözü o qədər də ağır, təhqiramiz söz sayılmır. Bu sözü futbol məşqçilərinə münasibətdə də tez-tez işlədirlər. Məsələn, "Fateh Terim millidən kovuldu", "Aykut Kocaman kovulacaqmı?", "Yılmaz Vural yenə kovulur" və sair və ilaxır. Belə çıxır ki, bizdə "filankəs vuruldu" sözü adamın işdən çıxarılmasını ifadə etdiyi kimi, onlarda da "kovulma" kəlməsi eyni mənada işlənir. Hətta bəzilərinin özü haqqında o cür ifadələr işlətdiyini *("5 yıl öncə "Göztəpə"də çalışırdım, ordan qovulandan sonra "Malatyaspor"u çalışdırdım, sonra ordan da qovuldum")* görmüşəm.

Amma bizdə kimin haqqında o sözü işlətsən, xətrinə dəyər, hətta əsəbiləşib adamla dalaşanlar olar. Türkün sözü, maləsəf, son vaxtlar bu söz bizim jurnalistlərimizin də dilinə düşüb, birini işdən çıxardanda, hətta yaranmış duruma tablaşmayan biri özü işdən gedəndədə elə yazırlar: "Filankəs işdən (vəzifədən) qovuldu".

Əslində burada bir bəyənməzlik, qisasçılıq aktı var. Heç kim rəğbət bəslədiyi birinin işdən çıxarılması halında "qovuldu" felini işlətmir, adətən, "filankəs işdən ayrıldı *(eləcə də "tərk etdi", "istefa verdi")* yazırlar. Amma elə ki, işdən çıxarılan "zəhləmgetmişlər" sinfinə daxil olan biri olur, o zaman "qovuldu" termini işlədilir. Bəziləri hətta "qovuldu"nun qabağına "it kimi" və ya "üzünə tüpürülərək"söz birləşmələri də artırmaq istəyir, hərdən artırırlar da, sadəcə, diqqətli redaktor o sözləri çıxarır.

Bununla belə, həmin redaktə başlığın təhqiramizliyini azaltmır. Elə çıxır ki, işverən *(öz dilimizdə desək, işəgötürən)* əlinə bir ağac alır və işdən çıxardığı adamı dəhlizdə, həyətdə döyə-döyə teyləyir, "rədd ol burdan, alçaq, bir də ayağın buralara dəyməsin" deyə qovub küçəyə çıxarır.

Elə olmur axı. Düzdür, hərdən, yüzdə bir halda elə variantlar da ola bilər, amma əksər halda adama deyirlər ki, iş belə gətirdi, daha birlikdə işləyə bilməyəcəyik. Arada "haqqını halal elə" kimi duyğusal söhbətlər, "gün gələr, yenə birlikdə çalışarıq" kimi kədərli, eyni zamanda ümid dolu ayrılıqlar da olur.

Ona görə də "qovuldu" söhbətinin yeri yoxdur. Sonuncu işdən qovulanlar isə... zarafat edirəm, o gün işdən çıxarılanlar isə, görünür, ictimaiyyətin sevmədiyi tiplərdəndir deyə onların barəsində "qovuldu" feili daha intensiv işləndi. Amma nahaq yerə. Ləman bacı demişkən, onlar bizim həmkarımızdır. Kim də onların barəsində "qovuldu-movuldu" desə də, biz elə yazmamalıyıq.

Düzdür, orası da var ki, adam gərək zamanında özünü elə aparsın, elə yazsın, elə danışsın ki, iş yerindən ayrılanda haqqında elə sözlər deməsinlər, iş yerinin bağlanmasına, işsiz qalmasına sevinməsinlər. Təəssüf ki, həmişə belə olmur. Hər kəsin bir (əlli, yüz, min) bədxahı var.

Bunun günahının yarısı vaxtında yaxşı-yaman yazan, danışan jurnalistlərdədir. Buna söz yox. Amma bir yarısı də tükənməz intriqa dağarcığı olan, darqursaq insanlardadır. Oturub gözləyirlər ki, tanıdıqları birinin başına belə bir iş gəlsin, bunlar da əllərinə xına qoyub şadyanalıq etsinlər.

Bilmək lazımdır ki, bir adamın bədbəxtliyə düçar olması müşahidəçiləri xoşbəxt, problemlərini həll eləmir, olsa-olsa beş dəqiqəlik kefləri kökəldir, vəssalam.

Bəlkə də adi "işdən çıxarıldı" xəbərini "qovuldu" kimi yazan beləlıəridir, elə yazanda kefləri kökəlir.

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

# Yasamal müəmması: icra başçısı təyinatı niyə yubanır?

## Ekspertlər hesab edirlər ki, hələ bir müddət də icra başçısı postu boş qala bilər…

**Yasamal Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mehdiyevin işdən çıxarılmasından sonra bu rayona kimin başçı təyin olunacağı ictimaiyyətdə xeyli müzakirələrə səbəb oldu. Bu müzakirələr indi də davam etsə də, hələ də rayona icra başçısı təyin edilməyib.**

Nəzərə alsaq ki, Yasamal rayonunun ərazisi kifayət qədər böyükdür və burada xeyli meqalayihələr həyata keçirilir, o zaman rayona icra başçısı olmaq uğrunda mübarizənin heç də kiçik güclər arasında getdiyini söyləmək olmaz. Yayılan məlumatlardan da görünür ki, rayona icra başçısı olmaq uğrunda mübarizə iqtidarın üst səviyyələrində aparılır.

Hazırda rayon ərazisində yerləşən "Sovetki" kimi tanınan məhəllədə söküntü işlərindən sonra böyük park salınır, yollar çəkilir. Bundan başqa, rayon ərazisində Mənzil İnşaat Dövlət Agentliyi tərəfindən sosial evlər tikilir. Eyni zamanda rayonun Şərifzadə kimi iri küçəsində Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq qəzalı yaşayış yerləri sökülür, yerində isə hündürmərtəbəli binalar ucaldılır. Bütün bunlar qısa müddətdə pul qazanmaq istəyən şəxslərin, sözsüz ki, Yasamala olan marağını daha da artırıb və qızğın mübarizə başlayıb.

İndiyədək ölkə rəhbərliyinin iradəsinin ziddinə olaraq, "Hacı Cavad" məscidini sökdürdüyü üçün işdən qovulan İbrahim Mehdiyevin yerinə namizəd kimi bir sıra şəxslərin adları çəkilib. Namizədlərin adlarına keçməzdən öncə onu da qeyd edək ki, İbrahim Mehdiyev nə az, nə də çox düz 11 il idi ki, Yasamal rayonunun icra başçısı vəzifəsində çalışırdı...

**Bir sıra saytlarda və sosial şəbəkələrdə yayılan məlumata görə, hazırda Daşkəsənin icra başçısı vəzifəsində çalışan Əhəd Abıyev Yasamal rayon İcra Hakimiyyətinə başçı təyin edilə bilər. Lakin Əhəd Abıyevin özü bu faktı inkar edib. Ölkə.az saytına açıqlamasında Ə. Abıyev bildirib ki, yayılan məlumatlar küçə söhbətləridir:** "Bütün bunlar küçə söhbətləridir. Mənim başqa vəzifələrdə gözüm yoxdur. Vəzifəmdən məmnunam. Mənim indi hansısa rayona icra başçısı təyin olunacağım yalan söhbətdir. Mənə qalsa, Yasamalda icra başçısı işləməyi istəmərəm. Ümumiyyətlə, Bakıda işləmək daha çətindir. Hələlik mənim üçün Daşkəsən daha yaxşıdır. Sakit və təmiz havası olan rayondur. Özü də indi Bakıdan insanlar dincəlmək üçün Daşkəsənə gəlirlər. Hər kəs gəlib buranı görüb tərifləyir", deyə, Abıyev bildirib.



Metropoliten idarəsinin sabiq rəisi Tağı Əhmədovun da adı Yasamal uğrunda mübarizə aparanlar siyahısında çəkildi. Hazırda YAP Yasamal rayon təşkilatına rəhbərlik edən Tağı Əhmədovun rayonun icra başçısı olacağı ilə bağlı xeyli sayda iddialar, məlumatlar yayılıb.

Məlumdur ki, Tağı Əhmədovun adı həm də "MTN işi" ilə bağlı məhkəmələrdə hallanır. Bu proseslərdə adının hallanmasının isə T.Əhmədovun Yasamal rayonuna icra başçısı təyin olunması şansını azaltdığı qeyd olunur. Tağı Əhmədovun özü isə bir müddət əvvəl "Yeni Müsavat"a məsələ ilə bağlı açıqlamasında yayılan məlumatları yalanlamayıb. "Allah qoysa, xəbəri eşidəndə bu barədə daha geniş yazarsan" deyən Tağı Əhmədov, konkret olaraq nələrin baş verdiyinə aydınlıq gətirməyib.

Tağı Əhmədovdan başqa Yasamal Rayon İcra Hakimiyyətinin başçısı postuna hazırda Dövlət Statistika Komitəsinin sədri işləyən Tahir Budaqovun da adı əsas namizədlər sırasında çəkilir. Onun icra başçısı təcrübəsinin olması şansını daha da artırdığı vurğulanır. Lakin yuxarıda da qeyd etdiyimiz kimi hələ də təyinat yoxdur.

**Dövlət müşaviri vəzifəsində də çalışmış politoloq Qabil Hüseynli hesab edir ki, Yasamal kimi rayona icra başçısı təyinatı yubadılmamalıdır:** "İcra başçısı vəzifəsinin boş saxlanılması idarəçilik və rayonun strateji əhəmiyyəti baxımından da məqsədəuyğun sayıla bilməz. Güman edirəm ki, ölkə prezidenti yaxın zamanlarda bu vəzifəyə təyinatı reallaşdıracaq. Nəzərə alaq ki, Yasamal rayonu çox böyük ərazini əhatə edir. Eyni zamanda şəhərin də mərkəzinə yaxın məsafədə yerləşir. Orada görülən işləri, icra olunan layihələri də nəzərə alarsaq, rayona icra başçısının təyinatı arzuedilən-dir".

**Bəs hüquqi baxımdan icra başçısı vəzifəsinə təyinat necə tənzimlənir?**

**"Yeni Müsavat"a danışan hüquqşünas Ələsgər Məmmədli bildirib ki, icra hakimiyyətlərinə aid səlahiyyətlər Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə ilə tənzimlənir:** "Bu səlahiyyətlər isə birbaşa olaraq prezidentin səlahiyyətlərinə daxildir. O baxımdan, burada konkret olaraq hər hansı bir müddət nəzərdə tutulmayıb. Ancaq kimsə əvəzləyici gətirilir. Bir müddət sonra isə icra başçısı təyin oluna bilər. Qanunda isə bununla bağlı hansısa məcburiyyət və ya şərt də yoxdur. Yerli icra hakimiyyətinin səlahiyyətləri qanunla deyil, əsasnamə ilə tənzimlənir. Yəni prezidentin özünün təsdiq etdiyi fərmanla. Adətən ənənəvi olaraq məsələyə baxılır. Hansısa ciddi səbəb olanda qısa bir müddətlik əvəzləmə olur.Yəni əvəzləyicinin orada uzun müddət qalması ənənəvi deyil. Digər tərəfdən də hüquqda buna qarşı çıxan heç də yoxdur. Ona görə də əvəzləyicinin orada bir müddət qalması qanunla mümkündür".

❑ **Əli RAİS**

# Şəmsəddin Hacıyevin xəstələndiyi xəbəri yayıldı

## Deputatın İqtisad Universitetinə rəhbərlik etdiyi dövrü Baş Prokurorluq hələ araşdırır; sabiq rektoru xəstə salan nədir?

**Azərbaycan Dövlət İqtisad Universitetinin(ADİU) sabiq rektoru, deputat Şəmsəddin Hacıyevin səhhətində problemlərin yaşandığı haqda məlumat yayılıb. Bildirilir ki, hazırda müalicə alan sabiq rektor səhhətinin düzəlməsi üçün reabilitasiya prosesi keçir. Ş.Hacıyevin ev şəraitində müalicə olunduğu da bildirilir. Yayılan xəbərlərə münasibət öyrənmək üçün Ş.Hacıyevə telefon açdıq. Lakin sabiq rektorun telefonu qapadılmışdı. Bununla belə, hörmətli Ş.Hacıyevin münasibətini də dərc etməyə hazır olduğumuzu qeyd edirik.**



Şəmsəddin Hacıyev

Ş.Hacıyevin səhhətində ağırlaşmaların onun ADİU-ya rəhbərlik etdiyi dövrdə baş verən yeyintilərlə bağlı cinayət işi başlanmasından sonraya təsadüf etməsi birmənalı qarşılanmayıb. Sabiq rektorun səhhətində problemlərin məhz ADİU-da baş verən böyük maliyyə maxinasiyalarının üzə çıxarılmasından sonra baş qaldırması da söz-söhbətlərin yaranmasına gətirib çıxarır. Belə söhbətlər gəzir ki, Ş.Hacıyev başlanmış cinayət işinin onun üçün heç bir yaxşı nəticə vəd etmədiyini anlayır. Yada salaq ki, ADİU-ya dövlət büdcəsindən ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasının auditinin nəticəsində böyük maxinasiyalar üzə çıxarılıb. ADİU-dakı yoxlamaların nəticəsi olaraq Hesablama Palatasından Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olan hesabat araşdırılıb. İlkin araşdırma zamanı yoxlama dövrünü əhatə edən 18 may 2012-ci ildən 1 aprel 2014-cü il tarixədək olan müddət ərzində universitetin vəzifəli və digər maddi-məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək təhsil haqlarının uçotu, yığılması və bank hesabına köçürülməsi, təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotda əks etdirilməsi ilə bağlı ağır nəticələrə səbəb olan ciddi qanun pozuntularına yol verilməsi, eləcə də külli miqdarda vəsaitin uçotdan yayındırılmasına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 179.3.2-ci (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə külli miqdarda etibar edilmiş özgə əmlakını talama) maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**ADİU-nun ölkənin ən korrupsiyalaşmış təhsil ocağı olması barədə məlumatlar yeni deyil. Ölkənin aparıcı ali məktəblərindən olan ADİU-da 2014-cü ilin martında rektor dəyişikliyi olub. Ş.Hacıyevin rektorluğu dövründə bu gün gündəmi zəbt edən məlumatlar mətbuatda dəfələrlə tirajlanmışdı. Rektor olduğu illərdə Ş.Hacıyev ailə üzvlərinin - həyat yoldaşının, qardaşı oğlunun, baldızı qızının birgə idarəçiliyində olduğu "Turan-2009" MMC, "İqtisadçı" MTK və digər şirkətlər vasitəsilə ADİU-da milyonlarla manatlıq "əməliyyat" aparıblar. Universitetdə aparılan "maliyyə əməliyyat"ların 90 faizi qanunvericiliyin əksinə olaraq, tendersiz baş verib. Yəni Ş.Hacıyev Satınalmalar üzrə Dövlət Agentliyinin razılığı olmadan böyük pulların mənimsənildiyi əməliyyatları özbaşına həyata keçirib. Vaxtilə yazdıqlarımızdan sitat:** "Məsələn, 2011-ci ildə 166 min 822 manatlıq, 2012-də 136 min 748 manatlıq tender keçirildiyi halda, 2013-cü ildə 11 milyon 29 min 907 manatı guya müxtəlif işlərə xərcləyiblər. Bu vəsaitdən 1 milyon 145 min 269 manatı təmir, 2 milyon 123 min manatı inventar, maşın, avadanlıq, təsərrüfat malları, dəftərxana məsrəfləri, 7 milyon 745 min 887 manatı isə sağlamlıq kompleksinin tikintisi adı ilə təyinatından yayındıraraq, mənimsəyiblər. O, hətta o qədər irəli gedib ki, həyat yoldaşının təsisçi, qardaşı oğlunun direktor, baldızı qızının isə baş mühasib olduğu "Turan" MMC vasitəsilə 3 il ərzində oxşar əməliyyatlarla 11 milyonu universitetin hesabından çıxarmağa da nail olub. Şəmsəddin Hacıyev universitetin Dərbənd filial vasitəsilə də böyük oyunlar oynayıb. Onun bu filial vasitəsilə hər tələbədən 35-50 min manat alaraq həyata keçirdiyi saxta qəbullar bir yana qalsın, bu adam Dərbənddə universitetin adı ilə torpaq dəllallığı da edib. Bu fakt 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsi tərəfindən də təsdiqlənib. Məhkəmənin qətnaməsində bildirilib ki, 2006-cı ildə Şəmsəddin Hacıyev Dağıstan Atıcılıq Diviziyası küçə 35-də yarım hektar torpaq sahəsi əldə edib. Rəhbərlik etdiyi ali məktəbin sahəsinin genişləndirilməsi məqsədilə ali məktəbin vəsaiti hesabına aldığı bu sahəni öz adına rəsmiləşdirib. Bundan sonra o, həmin ərazini İqtisad Universitetinin Dərbənd filialının inşası üçün torpağın bir hissəsi böyük məbləğə universitetə satılıb. İşdə Şəmsəddin Hacıyevin kürəkəni Seymur Orucovun da adı keçirdi. O dövrdə iş o yerə çatıb ki, Dağıstan rəsmiləri universitetin Dərbənd filialının hansı məqsədlə yaradılması ilə bağlı Azərbaycan Təhsil Nazirliyini çətin suallar qarşısında qoymuşdu".

**Mövzuya qayıdacağıq.**

❑ **E.HÜSEYNOV**

**İraqın şimalında "Kürdüstan dövləti" qurmaq cəhdi ilə bağlı keçirilən referendum dünyanın gündəmindəki baş mövzulardan biridir. Belə bir durumda Türkiyənin 33-cü (1996-1997-ci illər) baş naziri Nəcməddin Ərbakanın 26 il əvvəlki çıxışı son günlər yenidən sosial şəbəkələrdə tirajlanmaqdadır.**




# Səddam devrilməzdən öncə anons edilən "Kürdüstan dövləti" - düyməyə niyə məhz indi basıldı?

## Orta Şərqə "demokratiya" vəd edib hakimiyyətləri devirən, qanlı toqquşmaların əsasını qoyan güclərin bölgənin xəritəsini dəyişmək planı; **politoloq:** "Türkiyədə baş verən çevriliş cəhdi də sübut elədi ki, bu proseslərin arxasında dayanan qüvvələrin məqsədi demokratiya, insan hüquq və azadlıqları deyil"

**Söhbət ondan gedir ki, Türkiyənin sabiq baş naziri hələ 25 il əvvəlki çıxışında "kürd dövləti" ideyasının masada olmasından və böyük güclərin dəstəyi ilə reallaşdırılması istiqamətində aparılan proseslərdən bəhs edir. N.Ərbakanın həmin çıxışından bəzi özətləri diqqətinizə çatdırırıq:** "İsrailin xarici işlər naziri David Levi nə deyir? "ABŞ-ın kürdlərə ərzaq yardımı etməsi, sadəcə, kürdlərin ac qarına deyil, tox qarına ölmələrinə yarar. ABŞ-ın kürdlərə yemək yardımı deyil, əslində silah yardımı göstərməsi lazımdır". Bunu kim deyir? Bugünkü İsrail xarici işlər naziri David Levi. Nə zaman deyir? 1991-ci ildə. İndi terrorun arxasında kim var? Açıq şəkildə ortadadır".

**Ərbakan daha sonra davam edir:** "Körfəz savaşı 13 ay əvvəl başladı. Amerikalı yarbay *(polkovnik-leytenant)* bizim bir qəzetçimizə xəritədə Kərkük və Mosul göstərib bunları deyir: "Kürd dövləti burada qurulacaq. Savaş bitəcək, Səddam çökmüş olacaq, burada dövlət qalmayacaq. Kürdlər bir dövlət quraraq buradakı boşluğu dolduracaq. Bəlkə də Türkiyədən torpaq istərlər. Hələ Körfəz müharibəsi bitməmiş, hərbdən öncə deyib".

**N.Ərbakan jurnalistin "kürdlər İran, Türkiyə, Suriya kimi böyük güclərə qarşı necə çıxa bilər" sualına cavabında amerikalı yarbayın özünə çox arxayın şəkildə belə cavab verdiyini xatırladıb:** "İraqın şimalındakı kürdlərin də yaxında çoxlu silahları olacaq. Səddamın buraxdığı silahlar onlara qalır. Bəlkə də sizdən çox təyyarələri, tankları, helikopterləri, hava limanları və s". "Hələ Körfəz savaşı başlamamış bunlar söylənilib. Bütün bunlar onu göstərir ki, ABŞ, İsrail bütün bu olayların hamısını planlı şəkildə edir. Onların uzunmüddətli planları var" - N.Ərbakan deyib.

Sabiq baş nazirin dedikləri heyrətamizdir. Bölgədə son onilliklərdə baş verən proseslər və sonucda "Kürdüstan dövləti"nin yaradılması ilə bağlı Şimali İraqda referendumun keçirilməsinə sükutlu reaksiya projenin masa üzərində olduğuna şübhə yeri qoymur. Əslində ötən illərdə Qərbin hətta NATO-da müttəfiqi olan Türkiyəyə qarşı saygısız davranışları, Ankaraya qarşı haqsızlıqlar, 3 milyonluq qaçqına sahib çıxan ölkəyə qarşı sərgilənən münasibətin arxasında məkrli planın olmasından xəbər verirdi. Nəhayət, kürd referendumuna Qərbin ikibaşlı reaksiyaları şübhələri doğrultdu. Demək, Türkiyəyə qarşı yaradılan PKK-nın davamlı şəkildə silahlandırılması, daha sonra PYD, PEJAK kimi törəmə terror təşkilatlarının önə çıxarılması, onlara hər cür dəstək verilməsi, qardaş ölkənin mərkəzlərində terror aktlarının həyata keçirilməsi, daha sonra İŞİD adlı vahiməli qüvvənin ortaya çıxarılması və s. olaylarda bir məqsəd var imiş: kürd dövlətinin qurulmasına nail olmaq.

Müşahidəçilər şübhə etmir ki, N.Ərbakanın dediyi kimi, İraq diktatoru Səddam Hüseynin "kimyəvi silah" iddiası ilə devrilməsi, İraqa qoşun yeridilməsi, daha sonra viranə qoyulmuş İraqda məzhəb davası toxumunun səpilməsi də sonda bu ölkənin parçalanması projesinin tərkib hissəsi olub. Getdikcə o da aydın olur ki, "Ərəb baharı" adı ilə Orta Şərq ölkələrindəki hakimiyyətlərin devrilməsi, burada vətəndaş müharibəsinin qızışdırılmasında da məqsəd regionun xəritəsini dəyişdirməkdən ibarət olub. "Kürdüstan dövləti" təkcə İraqın bütünlüyünün alt-üst edilməsi deyil. Bunun ardınca Türkiyə, İran və Suriyanı parçalanması planının da reallaşdırılması üçün yeni layihələr işə salınacaq.

Bir daha təsdiqləndi ki, 2016-cı ilin 15 iyulunda Ərdoğan hakimiyyətini silahlı yolla devirmək istəyən FETO və digər qüvvələrin məqsədi əslində Türkiyəni parçalamaq, "Kürdüstan" iddiasında olanların, bu xain projeyə dəstək verənlərin arzularını çin etmək olub. Ekspertlərə görə, indiki məqamda R.T.Ərdoğanın hakimiyyətinin davamı həm də Türkiyənin bütövlüyü deməkdir.

Bəzi müşahidəçilərin iddiasına görə, hətta İranda hakimiyyət dəyişikliyi bu ölkədə arzuolunmaz proseslərə gətirib çıxara bilər. Söhbət İrandakı kürdlərə dəstək verilməsi, nəticədə vətəndaş müharibəsinin qızışdırılması təhlükəsindən gedir. Xatırladaq ki, hələ illər öncə İran kürdlərinin İraqla sərhəddən silahlar daşıdığı iddiası var idi. Milyonlarla soydaşımızın yaşadığı qonşu ölkədə silahlı toqquşmalar arzuolunmazdır. Amma artıq bir reallıq var ki, İŞİD-in sıxışdırıldığı bir dönəmdə böyük dövlətlərin laboratoriyalarında yeni "qan çanağı" hazırlanır ki, burada da kürdlər "maşa" rolunu oynaya bilərlər.

"Bütün digər məsələlərdə olduğu kimi, bu məsələdə də reallıqlara və proseslərə beynəlxalq hüquq, ədalət prinsipləri çərçivəsindən və təbii ki, məntiqlə yanaşılmasının tərəfdarıyam. Çünki məntiqsiz nə hüquq var, nə də ədalət... İndiki şəraitdə "Kürdüstan dövləti"nin yarandığı barədə fikir söyləməyi doğru hesab etmirəm".

**Bu fikirləri isə politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında söylədi. Qeyd etdi ki, İraqdakı kürd muxtariyyəti ölkə konstitusiyasının tələblərini pozaraq, separatçı davranışlar sərgiləyib:** "Dövlətlərin ərazi bütövlüyünün pozulmasına cəhd və separatizmin formasından asılı olmayaraq bütün təzahürləri təqdir oluna bilməz və olunmamalıdır da. Şübhəsiz ki, İraqda və bir sıra digər ərəb ölkələrində baş verən iğtişaşlar, mərkəzdənqaçma meylləri, terrorizm və digər bu kimi neqativ amillər bölgəyə kənar müdaxilədən qaynaqlanır. İstər İraq kampaniyaları, istərsə də "ərəb baharı" adı altında həyata keçirilən müdaxilə Qərbin öz geosiyasi maraqlarını təmin etmək, bölgənin nəhəng enerji resurslarını nəzarətə götürmək niyyətindən qaynaqlanır. İstər Səddam Hüseynin devrilməsi ilə nəticələnən və davam etməkdə olan İraq kampaniyalarında, istərsə də qanlı ərəb baharında məqsəd bölgəyə demokratiya gətirməkdən ibarət olmayıb. Həmin ölkələrdəki problemlər müdaxilə öncəsi kampaniya və real müdaxilə üçün bəhanə rolunu oynayıb. Bu bəhanələrin meydana gəlməsində də Qərbin öz maraqları olub. ABŞ və müttəfiqləri ərəb ölkələrinin devrilən liderləri ilə uzun müddət əməkdaşlıq ediblər, o cümlədən Mübarək və Qəddafi ilə... Bölgəyə müdaxilə ssenarisinin işə düşmədiyi və prosesə hazırlığın başlamadığı zaman kəsiyinə diqqət edin və bu dövr ərzində həmin ölkələrdə insan hüquq və azadlıqlarının pozulması ilə bağlı ciddi bir hesabata rast gəlməzsiniz. Yəni nə ABŞ-ın nə də müttəfiqlərinin hədəflərində heç zaman başqa bir xalqın daha yaxşı, demokratik şəraitdə yaşaması məsələsi olmayıb. Nə üçün bir amerikalı, yaxud ingilis, fransız Məhəmmədin, Əlinin daha yaxşı yaşaması üçün onun yerinə fədakarlıq etməlidir ki? Əgər Qərb dövlətlərinin hədəfi ərəb ölkələrində demokratiya yaratmaq idisə, o zaman elə yaxından əməkdaşlıq etdikləri monarxiya-dövlətlərdən başlayardılar da".

**Politoloq xatırlatdı ki, İraq, Misir, Suriya, Liviyada pis-yaxşı respublika tipli quruluşlar var idi, parlament, məhkəmə hakimiyyəti mövcud idi, hökmlər ehkamlara söykənən fətvalara deyil, qanunlar əsasında çıxarılırdı:** "Burada həmin ölkələrdəki rejimlərin nə dərəcədə ədalətli olub-olmadığı şübhəsiz ki, mübahisə mövzusu ola bilər. Amma nə baş verdi, İraqda, Liviyada, Suriyada daha ədalətli idarəetmə sistemimi formalaşdı? Yüz minlərlə günahsız insan qətlə yetirildi, ölkələr darmadağın edildi, milyonlarla insan öz evlərindən didərgin düşdü. Məsələ burasındadır ki, hər bir xalqın potensialı onun yaratdığı dövlət idarəçiliyi sistemində özünü büruzə verir. Təhsili, mədəniyyəti yüksək olan xalq heç vaxt pis idarəçiliyə imkan verməz. Əgər Qərb dövlətləri doğrudan da ərəb ölkələrində daha yaxşı idarəçilik sisteminin formalaşmasını istəyirdilərsə, ilk növbədə həmin ölkələrin əhalisinin təhsil səviyyəsinin yüksəldilməsinə dəstək verməliydilər. Minlərlə, on minlərlə ərəb gəncinin təmənnasız olaraq ABŞ-ın, Avropanın universitetlərində təhsil almalarına şərait yaradılmalıydı. Amma bu, baş vermədi. Hakimiyyətlərin zorla dəyişdirilməsi heç bir halda təqdir oluna bilməz. İnqilablar, üsyanlar xalqları onillərlə geri atır, cəmiyyəti parçalayır, insanların arasına ixtilaf toxumu səpir. Bu baxımdan, hakimiyyətin zorla dəyişdirilməzinə cəhd, dövlətlərin ərazi bütövlüyünü təhlükə altına alan separatizm, terrorizm heç bir halda təqdir olunmamalıdır".

**E.Mirzəbəylinin fikrincə, Türkiyədə baş verən çevriliş cəhdi də sübuta yetirdi ki, bu proseslərin arxasında dayanan qüvvələrin məqsədi demokratiya, insan hüquq və azadlıqları deyil:** "Əks təqdirdə, Türkiyə kimi demokratik dövlət idarəçiliyi sahəsində regionun ən təcrübəli dövlətində kənardan müdaxilə nəticəsində çevrilişə cəhd olmamalı idi. İrana gəldikdə isə, məsələ bir az fərqlidir. Burada dünyanın gəlmiş-getmiş heç bir siyasi sisteminə uyğun gəlməyən bir dövlət idarəçiliyi var. Bununla yanaşı, qeyd edim ki, heç bir dövlətin, o cümlədən İranın da ərazi bütövlüyünün pozulması beynəlxalq hüquq çərçivəsində dəyərləndirmələr üçün müzakirə mövzusu ola bilməz. Ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kompleks anlayışdır və bu anlayışın fərqli ölkələrə fərqli şəkildə tətbiqi ikili standartlara və yeni prezidentlərə yol aça bilər. Mən İranda yaşayan xalqların, o cümlədən Azərbaycan türklərinin, farsların, ərəblərin və digərlərinin təhsil, eləcə də intellektual və mədəni səviyyə baxımından hazırda kataklizmlərin baş verdiyi ərəb ölkələrinin əhalisindən xeyli yüksəkdə dayandığına əminəm. Həmçinin hesab edirəm ki, dəyişikliklər tədrici islahatlar yolu ilə, xalqın potensialı və iradəsi nəzərə alınmaqla, vətəndaş qarşıdurmasına, zorakılığa qol verilmədən baş verməlidir".

**"Referendumdan sonra İraqda qurulacaq "Kürdüstan dövləti" Türkiyənin, İranın, İraqın və Suriyanın dövlət maraqlarına və ərazi bütövlüyünə təhlükə yaradır". Bu fikirləri ölkə.az-a eksklüziv açıqlamasında Türkiyə Aviasiya Universitetinin rektoru, Hərbi Hava Qüvvələrinin ehtiyatda olan general-mayoru, sabiq millət vəkili Kürşat Atılgan bildirib. K.Atılgan deyib ki, bölgədə qondarma "Kürdistan dövləti" yaratmaqla Türkiyənin, İranın, İraqın və Suriyanın ərazi bütövlüyünə qarşı məkrli planlar hazırlanır:** "Ona görə də Türkiyə ilə bərabər İran, İraq və Suriya hökumətləri "Kürdüstan dövləti" planına qarşı birgə hərəkət etməlidir. Çünki "Kürdüstan" layihəsi bu coğrafiyanı müharibə meydanına çevirmək istəyənlərin planıdır. Qərb burada kürd məsələsindən sui-istifadə etməyə çalışır. Əslində isə "Kürdüstan dövləti referendumu" nə kürdlərin, nə də digər xalqların firavanlığı üçün atılan addım deyil. Birinci Dünya müharibəsindən sonra bu coğrafiyaya istənilən nəzarəti etmək planının iflasa uğradığını görən xarici qüvvələr yeni bir plan hazırlayıblar. Həmin plana uyğun olaraq da İraqda "Kürdüstan dövləti"nin yaradılması ilə bağlı "referendum" keçirilib. Ancaq bu, vəziyyəti daha da alovlandıracaq".

Bu fikirlər bir daha qorxulu təxminləri təsdiqləyir. Ümumilikdə düyməyə basılıb və bölgəmizə doğru da uzanan çox dəhşətli planlar işə salınıb. "Demokratiya" vədi ilə bölgəyə gələnlər artıq özləri gəlmir, onların qurbanlıq saydıqları toplumlara hədiyyə etdikləri silahlar qanlı hadisələrin miqyasını artırdıqca, bölgənin sərvətlərinin daşınması daha rahat həyata keçirilir. Neftlə zəngin bu bölgədə sabitliyin tezliklə yaranacağına isə ümidlər çox azdır. Ən azı neft ehtiyatları tükənənə qədər qarşıdurmalar qaçılmaz olacaq...

❑ **E.PAŞASOY**



# Almanlar Alışanova qarşı

Zamin HACI
zaminhaci@gmail.com

**Ölkəmizdə söz azadlığını boğmaq istəyən qüvvələrin AzTV şefi Arif Alışanovu öldürmək fikrinə düşməsindən bəhs eləmişdik. İndi isə bu təzyiqlərin davamı haqda informasiyalar gəlməkdədir: dünən yol polisi Arif müəllimin avtomobilini tutub cərimə meydançasına aparıbdır. Bəhanə də budur ki, guya onun 7200 manat (yeddi min iki yüz - sözlə də yazıram, çünki ağlasığmaz rəqəmdir) ödənilməmiş cəriməsi varmış.**

Cərimə 50 manat olar, 100 manat olar, lap 500-1000 olar, ta 7000 nədir? Bu qədər cəriməni ödəmədən yollarda hərəkət etmək məntiqlə mümkün olmamalıydı. Hətta bu pula təzə maşın almaq mümkündür. Deməli, Arif müəllimə şər atırlar. Ondan əhalinin sosial rifah halındakı problemlər, qanunları pozanlar haqda verilişlərinə görə qisas alırlar. Kim bilir, bəlkə də həmin gün Arif müəllim elə yol hərəkəti qaydalarını pozan məmurlar, onların uşaqları haqda növbəti çəkilişdən qayıdırmış. Qəsdən bu yerdən vurublar. Düşünülmüş şəkildə tələni belənçik qurublar. Ah vay. Uh. Of. Axı bu millət haçan düzələcəkdir?

Burada beynəlxalq transmilli terror qruplaşmasının da müəyyən əli olması mümkündür. Hətta yazardım *(bu, "deyərdim" ifadəsinin yazılı formasıdır)* dəqiq belədir. Çünki ölkəmizdə söz azadlığına hər hansı basqılar yoxdur. Nə istəyirsən fikirləş, danış, yaz. Buna görə heç kimin avtomobilinə 7 min manat cərimə qoyulmur. Uzağı uşağa aldığın yoqurtu evə çatdıra bilmirsən. Bəs AzTV şefinə təzyiqlərin ünvanı haradır? Məncə bunu nişan verməyimizin artıq əsl vaxtıdır. Arif müəllimi... Almaniyadan vururlar!

Axı AzTV dəfələrlə Almaniyanın dağılması, Frankfurtda dilənçiliyin meydan sulaması, Hamburqda narkomanların, Berlində dələduzların, Kölndə oğruların at oynatması haqda reportajlar vermişdir. Nəticədə Almaniya hakimiyyəti AzTV-yə özünün düşməni gözüylə baxır. Elə Arif müəllimin alman istehsalı "Mercedes" yox, yapon istehsalı "Toyota" sürməsinin səbəbləri bu tarixi düşmənçilik ilə bağlıymış. Bəlkə də Arif müəllim sovet dövründə əsgərliyini Şərqi Almaniyada keçirmiş, orada Merkelin atası ilə pivə barında ideoloji müstəvidə, erməni məsələsinə görə dalaşmışdır. *(Ümidvarıq Həmid ağa bu istiqamətdə yeni-yeni araşdırmaları ilə bizləri sevindirəcəkdir. Biz isə hələlik başımız çıxmayan temaya çox da girişməyək. Konspirologiya - pirlər haqqında elm - ciddi sənətdir)*.

Təzəlikcə Almaniyada parlament seçkiləri oldu, Angela Merkelin partiyası növbəti dəfə ölkəni idarə etmək hüququ qazandı. Bunun özü də Almaniyanın deqradasiyaya uğramasını göstərir - neçə illərdir Almaniya dağılır, ancaq həmişə eyni zənən xeylağının partiyası seçkiləri udur. Azərbaycanda bunun tərsi baş verir, yeri gəlmişkən. YAP ölkəmizi inkişaf etdirir, o üzdən həmişə seçkilərdə qalibdir. Mövzudan uzaqlaşmayaq, indi görünür, seçkidə qalib gəlmiş, bir növ haram qələbədən arxayınlaşmış xanım Merkel mürtəce tərəfdarlarını Arif Alışanova qarşı səfərbər etməyə fürsət bulmuşdur.

Hesab edirəm, ATV telekanalizasiyası ətrafındakı son qalmaqallar da ölkəmizi istəməyən mənfur beynəlxalq, transmilli, konfederativ, imperialist, antiqlobalist, pədərsüxtə qüvvələrin işidir. Orada da söz azadlığına təzyiq etdilər, kanalın rəhbərliyi-zadı işdən qovuldu. Bəs indi gəlin görək həmin "Sərhədsiz Reportyorlar"ın, "Fridom Haus"un, "Bespredel Müxbirlər İttifaqı"nın və sairənin səsi çıxırmı? Niyə onlar ATV-ni, Turan müəllimi, Azər müəllimi *(orda yeməkxanalarda milçək axtaran cəsur veriliş aparıcısı imiş - onun qorxusundan milçəklər uçmur, tarakanlar qanad salırmış)* müdafiə etmirlər?

Məlum məsələdir niyə. Çünki bu əməliyyatların hamısı elə o xarici mərkəzlərdə, ölkəmizi istəməyən dairələrdə hazırlanıbdır. Uzun sözün qısası, bizi istəməyənlər ölsün!

İndi söz əlaqədar təşkilatlarındır.



# Abbas Abbasovun əsas "krişası" vəzifədən getdi

## Dağıstan prezidentinin qəfil istefasına səbəb nə? Şübhə yoxdur ki, Abdulatipovdan sonra Abbas Abbasovun da qonşu respublikadakı biznesi sıxışdırılacaq...

**Dağıstan prezidenti Ramazan Abdulatipov gözlənilmədən vəzifəsindən istefa verib. Rusiya siyasətində tanınmış simalardan olan R.Abdulatipovun istefaya gedəcəyi ilə bağlı xəbərlər dərhal KİV-lərin baş xəbəri olub. "Bu, hər kəs üçün gözlənilməz oldu, heç kim bunu bilmirdi. Abdulatipov axıra qədər burada işləməyi planlaşdırırdı. O, istefası haqqında ərizəni bu gün yazıb" deyə xəbərlərdə bildirilirdi.**

Günün ikinci yarısında "Danişir Moskva " radiosu Abdulatipovun özünün mövqeyini öyrənib. "Mən istefa haqqında ərizə verəcəyəm. Ehtimal ki, bu gün. Sonra nə? Əgər sağ və sağlam olacağamsa, harasa qayıdacağam. Məndə bu planda çox böyük maraqlar palitrası var" deyə, R.Abdulatipov bildirib.

**İstefanın əsas səbəbi kimi o, yaşını göstərib:** "İstefanın səbəbi yaşdır, artıq 71-ə çatmışam. Mən düşünürəm ki, səbəb budur, çünki bütün qalan məsələlər üzrə respublika inkişafdadır, o, vaxtilə yaşadığı ağır böhrandan çıxarılıb".

**O deyib ki, yerinə bir neçə namizəd də göstərib.** "Mən kiminsə adını çəkdim, onlar isə kimisə axtarır. Qərarı prezident qəbul edir. Mənim yeganə arzum budur ki, Dağıstanı etibarlı əllərə versinlər" deyə, Abdulatipov bildirib.

Rusiya KİV-ləri Kremlin Abtulatipova yenə iş təklif edəcəklərini xəbər verib, artıq sabiq hesab oluna biləcək prezident isə elmi fəaliyyətlə məşğul olmaq istədiyini deyib.

Abdulatipovun son bir həftədə istefaya gedən 4-cü region rəhbəri olduğunu nəzərə alsaq, onun qəfil vəzifədən çəkilməsi suallar doğurur. Onun səhhəti ilə bağlı problemlər olduğu yeni xəbər deyil. Son illər Abdulatipov müalicə üçün Naftalana gəlirdi. Onun ciddi xəstəliyi olduğuna dair indiyədək hər hansı məlumat yayılmayıb.

4 il əvvəl-2013-cü ilin sentyabr ayının 9-da Dağıstan Xalq Məclisində keçirilən səsvermə zamanı R.Abdulatipov 88 millət vəkilindən 86-nın səsini qazanaraq prezidenti seçilmişdi. Abdulatipovun o dövrdə Dağıstan rəhbəri postuna namizədliyi də indiki istefası qədər gözlənilməz olmuşdu. O zaman artıq fəal siyasətdən çəkinmiş kimi görünən Abdulatipov Azərbaycanın baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun yaradığı "Milyarderlər İttifaqı"nda təmsil olunurdu. Dağıstanda həm siyasi vəziyyət və iqtisadi çətinliklərin fonunda Abdulatipov doğrudan da yaxşı namizəd kimi görünürdü. İddia olunurdu ki, Abdulatipov özü 4 il Rusiya rəhbərliyinə çıxış axtarsa da, buna Abbas Abbasov və onun adamları sayəsində nail olub. Kreml də onun namizədliyini uyğun bilərək dəstəkləyib.

**A.Abbasov Abdulatipov prezident təyin ediləndən sonra Dağıstanda geniş biznes şəbəkəsi qurdu. Abbas Abbasovun oğlu da hazırda Dərbənddə çoxmərtəbəli VİP yaşayış kompleksi inşa etdirir. Rusiya mətbuatında bu mübhəm dostluqla bağlı müxtəlif rəylər vardı. Dağıstan rəhbəri Abbas Abbasovla dostluq münasibətlərinə görə hətta açıq tənqid olunurdu. Məsələn, "Dostunuzu göstərin, kim olduğunuzu deyim" başlıqlı müəllif yazısından sitat:** "Dağıstan rəhbərinin dostları sırasında Abbas Abbasov kimi intriqaçı, təxribatçı və burnunu hər yerə soxan bir şəxs varsa, onda onu hansı aqibət gözləyəcəyi bəri başdan bəlli olur. Abbas Abbasov ölkəsi Azərbaycanda da sevilmir. Bu şəxsdən uzaq durmaq lazımdır. Əgər Abdulatipov yaxın vaxtlarda Abbasovla dostluğuna son qoymasa, onun "papağı" yerə düşəcək". Yazı bir neçə il əvvəl yazılsa da, bu gün xüsusi diqqət çəkir.

Dağıstan prezidentinin A.Abbasovla Azərbaycan hakimiyyətini barışdırması üçün bir neçə dəfə cəhd etdiyi deyilirdi. Amma bu təklifi Azərbaycan hakimiyyəti qəbul etməyib. Yalnız bir dəfə R. Abdulatipov Abbas Abbasovun Beynəlxalq Bank işinə görə həbs edilən qardaşı Nadir Abbasovun azadlığa buraxılması üçün xahişi nəzərə alınıb.

A.Abbasovun ən yaxın adamlarından biri, son illər isə açıq şəkildə "krişası" olan Abdulatipovun vəzifədən getməsi sabiq vitse-primyer üçün ciddi zərbədir. Bakıya buraxılmayan A.Abbasov Xəzərin o biri tayında biznesini inkişaf etdirir və Azərbaycan həsrətini ovudurdu. Şübhə yoxdur ki, Abdulatipovdan sonra Abbas Abbasov da Dağıstanda sıxışdırılacaq...

❑ "YM"

# Mübariz Mənsimov Vahid Ələkbərovu ona 4 milyard ziyan vurmaqda suçladı

**"Palmali Holding" ikinci dəfə "LUKoil" şirkətinin törəmə müəssisəsi olan "Litasco"nu məhkəməyə verməyə hazırlaşır. "APA-Economics" xəbər verir ki, bunu "Anadolu" agentliyinə açıqlamasında "Palmali Holding"in rəhbəri Mübariz Mənsimov bildirib.**



Onun sözlərinə görə, "Palmali Holding" "Litasco"dan 2 mlrd. dollar məbləğində təzminat tələb edir: "Biz iyulun 17-də London Ali Arbitraj Məhkəməsinə müraciət edərək "Litasco"dan 2 mlrd. dollar təzminat tələb etmişik. Öz növbəsində "LUKoil" bundan qorxuya düşüb və "Litasco"nu sataraq ondan canını qurtarmaq istəyir. Bu, saxtakarlıqdır".

M. Mənsimov əlavə edib ki, 2005-ci ilin yanvarın 18-də "Palmali Holding" və "Litasco" arasında 10+5 illik müqavilə imzalanıb. Sənədin şərtlərinə əsasən, "Palmali Holding" "Litasco"dan 440 mln. dollarlıq gəmi almalı idi. "Lakin "Litasco" müqavilənin şərtlərini pozduğuna görə, "Palmali Holding" 4 mlrd. dollarlıq zərərlə üzləşib. 2015-ci ildə hər iki şirkət yenidən danışıqlar masasına əyləşdi. Lakin qarşı tərəfin irəli sürdüyü şərtlərin, müddəaların heç bir hüquqi əsası yox idi. Buna baxmayaraq, "LUKoil" qanunsuz əsasları birjaya qanuni kimi təqdim edib. Məqsəd isə "Litasco"nu yaxşı qiymətə satmaq, paralel olaraq şirkətin səhmlərinin ucuzlaşmamasına nail olmaq idi. Ancaq "Palmali Holding" bəyan edir ki, yeni müqavilənin bəzi müddəaları qanunsuzdur, bu səbəbdən də biz "Litasco" ilə yeni müqavilə imzalamamışıq. London Ali Arbitraj Məhkəməsi daxil olan şikayət üzrə 8 ay ərzində araşdırma aparır. Bundan sonra, əgər ortada qanunsuzluq varsa, məhkəmə çəkişməsinin başlanmasına icazə verir", - deyə iş adamı vurğulayıb.

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

# Donbasdan Qarabağa uzanan təhlükədə Kreml izi

**Rusiya ilə Ukrayna arasında Donbasdakı separatçılıq hərəkatına görə gərginlik davam edir. Nəinki davam edir, hətta günbəgün artır. Təmas zonasından gələn və getdikcə çoxalan hərbi toqquşma xəbərləri, hər iki tərəfdən artmaqda olan canlı itkilər buna bariz sübutdur.**

**Doğrudur, Rusiya bu qarşıdurmada özünün birbaşa iştirakını danır, konfliktin guya Donbasın rusdilli əhalisi ilə mərkəzi Kiyev hakimiyyəti arasında olduğunu iddia edir. Ancaq hamı bilir ki, Rusiya "Novorossiya" adlandırdığı Şərqi Ukraynada dağıdıcı separatizmin arxasında duran əsas qüvvə, ölkədir və bu qüvvə olmasa, qondarma Donetsk və Luqansk respublikaları, Krım separatçıları bir həftə belə davam gətirə bilməzlər.**




# Ukraynada müəmmalı partlayışlar - Bakı və Tiflisə siqnal?

## Rusiya separatçı hərəkatlara dəstək siyasətini cilalayır - Azərbaycana da ismarış; Ermənistanla labüd müharibə vəziyyətində olan ölkəmiz içindəki casus şəbəkəsinə qarşı indi xüsusilə diqqətli olmalıdır, çünki...

Eləcə də Moldovanın Dnestryanı bölgəsindəki, Gürcüstanın Abxaziya və Cənubi Osetiyadakı, Azərbaycanın isə Dağlıq Qarabağındakı separatçılar.

*****

Ukraynadakı separatçılıq hərəkatı isə Rusiya üçün məxsusi önəm daşıyır. Çünki Donbas münaqişəsi, faktiki, həm də Rusiya-ABŞ münaqişəsidir. O da bəllidir ki, ABŞ Rusiya təcavüzünə qarşı uğurlu dirəniş üçün Ukrayna ordusunu modernləşdirməklə məşğuldur. Vaşinqton Kiyevə yeni ölümcül silahlar verməyə də boyun olub və bu proses başlayıb *(oxşar proses Gürcüstanda gedir)*.

Bütün bunları təbii ki, Rusiya rəhbərliyi də yaxşı görür və bilir ki, belə getsə, günün birində Ukraynanın yeni və modern ordusunun qarşısında heç Rusiya ordusu da davam gətirə bilməyəcək və Kiyev öz ərazi bütövlüyünü tam bərpa edəcək. O üzdən, deyəsən, Moskva Ukraynaya qarşı yeni təxribat planlarını işə salıb. Söhbət Ukraynaya məxsus iri silah-sursat anbarlarını hədəf almaqla Ukrayna ordusunun döyüş qabiliyyətini zəiflətmək cəhdlərindən gedir.

*****

Əfsus ki, bu yöndə Kreml agenturası və kəşfiyyatı artıq hiss ediləcək uğurlar əldə eləməkdədir. Belə ki, srağagün Ukraynada daha bir nəhəng sursat anbarı partladılıb. Xəbər verildiyi kimi, Vinnitsa vilayətinin Kalinovka şəhəri ətrafında yerləşən sursat anbarında baş vermiş yanğın və bunun nəticəsində müxtəlif tipli mərmilərin detonasiyası hələ də davam edir. Müdafiə Nazirliyinin həmin hərbi hissəsində 188 min ton *(10 min şərti vaqon!!)* sursat, o cümlədən "Smerç", "Uraqan" və "Qrad" raketlərinin saxlanıldığı bildirilir.

Partlayış nəticəsində hadisə yerindən 50 kilometr radiusda hava məkanı bağlanıb, yaxınlıqda yaşayan 30 minə qədər insan evakuasiya edilib. 14 dəmiryol qatarının hərəkət marşrutu dəyişdirilib. Xəsarət alanlar var (virtualaz.org). Baş nazir Vladimir Qroysmana görə, yanğının səbəbləri ilə bağlı müxəlif versiyalar araşdırılır, lakin belə görünür ki, söhbət xarici amillərdən gedir.

"Bunu səlahiyyətli orqanlar şərh edəcək. Hazırda ən başlıcası insanların təhlükəsizliyinin qeydinə qalmaq və hadisənin nəticələrini sürətlə aradan qaldırmaqdır", - deyə o qeyd edib. Qroysmanın sözlərinə görə, partlayışla bağlı bütün xidmətlər səfərbər olunub. Odessa vilayətinin keçmiş qubernatoru, Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili isə özünün facebook səhifəsindən bəyan edib ki, Kalinovka ətrafındakı sursat anbarının partladılması prezidenti Vladimir Putinin Pyotr Poroşenkonun ad gününə "ikiüzlü hədiyyəsi"dir.

"Putin bununla amerikalılara demək istəyir ki, Ukraynaya silah verməyə dəyməz, bu silahlar onun təhlükəsizliyini təmin etməyəcək. Məsələ bundadır ki, biz niyə ona Ukrayna üçün belə hədiyyələr hazırlamağa imkan verirk" - Saakaşvili tamamilə məntiqli sual edib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı da sursat anbarında baş vermiş partlayışın diversiya ola biləcəyini bəyan edib. Baş qərargah rəsmisi Boqdan Senik bildirib ki, bu versiya araşdırılır. Onun sözlərinə görə, sursat anbarı qapalı obyektdir və kənar şəxsin ora "elə-belə daxil olması" mümkün deyil.

Bu, Ukrayna ordusunun sursat anbarında son bir ildə törədilmiş üçüncü partlayışdır. May ayında Xarkov vilayətində Ukrayna ordusunun nəhəng sursat anbarı partladılıb və nəticədə silahlı qüvvələr sursat ehtiyatının az qala yarısından məhrum olub. Cəmi iki gün əvvəl Mariupol ətrafında sursat anbarı partlayıb. Və nəhayət, Vinnitsa ətrafında törədilmiş bu partlayış Ukrayna ordusunun döyüş qabiliyyətinə sarsıdıcı zərbə vurmuş olacaq.

*****

Xatırladaq ki, bu ilin avqustunda Azərbaycan ordusunun Xızıda yerləşən nəhəng sursat anbarında da yanğın və partlayışlar olmuşdu. Nəticədə müxtəlif tipli on minlərlə mərmi partlamış, yaxud partlamadan ətrafa səpələnmişdi. Bu hadisənin səbəbləri hələ də qaranlıq qalır. Bu da ən müxtəlif versiyaların yaşamaq haqqının qalması deməkdir.

İstisna deyil ki, bu da Bakıya şimaldan siqnaldır ki, Rusiyanın satelliti Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan da Kremlin strateji maraqlarına, o sırada Putinin Avrasiya layihələrinə laqeyd yanaşsa, ən əsası, Kremlin "dobrosu" olmadan öz ərazilərini qaytarmağa başlasa, "Ukrayna ssenarisi" Azərbaycana qarşı da tətbiq oluna bilər. Hər halda, bu, bir versiyadır və maksimum diqqətli olmalıyıq.

Bu yerdə 2017-ci ilin yazında Azərbaycanın işğal altındakı bölgəsində, həmsərhəd ərazilərimizdə düşmənə işləyən böyük casus şəbəkəsinin ifşa edilməsi faktını yada salmağa da dəyər. Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev isə bugünlərdə açıqlama verdi ki, həmin casus şəbəkəsi ilə bağlı araşdırma hələ də davam edir.

Deməк, "sapı özümüzdən olan baltalar"ın içimizdən milli və hərbi təhlükəsizliyimizə təhdidləri hələ tam aradan qalxmayıb. Bu şəbəkənin əsasən hansı ünvanlara bağlı olduğunu, Azərbaycanda ən çox hansı dövlətin xəfiyyəsinin güclü olduğunu isə yəqin ki, hamı bilir.

Onu da unutmayaq ki, Azərbaycan rusiyayönlü gizli-açıq "5-ci kolon"çuların fəal olduğu postsovet ölkələrdəndir. Bugünlərdə bir qrup xəyanətkarın "26-lar"ın qəbrini nümayişkaranə şəkildə ziyarət eləməsi də özlüyündə az şey demir və Azərbaycanda hələ də sovet (Rusiya) işğalı nostaljisi ilə yaşayanların varlığına dəlalət edir. ÜAK-ın ləğvi də Kremlin Azərbaycana münasibətdə əsla xoş məram daşıyıcısı olmadığının başqa bir təzahürüdür.

*****

**Odur ki, təkcə hakimiyyət və onun güc strukturları, hüquq-mühafizə orqanları deyil, bütövlükdə cəmiyyətin də bundan sonra maksimum diqqətli və həssas olmasına gərək var. Azərbaycan öz müstəqilliyini elə-belə qazanmayıb və ya müstəqillik bizə elə belə hədiyyə edilməyib ki, onu elə-belə əldən verək.**

❑ **Siyasət şöbəsi**

# Məsələ Sərkisyan baş nazir olandan sonraya qaldı?..



**Hüseynbala SƏLİMOV**

**Cənubi Qafqazın siyasi özəlliklərinə bir o qədər də bələd olmayan təhlilçi bəlkə də deyərdi ki, BMT Baş Assambleyasının sessiyasının çərçivəsində də Dağlıq Qarabağ danışıqlarının alınmamasına təəccüb etmək lazım deyil.**

Ona görə ki, münaqişə tərəflərindən birini növbəti ildə "böyük siyasi dəyşikliklər" gözləyir - 2018-ci ilin yazında Ermənistan parlament üsul-idarəsinə keçəcək və bununla da prezident nominal siyasi şəxsə, baş nazirsə ölkənin birinci adamına çevriləcək...

Amma bu, ilk baxışda belə görünür. Daha təcrübəli təhlilçilər bilir ki, Dağlıq Qarabağla bağlı siyasət münaqişə tərəflərinin siyasi konyunkturasına elə də həssas deyil. Müstəqillik dövründən bu tərəfə Ermənistanda üç prezident dəyişib, amma bu, Dağlıq Qarabağla bağlı yürüdülən siyasətə elə də təsir etməyib.

Düzdür, indi Ermənistanın "siyasi olimp"ində müəyyən məchulluq vardır - S.Sərkisyanın artıq iki dəfə prezident olduğunu əsas gətirərək onun baş nazir postuna iddialı olmayacağını desələr də hələ məsələyə nöqtə qoymaq tezdir. Məsələ bundadır ki, müxtəlif səviyyəli seçkilərə daha "real və ya inandırıcı tərtibat" versə də, Ermənistanı faktiki olaraq avtoritar hərbi rejim idarə edir.

O səbəbdən hələ ki S.Sərkisyanın siyasi iddiaları ilə bağlı yekun söz demək çox tezdir. Bütün hallarda, hətta nominal bir siyasi fiqur kimi qalmağa razılıq versə də, ölkənin hakimiyyət partiyasının rəhbəri kimi S.Sərkisyanın müəyyən təsiri qalacaqdır...

Açığı, BMT sessiyası çərçivəsindəki danışıqlarla bağlı bizdə elə bir ümid yox idi. Düzdür, nazir E.Nalbəndyan sessiya ərəfəsində demişdi ki, guya ki, "Dağlıq Qarabağın təhlükəsizliyi üçün problem yaratmayan rayonların" qaytarılmasının müzakirəsinə başlamaq olar. Amma gəl ki, digər erməni liderləri xarici işlər nazirinin sözlərinə dərhal korrektələr etdilər, prezident Sarkisyansa "Dağlıq Qarabağ xalqı"nın müqəddəratını təyin etmək hüququ haqqında özünün növbəti mahnısını oxudu. Beləcə, E.Nalbəndyan bir daha həmin mövzuya qayıtmadı...

Düzdür, sessiya çərçivəsində nazirlərin görüşü baş tutdu. Amma verilən açıqlamalardan və şərhlərdən belə başa düşmək olardı ki, əhəmiyyətli bir şey olmayıb və güman ki, ilin sonuna qədər məsələ elə bu vəziyyətdə və yaxud da donmuş durumda qalmaqda davam edəcəkdir...

Elə BMT Baş Assableyasının sessiyası da növbəti dəfə ümidləri doğrultmadı. Halbuki ABŞ prezidenti D.Tramp az qala, təşkilatın yarım əsrlik tarixində "inqilab" etməyə, BMT ilə bağlı özünün "islahatlar paketi"ni təklif etməyə hazırlaşırdı. Fəqət, Şimali Koreya rəhbərliyinin ünvanına səsləndirdiyi təhqir və hədələri nəzərə almasaq, Trampın çıxışı başqa bir səpkidə yadda qalmadı - etiraf etmək lazım gəlir ki, Amerika prezidenti arzuladığı effekti yarada bilmədi...

Mənə, kənar və sadə siyasi müşahidəçiyə elə gəlir ki, Tramp özünün biznesmen vərdişindən ayrıla bilmir - bəli, o, yalnız pulları saya bilir və heç təsadüfi deyil ki, digər siyasi təşkilatla, elə NATO ilə bağlı da beləcə olmuşdu. Onda da güman edilirdi ki, Tramp transatlantik təhlükəsizlik və əməkdaşlıq sistemi ilə bağlı özünün triumfial konsepsiyasını və yaxud baxışını təqdim edəcək. Amma nə oldu? Onda da Tramp pulları saydı və ölkəsinin NATO-ya sərf etdiyi maliyyə məsrəflərinin müzakirəsindən o yana getmədi...

Halbuki BMT-nin islahı ilə bağlı çox şey demək olardı. Məsələn, Azərbaycan prezidenti diqqəti təşkilatın qərarlarının icra mexanizminin təkmilləşdirməsinə yönəltdi. Bəli, bəlkə də Azərbaycan kimi başqa heç bir ölkə bu problemin ağrısını yaşamayıb - on illərdir ki, dünyanın ən birinci təşkilatının qəbul etdiyi qətnamələrin tələbləri kağız üzərində və icra olunmamış qalır. Amma nə BMT rəhbərliyi, nə də ABŞ prezidenti növbəti dəfə bu problemi "görmədi"... Görünür, hələ uzun müddət BMT ötən əsrin, ikinci Dünya müharibəsinin nəticələrinin möhürünü üzərində yaşatmalı olacaq...

Yekun olaraq nə demək olar? Bəli, daha bir sessiya oldu, onun çərçivəsində Azərbaycan və Ermənistan nazirlərinin formal görüşü baş tutdu.

Azərbaycan ən yüksək səviyyədə bir daha diqqəti Qarabağ problemi ilə yaşanan çətinliklərə yönəltdi.

Düzdür, həmsədrlər hələ də prezidentləri görüşdürməyə ümidlidirlər, amma düşünmürük ki, bundan nəsə alınsın...

Bəli, bizə qulaq asırlar, amma hərəkət etmək, Ermənistandan qətnamələrin icrasını tələb etmək və onu sülhə məcbur etmək üçün heç nə etmirlər! Sonra da deyirlər ki, bəs mövcud status-kvo dəyişməlidir! Amma necə? Kim dəyişməlidir? Təəssüf, nə özləri edir bunu, nə də ki, Azərbaycana imkan verirlər...

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

**Üçüncü yazı**

**Hər şey ondan başladı ki, günlərin bir günü "Yeni Müsavat" qəzetinin redaksiyasına zəng edib, "Əməkdaşlarınızdan birini İstanbula, Adnan Oktarla (Harun Yəhya) müsahibə-görüşə dəvət edirik" dedilər. Tanıyanlar tanıyır, tanımayanlara isə biz anladaq ki, A.Oktar Türkiyədəki A9 kanalının sahibi, dini kitabların müəllifi və kanalında gündəlik, canlı yayımladığı verilişlərin aparıcısıdır.**



# "Məni 9 dəfə öldürməyə çalışdılar" - Adnan Oktar

## Harun Yəhya: "Masonam, mason olmağımla da fəxr edirəm"

*Hələliksə A.Oktarla görüşüb, həmkarım, fotoqraf Məhəmməd Türkmənlə ön sırada əyləşirik. Öncədən etdikləri xəbərdarlığa görə, Məhəmməd verilişdən nə foto, nə də videogörüntü götürə bilər. Heç mənim diktofonla müsahibəni yazmağıma da icazə yoxdur. Foto və videonu özləri daha sonra göndərəcəklərini deyirlər. Səbəbini soruşanda isə "onsuz da bizdə yüksək səviyyəli çəkiliş gedir, sizin əziyyət çəkmənizə ehtiyac yoxdur" deyə cavab verilir. Bu detal belə bir informasiyadır deyib israr etmirəm.*

***(əvvəli ötən saylarımızda)***

***- Azərbaycanda tərəfdarlarınız nə qədərdir? Kanalınızın Azərbaycanda filialının açılması, kitablarınızın orda yayılmasına qədər... nə kimi planlarınız var? Azərbaycanda kökləriniz nə qədər dərindir?***

- Burdakı dost çevrəm 300 nəfərə yaxındır. Azərbaycanda da çox sevənlərimiz var. Çox olmasa da, amma 20-30 nəfər olduğunu təxmin edirəm. Amma qəlbən sevənlərimiz milyonlarladır. Bizim bir görünən bədənimiz var, bir də görünməyən ruhumuz. Ruhumuz hər yerdədir. Yəni ruhumuz hər yeri qucaqlamış vəziyyətdədir, amma bədənimiz az görünür. Yəni üç yüz, bəzi yerlərdə otuz, bəlkə də otuz üç görünür. Amma ruhumuz hər yerdədir.

***- Darvin tərəfdarları arasında düşmənlərinizin çox olduğu deyilir. Hətta sui-qəsdə də məruz qalmısız.***

- Bəli, 9 dəfə sui-qəsdə uğradım, düzdür.

***- Bu doqquz dəfənin səbəbləri nə idi? Necə qurtulduz? Bunların da hekayəsini danışsaydız, oxucularımız bilərdi.***

- Polisin bizə rəsmi sənədlərlə bildirdiyi odur ki, bunlardan biri Devrimçi Xalq Qurtuluş Partiyası deyilən bir təşkilatdır. İkincisi DAEŞ adlanan, İŞİD adlanan terror təşkilatı. «Əl-Qaidə» deyilən terror təşkiları və Talibanı da bu siyahıya əlavə edək. Yəni bunlar birlikdə və PKK, bir də PKK-ya dəstək verən terror təşklatları. Polis orqanlarında bu terror təşkilatlarından aldığımız təhdid mesajları qeydə alınıb. Biz də öz imkanlarımız daxilində daha ehtiyatlı davranırıq. Mən təbii ki, belə bir şeydən çəkinmirəm. Amma Ortaköyə ilk gəldiyimdə, daha yeni "bismillah" deyəndə, qarşılamada yeddi qurşun vurdular. Mən məktəbə davam etdim, təbliğata davam etdim. Çıxışlarıma da davam etdim. Heç bir zaman üçün ruhdan düşmədim. Küçəyə də sinəmi gərərək çıxıram, Allaha güvənirəm. Bu ana qədər heç bir şey də olmadı. Doqquz dəfə sui-qəsd adlatdım. Heç birində də mənə heç bir şey edə bilmədilər. Allahın qoruması ilə.

***- Sizcə, bu sui-qəsdlərin səbəbi nədir?***

- Sən darvinizmə, ingilis dərin dövlətinə müdaxilə edərsənsə, kommunizmə qarşı mücadilə aparırsansa, onlar da sənin bədənini dayandıraraq nəticə almaq istəyəcək. Sən onlara fikrən qalib gəlmək istəyirsən. O da sənin bədənini yox edərək, sənə qalib gəlmək istəyir. Bədəni yox edə bilməyincə, fikri də yox edə bilməyincə məğlub olmaq artıq onlar üçün müqəddərata çevrilir.

***- Bir gün onlar öz istəklərini həyata keçirərsə, sizin davamçılarınız varmı?***

- Mənim davamçılarım artıq Türkiyədə, dünyada hər yerə oturub. Yəni, onun artıq geriyə dönüşü yoxdur. Onların edə biləcəyi heç bir şey yox hazırda.

***- Sui-qəsd olayları baş verir. Özəl cangüdənləriniz varmı?***

## "Kişilər mənə deyirlər ki, sən yaşayırsan, bizsə sürünürük"



- Polis rəsmi olaraq cangüdən verdi mənə. Üç ildir. Onların sayını da biz nə qədər istəsək, polis o qədər sayda da göndərir. Mən hara getsəm, hansı bazara çıxsam, getmədən öncə orada təhlükəsizlik tədbirləri həyata keçirilir. Yəni mənim gələcəyim hüquq-mühafizə orqanlarına, onların əməkdaşlarına öncədən bildirilir. Onlar da duruma görə tədbir həyata keçirirlər. Getdiyim mağazalarda da mülki geyimli polislər olur onsuz da. Onlar da ayrıca bu təhlükəsizlik komandasının tərkibinə qatılırlar. Və təhlükəsizlik tədbirləri keçirirlər. Allah hamısından razı olsun.

***- Bəs gündəlik rejiminiz, həyat tərziniz necədir? Nələrlə maraqlanır, necə yaşayırsınız?***

- Mənim şəkil çəkməkdən xoşum gəlir. Bazara getməkdən xoşlanıram. Ev dekorasiyası ilə məşğul olmaq çox xoşuma gəlir. Dostlarımın evlərini də özüm dekorasiya edirəm. Bilirsiniz, memarlıq fakültəsində oxumuşam. Bununla yanaşı, fəlsəfə üzrə də təhsil almışam. Bağça dizaynı xoşuma gəlir. Bağça düzəldirəm. Çoxlu pişiklərim var.

***- Həddən ziyadə pişik sevginizin səbəbi nədir bəs?***

- Pişiklər bu dünyada insanlara heyvan olaraq verilmiş ən böyük nemət ola bilər. Yəni möhtəşəm varlıqlardır. Çox gözəldilər. Sevgiyə çox gözəl qarşılıq verir və sevgini də çox yaxşı başa düşürlər. Bundan başqa, çox təmiz varlıqlardır. Bir də tipləri çox şirindir.

***- Pişiklərinizin sayı nə qədərdir?***

- Təxminən 11 pişiyim var.

***- Buna görə verilişdəki qadınlarla bağlı "kedicik" ifadəsindən istifadə olunur?***

- Bəli, mən bir qız dostuma "Sən bir pişiksən" demişdim. "Sənin pişik canını sevərəm" demişdim. Mətbuat ondan sonra bu ifadəni götürdü və verilişdəki qadınların hamısına "kedicik" adını qoydu.

***- Adnan bəy, verilişinizdə qadınların istər geyim tərzi, istər davranışları, rəqsləri, makiyajları bir-birinizə qarşılıqlı olaraq komplimentlər deməniz cəmiyyətdə birmənalı qarşılanmır. Məhz buna görə sizin bu xanımların vasitəsilə İslamı yanlış təqdim etmənizlə bağlı bir rəy formalaşırb. Əslində belə olmalıdır, fikrinizcə?***

- İslamı insanlara dəhşət, vəhşilik, qorxu, çirkinlik, səviyyəsizlik dini olaraq göstəriblər. Yəni müsəlman deyincə bir çox insanın ağlına səviyyəsizlik, sənət, qadın qarşıdurması, qorxu, vəhşilik, sənətin çökməsi, sürünməsi gəlirdi. Biz də dedik ki, sizə bir oyun oynanıldı. Müsəlmanlıq adına sizə bir sirk dini göstərildi. Gerçək islam cənnət kimidir. Qadınlar azaddır, kişilər azaddır. Rəqs də var, musiqi də. Şıq geyinirsən. Gözəl evlərdə yaşayırsan. Elm var, texnologiya var, sənətin ən gözəli var. Dolayısı ilə də bu oyun pozulub dedik. Dediklərimin doğru olduğunu hər kəs bilir. Çünki danışdıqlarım Qurana uyğundur. Bunun əksi olsa Qurandan ayət vermələri lazımdır. Heç kimsə mənə bunun əksi ilə bağlı Qurandan ayət göstərə bilmir. Etdiyiniz yanlışdır deyə qabağımıza fakt qoya bilən yoxdur. Amma mən Quran ayələri ilə etdiklərimizin doğru olduğunu sübut edirəm.



## "Verilişdəki qadınlar gündəlik həyatda başı bağlı, qapalı geyimdə gəzirlər"

***- Bu qadınlar gündəlik həyatlarında da verilişdəki kimi geyinirlər?***

- Xeyr. Bayıra çıxanda geyimləri topuqlarına qədər olur. O qədər uzun geyinirlər. Çoxunun da başı bağlı olur. Yəni bayırda eyni hökm yoxdur. Çünki Quranda deyilir ki, "əgər sizə narahatçılıq yaradırsa, bütün bədəninizi örtün". Çünki narahatçılıq veriləcəyi riski olduğu üçün verilişdə geyindikləri geyimlə bayıra çıxmazlar. Peyğəmbərimizin vaxtında da belə idi. Bütün qadınlar dekolte geyinirdi Peyğəmbərimizin zamanında. Amma bayıra çıxanda onlara söz atılmağa başlandı. Sonra Ahzab Surəsi'ndəki bununla bağlı ayə qüvvəyə mindi. Bu adamların söz atmalarına qarşı ""dekoltelərinizi örtün" deyə ayə gəldi. Və qadınlar bundan sonra bütün dekoltelərini örtməyə başladılar. Buradan da anlayırıq ki, qadınlar zamanında da dekolte geyiniblər. Bunu açıq şəkildə görürük. Anlamamaq mümkün deyil.

***- O zaman burada yaşananlar teatral bir oyun kimidir? Makiyajlar, geyimlər reallığı əks etdirmir...***

- Xeyr, bu, gerçək həyatdır. Doğrusu budur. Amma burada təhlükəsizlik olduğu üçün belədir. Çünki burada təhlükəsizlik var. Qadınlara burda heç kim sataşmaz, söz atmaz, incitməz. Onlara pis bir hərəkət, pis söz demələri mümkün deyil. Ayədə deyilir ki, "Təhlükəsizlik içindəsizsə, istədiyiniz kimi geyinin, amma təhlükəsizlik içində deyilsinizsə, qapanın".

***- Sözün böyük mənasında məqsədiniz nədir?***

- Bütün dünyanın qardaş olduğunu, hər kəsin bir-birini sevdiyini, bütün türklük aləminin birləşdiyini görəcəm, inşallah. Mən Bakıya əlimi-qolumu sallayaraq gedib, orada yemək yeyəcəm, Bakının məşhur yeməklərindən. Axşama da əlimi-qolumu sallayaraq dönəcəm. Məndən qapıda pasport istəməyəcəklər. İstəsələr, geri qayıdaram. Ölkə xaricinə çıxmamağımın səbəbi budur. Mənə pasport soruşduqları yerə getmərəm. Hətta dükan-bazara gedəndə də təhlükəsizlik qapılarından keçmirəm, daha doğrusu, elə yerlərə getmirəm. Açıq, rahat bir yerdən keçirəm. Elə bir şeyi qəbul etmirəm mən. Ölkə xaricinə çıxanda da yolda "Bir dəqiqə dayan. Hara gedirsən?" deyərlərsə, ora getmərəm. Qardaşlığın, sevginin hakim olduğu bir dünya istəyirik və ən qısa müddətdə, müharibələrin olmadığı və qadınların azad olduğu, istədikəri kimi mini yubka, dekolte geyinəcəkləri, bəzənəcəkləri bir dünya istəyirik. Qadınlar gecənin 1-də də təkbaşına istədiyi yerə, istədiyi kimi gedəcək. Qadınlar gecə günəş batandan sonra küçəyə çıxa bilmirlər. Belə rəzalət ola bilməz. Qadın vurmaq, öldürmək dözə bilməyəcəyimiz bir haldır. İslamda qadın döymək yoxdur. Ən pis halda qadını evdən uzaqlaşdırmaq mümkündür. Atasının və ya anasının evinə göndərə bilərsən. Qadını döyəndə sakitləşirik, de-şarj oluruq deyir bəziləri. Qadın döyülərmi? Allah göstərməsin, ölər qadın. Çox zərif bir varlıqdır.

***- Qadınları bu qədər sevir və hörmət edirsiniz. Amma bildiyim qədər evli deyilsiz və heç bir zaman evlənmədiz.***

- Bəli. Axirət dünyasıdır. İnsanlığın, qardaşlığın gücünü artırmaq üçün çalışan bir insanın ailəsinə vaxt ayırması mümkün deyil.

***- Bizim bir köşə yazarımız sizinlə bağlı sosial şəbəkələrdə müzakirələr gedən zaman maraqlı bir fikir söyləmişdi: "Adnan Oktar bu dünyada özünə cənnəti yaradanlardandır". Təbii ki, bunu ətrafınızdakı gözəl qadınları nəzərdə tutaraq demişdi. Bu fikri ünvanınıza tez-tez deyirlər?***

- Ona bənzər çox şey deyilir. "Sən yaşayırsan, biz sürünürük"-filan.

***- O zaman kişilərin bir xeyli həsədini də qazanmısız...***

- Qısqanclıq çoxdur, haqlısız. Əslində hər kişinin idealındakı budur. Amma bunu əsla əldə edə bilmirlər. Bunu əldə edən heç bir kişi olmur. Bu, çox acı bir şeydir onlar üçün.

***- Yəni bunun üçün pulları çatmır... demək istəyirsiz?***

- Xeyr, çox milyarderlər var, trilyonerlər var, amma əsla bunu əldə edə bilmirlər.

***- Yaxşı, bəs siz necə əldə etdiniz bu qədər qadını ətrafınızda saxlamağı?***

- Allah sevgisi ilə. Onları Allah yaradır, Allah göstərir. Sizi də hazırda Allah yaradır və burada göstərir.

***- Bütün dünyada sülh, gözəllik olmalı, qadınlar döyülməməlidir... dediniz. Hər kəs bunu istəyir. Bəs sizin formulanız nədir?***

- Bunun həll yolu İslam aləminin birləşməsidir. Başqa bir çıxış yolu yoxdur. Və bu, mümkündür. Nur Surəsi, 55. Ayədə Allah deyir ki, "din dünyaya hakim olacaq və qorxularınızın ardınca sizi təhlükəsizliyə qovuşduracam, hər tərəfi ilə dini hakim edəcəm", amma "siz sadəcə səmimi olacaqsınız, mən də sizə hakim edəcəm dini" deyir.

***- İsraillə bir yaxınlığınız varmı? Adınız zaman-zaman masonlarla, İsraillə çəkilir.***

- Düzdür, mən ustad masonam. Yeddi ayrı ölkədən, yeddi ayrı masonluq diplomum var, 33 dərəcəli. Mason olmağımla da fəxr edirəm. Musəviləri də çox sevirəm. Mən də İsrail soyundanam. Həzrəti Davud soyundan gəlirəm. Şəcərəm ora qədər gedib çıxır. Peyğəmbərimizin soyundan gəlirəm. Şəcərəm də internetdə var. Baxmaq istəyənlər görə bilər. Üç milyon Allaha inanan insana milyonlarla insanın düşmən olması çox kədərli və çox əsəbləşdirici durumdur. Yüz milyonlarla insanın üç milyon insanın yaşamasını qəbul etməməsi, onlara rahatlıq verməməsi çox acı bir hadisədir. Mən buna qarşıyam. Onların həyatının qarantiyaya alınmasını və hüzur içində yaşamalarını istəyirəm. Zalım varsa, zalım cəzalandırılsın. Amma məzluma zülm etmənin əxlaqsızlıq olduğuna inanıram.

**Sonda... Canlı yayımda keçən müsahibə bitir. Təəssüflər olsun ki, əvvəlcədən razılaşdırmağımıza baxmayaraq, "kediciklər" deyə təbir edilən, A.Oktarın xanım rəfiqələri ilə görüşümüz alınmır. Xüsusi bir səbəb açıqlanmır. Amma "qalsın gələn dəfəyə" deyərək, mövzunu qapadırlar. Bununla yanaşı, öyrənirik ki, məhz bu "kediciklər"in verilişdə iştirakına görə RTÜK (Radyo Televizyon Üst Kurumu) dəfələrlə kanalı cərimələyib, özü də yüksək məbləğlərdə. O səbəbdən də Türksat üzərindən yayımlanan verilişlərdə bu xanımlar yayıma çıxarılmır, ancaq internet versiyasında onları tamaşaçılar görə bilir. Bununla da bir saata yaxın davam edən canlı yayım söhbəti bitir. A.Oktar bizlərə öz kitablarını hədiyyə edir. Beləcə, pişiklər, "kedicik" xanımlarla zəngin, sirlər dolu villasından ayrılırıq.**

❑ **Sevinc TELMANQIZI**

## "Bakıya gələndə sərhəddə məndən pasport istəməsinlər... İstəsələr, geri qayıdaram"

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

**İki qardaş ölkənin - Azərbaycan və Türkiyənin ölkəmiz ərazisində ortaq hərbi təlimləri davam edir. Xəbər verdiyimiz kimi, sentyabrın 18-də başlayan və hərbi-hava qüvvələrinin birgə manevrlərini əhatə edən bu təlimləri Gürcüstandan gələn hərbi nümayəndə heyəti də izləyir. Diqqətçəkicidir ki, sabah başa çatacaq təlimlərin yekun mərasimində iştirak eləmək üçün Türkiyənin milli müdafiə naziri Nurəddin Caniklinin rəhbərlik etdiyi nümayəndə heyətinin sentyabrın 27-də, yəni dünən Azərbaycana səfər edəcəyi gözlənilirdi.**




Müdafiə Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində Türkiyə nümayəndə heyətinin Azərbaycanın Müdafiə Nazirliyi və digər dövlət strukturlarında rəsmi görüşlərinin keçirilməsi, həmçinin Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı - 2017" birgə taktiki-uçuş təlimlərinin bağlanış mərasimində iştirakı nəzərdə tutulub.

*****

Həm Türkiyə müdafiə nazirinin səfəri, həm də bütövlükdə iki qardaş dövlətin keçirdiyi növbəti birgə möhtəşəm təlim regiondakı xüsusilə hazırkı mürəkkəb vəziyyətdə məxsusi önəm daşıyır. Söhbət öncəliklə də İraq Kürdüstanında sentyabrın 25-də keçirilmiş müstəqillik referendumundan sonra bir az da ruhlanan erməni tərəfinə güc nümayişi və xəbərdarlıqdan gedir. Yəni bu təlimlə bir daha Ermənistana açıq mesaj göndərilir ki, Qarabağ məsələsində, ölkəmizin ərazi bütövlüyü məsələsində Türkiyə hər mənada yanımızdadır və işğalçı Ermənistan Azərbaycandan bir qarış torpaq da qopara bilməyəcək.

Bu təlimlər həmçinin onun anonsudur ki, əgər İrəvan tezliklə sülh danışıqlarında konstruktiv mövqe tutmasa, böyük müharibə qaçılmaz olacaq. Bu barədə son olaraq bir daha ABŞ-dakı "beyin mərkəz"lərin-




## "Ermənistanın öyündüyü reaktiv sistemlər köhnəlib" - azərbaycanlı general

**Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov Ermənistanın təlimlərdə "Smerç" yaylım atəşli reaktiv sistemlərindən (YARS) istifadə etməsi barədə yayılan məlumatlara münasibət bildirib. General deyib ki, bu, Ermənistanın öyünə biləcəyi yeganə silah növüdür (APA).**

"Nəzərə alsaq ki, "İsgəndər" əməliyyat-taktiki raket kompleksi Ermənistan silahlı qüvvələrinin balansında deyil, "Smerç" YARS onların ordusunun silahlanmasında olan "ən güclü" raket sistemidir. Lakin unutmaq lazım deyil ki, bu raket sistemləri sovet dövründə istehsal olunub və 1987-ci ildə istifadəyə verilib. Mülki vətəndaşlar bilməsələr də, peşəkar hərbçilərə məlumdur ki, 30 il əvvəl istehsal olunan və illərlə anbarlarda saxlanılan silahın bu gün uğurlu tətbiqi böyük şübhə altındadır. Böyük ehtimalla, Ermənistanın "Smerç" YARS-dan atışlar keçirməsi də məhz onların istifadəyə yaralı olub-olmamasının yoxlanılması ilə əlaqədardır. Ermənistandan fərqli olaraq Azərbaycan ordusunun silahlanmasında olan və daim yenilənən ən müasir raket sistemləri və digər silah növləri dəqiqliyinə və dağıdıcı gücünə görə dünyanın ən qabaqcıl ordularının silahları ilə müqayisə oluna bilər".



# Qarabağla bağlı 25 illik fiasko, yaxud Minsk Qrupunun tərkibi dəyişsə...

## ATƏT rəsmisinin vasitəçilik institutunu yeniləməklə bağlı anonsu nəyin xəbərçisidir, ABŞ-ın öz həmsədrini ixtisar eləməyə hazırlaşması sülhə nə verəcək?..

dən biri srağagün xəbərdarlıqla çıxış edib. Böyük müharibəni aparmağa isə Ermənistanın nə iqtisadi, nə də insani resursları yetərlidir.

Qarabağa dair danışıqlar isə hələ ki dalana dirənib - yenə məhz Ermənistanın maksimalist tələbləri və təxribatçı mövqeyi üzündən. Erməni tərəfini ağla gətirmək isə ilk növbədə vasitəçi güclərin - ən əvvəl də Rusiyanın işidir. Hələlik bu yöndə də ciddi hərəkətlilik müşahidə olunmur - BMT Baş Məclisi çərçivəsində ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin son görüşü nəzərə alınmazsa.

*****

Minsk Qrupundan söz düşmüşkən, ATƏT Parlament Assambleyasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Viqenin Minsk Qrupunun tərkibinin dəyişə biləcəyini söyləyib. "Biz Azərbaycan tərəfinin Minsk Qrupunun fəaliyyətindən narazılığını başa düşürük, nədən ki, konfliktin nizamlanmasında faktiki heç bir irəliləyiş əldə olunmayıb. Gələn Minsk Qrupunun yaradılmasının 25 illiyi tamam olacaq. Bununla bağlı qrupun tərkibi dəyişə bilər", - deyə ATƏT rəsmisi Bakıda Milli Məclisdə təmsil olunan partiyaların nümayəndələri ilə görüş zamanı qeyd edib.

Onun sözlərinə görə, Azərbaycan-Ermənistan münaqişəsini təkcə atəşkəs rejimi pozulan zaman deyil, daim diqqət mərkəzində saxlamaq lazımdır. ATƏT nümayəndəsi Dağlıq Qarabağ ixtilafının tezlikli həllinin vacibliyini də qeyd edib.

*****

Ancaq həll prosesinin sürətlənməsi özəlliklə aparıcı vasitəçi güclərdən, ələlxüsus da Rusiya və ABŞ-dan asılıdır. Bu mənada gələn il Minsk Qrupunun tərkibinin dəyişməsi də məsələdə müsbətə doğru kardinal dönüş yaratmaya bilər. Ona görə ki, yenə Moskva və Vaşinqtonun mövqeyi həlledici olaraq qalacaq.

Maraqlıdır ki, bu arada ABŞ-ın Minsk Qrupundakı təmsilçiliyinin ixtisara salınacağı haqda xəbər yayılıb. ABŞ dövlət katibi Reks Tillersonun bununla bağlı Senata göndərdiyi məktubda bildirilir ki, Amerikadan olan həmsədrin missiyası dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavininə həvalə oluna bilər. Bu "islahat"ın Qarabağ məsələsinə hansı müsbət və ya mənfi təsir göstərəcəyini, Moskvanın konfliktin həllində söz sahibliyini artıracağı və artırmayacağı isə yəqin ki, yaxınlarda bəlli olacaq.

*****

İstənilən halda, Qarabağ məsələsi ətrafında baş verən bu kimi gəlişmələr, eləcə də Azərbaycanın yerləşdiyi bölgədə "kürd məsələsi" ilə bağlı sürətlənən proseslər rəsmi Bakını daha ölçülü-biçili siyasət yürütmək və öz hərbi qüdrətini, döyüş hazırlıqlarını durmadan artırmaq zorunda qoyur. Bu isə Azərbaycanın Türkiyə, Pakistan, İsrail kimi müttəfiq və tərəfdaş dövlətlərlə strateji əməkdaşlığı dərinləşdirməyi diktə edir. Eyni zamanda İraqdakı "kürd referendumu"na münasibətdə rəsmi Bakının uzaqgörən yanaşmasını zəruri edir. Çünki söhbət artıq Qarabağ məsələsinə də dolayısıyla təsiri olan yeni bir situasiyadan gedir. Bu xüsusda Azərbaycandakı məmur aparatı mənsublarının da öz açıqlamalarında diqqətli olması zəruridir.

Məsələn, Laçın Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Füzuli Tanirverdiyevin özünün facebook səhifəsində İraq Kürdüstanının müstəqilliyini dəstəkləyən status və İraq Kürd Muxtariyyətinin rəhbəri Bərzaninin fotolarını paylaşması Azərbaycan dövlətinin mövqeyi və milli maraqları ilə səsləşmir. Artıq Füzuli Tanirverdiyevin bu addımı ilə bağlı Baş Prokurorluq araşdırmalara başlayıb. Məmura ictimai təpkilər də artmağa başlayıb.

**"Füzuli Tanirverdiyev anlamır ki, bu mövqeyi ilə Ermənistanın Azərbaycan torpaqlarına olan ərazi iddiası məsələsində erməniyə siyasi dəstək vermiş olur". Bu sözləri axar.az -a deputat Aydın Mirzəzadə Füzuli Tanirverdiyevin Kürdüstanın "müstəqilliyi"ni dəstəkləyən foto və statuslar paylaşmasına münasibət bildirərkən deyib. Deputat ümid etdiyini bildirib ki, məsələyə hüquqi tərəfdən müvafiq orqanlar münasibət bildirəcək.**

"Amma məsələnin mənəvi tərəfi də var. Laçın Rayon İcra Hakimiyyətinin məsul işçisinin bu hərəkəti heç bir çərçivəyə sığmır. Birincisi o, İraq dövlətinin vətəndaşı deyil, Azərbaycan vətəndaşıdır. Füzuli Tanirverdiyevin İraqın daxili məsələlərinə bu cür radikal mövqe tutması yolverilməzdir. Onun sadə bir vətəndaş kimi belə mövqedən çıxış etməsi normal qəbul edilə bilərdi. Amma dövlət qulluğunda çalışan şəxslər dövlətin rəsmi xəttinə uyğun hərəkət etməlidir. Digər tərəfdən isə İraq dövlətinin özü bu müstəqillik referendumunun əleyhinə çıxdığı halda, F.Tanirverdiyevin bu müstəqilliyi dəstəkləməsi prinsip etibarı ilə Qarabağdakı separatçıları dəstəkləməklə eyni vəziyyətdir. Çünki Dağlıq Qarabağda yaşayan erməni icması Ermənistanın dəstəyi ilə həmin zonanı Azərbaycandan ayırmağa və müstəqil dövlət yaratmağa cəhd edir. Belə halda sabah başqa bir Füzuli Tanirverdiyev kimi düşünən insan Ermənistanın oradakı işğalçılıq siyasətini də dəstəkləyəcək", - deyə o qeyd edib.

**A.Mirzəzadə baş verən hadisəyə təəssüfləndiyini də bildirib:** "Dövlət məmuru öz hərəkətlərini, siyasi baxışlarını və fəaliyyətini dövlətin rəsmi siyasətinə uyğun olaraq qurmalıdır. Əgər həmin siyasətlə razılaşmırsa, onda dövlət işini tərk edərək, kənarda istədiyi mövqeni sərgiləməkdə azaddır. Təəssüf edirəm ki, aşağı mərhələdə olsa da, bir dövlət məmuru bu gün belə bir mövqe ortaya qoyub. Hətta müsahibəsində də yenidən elədiyi yanlışı müdafiə edib. Bu yolverilməzdir. Hər bir dövlət məmuru öz hərəkətləri̇ndə, baxışlarında kifayət qədər diqqətli olmalıdır".

Öz növbəsində deputat Asim Mollazadə vurğulayıb ki, beynəlxalq məsələdə biliyi olmayan məmurlar sussalar, daha yaxşıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017



# TIR-ın yük yerində Avropaya qaçmaq istəyənlər ələ keçdi

## Saxlanılan 200 qaçaq arasında azərbaycanlıların olması iddia edilsə də, bu, təkzib olundu

**Türkiyənin Çorum şəhərində keçirilən əməliyyat zamanı Avropaya qaçaq şəkildə getməyə çalışan 200 nəfər saxlanılıb. Onların azərbaycanlı və əfqan qaçaqlar olduğu müəyyən edilib.**

Bu barədə Türkiyənin "Haberler.com" saytı məlumat yayıb.

Məlumata görə, polis şübhəli TIR-ı saxlamağa çalışıb. Lakin sürücü polisin "saxla" əmrinə tabe olmayıb. TIR-ın polislər tərəfindən təqib olunduğunu görən sürücü nəqliyyat vasitəsini yolun kənarında saxlayaraq qaçıb.

TIR-da olan qaçaqların bir hissəsi də ərazidən uzaqlaşmağı bacarıblar. Saxlanılan şəxslər bildiriblər ki, Bakıdan Avropaya qaçaq şəkildə daşınmaları üçün adambaşı 1000 dollar pul ödəyiblər.

Polisin TIR-ın sürücüsünü və digər qaçaqları axtardığı bildirilir.

**Dövlət Gömrük Komitəsinin mətbuat xidmətinin yaydığı məlumatda isə qeyd olunub ki, aparılan araşdırma zamanı məlum olub ki, yayılan xəbərə əlavə edilən videoda görüntüləri əksini tapan miqrantların daşındığı 34 DH 9435 dövlət nömrəli nişanlı nəqliyyat vasitəsi Azərbaycanın gömrük ərazisinə, ümumiyyətlə, daxil olmayıb:** "Həmin nəqliyyat vasitəsinin 34 EL 322 dövlət nömrə nişanlı qoşqusu isə yalnız 1 dəfə, 2010-cu ildə Azərbaycan ərazisində olub. Üstəlik, hadisə ilə bağlı Türkiyədə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin hazırladığı daha ətraflı reportajlarda jurnalistlərə müsahibə verən miqrantlar nəqliyyat vasitəsindəki insanların əfqan, tacik, türkmən və özbəklərdən ibarət olduğunu bildirir, xəbərdə Azərbaycan və ya azərbaycanlılardan, ümumiyyətlə, bəhs olunmur".

DGK bir daha media qurumları və nümayəndələrinə komitənin fəaliyyət sahələrinə aid olan məlumatların rəsmi mövqe öyrənməklə hazırlanmasını və yayımlanmasını tövsiyə edib.

**Miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənov "Yeni Müsavat"a bildirib ki, hər şey aparılan ilkin tədqiqat zamanı üzə çıxacaq:** "İstər əfqan, istərsə də digər qaçaq yolla Avropa ərazisinə keçmək istəyən miqrantlar, öz ifadələrində təbii ki, hansı yolla gəldiklərini mütləq şəkildə bildirməlidirlər. Ola bilsin ki, miqrantlar haradan gəldiklərini bilmirlər. Bir hal var ki, adətən qaçaqmalçılar miqrantları beynəlxalq yükdaşımalarla məşğul olan maşınlara yerləşdirirlər və bu avtomobillərin üzərinə beynəlxalq əhəmiyyət daşıyan möhür vurulur. Bu möhürü isə keçdiyi ölkənin müvafiq qurumları aça bilmirlər və yalnız təyinatı üzrə yerlərdə açılır. Beynəlxalq daşımalarda belə bir qaydalar mövcuddur ki, qaçaqmalçılar da məhz bundan istifadə edirlər. Ona görə də miqrantların hansı ölkənin ərazisindən keçdiklərini bilmələri mümkün deyil. Bu gün desələr ki, Azərbaycanın və ya İranın ərazisindən keçiblər, yanıla bilərlər. Bunu bilən, təbii ki, yalnız sürücülərdir. Rəsmi məlumatlarda isə bildirilir ki, belə bir maşın Azərbaycan ərazisindən keçməyib. Bir məqam da var ki, burada maşın məsələsi də şərti ola bilər. İstənilən halda tədqiqatlar zamanı bütün gizlinlər ortaya çıxarılacaq. Bəlli məsələdir ki, qeyri-qanuni yollarla Türkiyənin sərhədlərini və ya Avropaya getmək üçün digər ölkələrin sərhədlərini istifadə edən qaçaqmalçılar var".

**Ekspert bildirib ki, Türkiyədə yaxalanan qaçaqmalçılarla bağlı da eyni addım atılacaq:** "Həmin şəxslərdən əfqanlar Əfqanıstana, iranlılar İrana və sairə göndiriləcəklər. Əgər onların içərisində Azərbaycan vətəndaşı varsa, təbii ki, onlar da ölkəmizə yola salınacaqlar. Ancaq indiki mərhələdə bəllidir ki, onların içərisində azərbaycanlılar yoxdur. Bu şəxslərin arasında türkmənlər var. Türkmənlər isə müəyyən qədər azərbaycanlılar kimi danışırlar. Ola bilər ki, bu, bəzi kütləvi informasiya vasitələrində çaşqınlıq yaradıb və onları azərbaycanlı kimi qələmə veriblər. Videodan açıq şəkildə görünür ki, onların arasında Azərbaycan dilində təmiz danışa biləni yoxdur".

❑ Əli RAİS




# Region ölkələri kürd separatizminə necə reaksiya verəcək...

## Türkiyə və İran narahatlıqlarını bildirib, ancaq hələlik situasiya savaş üçün uyğun görünmür...

**Sentyabrın 25-də Şimali İraq Kürd Muxtariyyətinin keçirdiyi referendumdan sonra hər kəs Ərbilə reaksiyalardan danışır. Muxtariyyət lideri Məsud Bərzani demək olar ki, bütün dünyanın (formal da olsa - K.R) etirazlarına baxmayaraq kürdlərin müstəqilliyə münasibətini yoxlayan referendumu keçirdi. Bəs bundan sonra nə olacaq? Kürdlərin müstəqilliyə doğru addımlarına region ölkələrinin reaksiyası necə olacaq?**

Məsələn, bir çoxları İraq mərkəzi hökumətinin Ərbilə qarşı hərbi əməliyyat başladacağını proqnozlaşdırır. Bunun üçün müəyyən mənada əsas da var. Çünki Bərzani İraq kürd muxtariyyətinə ayrılmış ərazilərdən kənara çıxaraq İraq dövlətinin bir sıra ərazilərində, o cümlədən Kərkükdə referendum keçirib və bununla da faktiki olaraq bu torpaqlara iddiasını ortaya qoyub. Məhz mübahisəli torpaqlar Ərbil və Bağdad arasında hərbi əməliyyatlara səbəb ola bilər.

Yeri gəlmişkən, ABŞ Dövlət Departamentinin sözçüsü bildirib ki, Vaşinqton Ərbil və Bağdad arasında toqquşma olarsa, tərəf olmayacaq. Amerikalı sözçü deyib ki, ABŞ referendum qərarının tətbiq olunmasından məmnun deyil. Vaşinqton birləşmiş vahid və demokratik İraqı dəstəkləyir.

Qeyd edək ki, Türkiyə dövləti ən yüksək səviyyədə Barzanini referendum qərarından imtina etməyə çağırıb. Prezident, baş nazir, XİN rəhbəri kimi dövlətin ən yüksək rütbəli şəxsləri Ərbili referendumdan imtina etməyə çağırsa da nəticə müsbət olmadı. Referenduma görə Bərzanini tənqid edən prezident Ərdoğan deyib ki, kürd liderlə yaxşı münasibətlər olub və onun birdən-birə referendum qərarı verməsi onun üçün gözlənilməz olub. Eyni zamanda Ərdoğan Türkiyədən keçən və Şimali İraq neftini daşıyan, gündəlik 600 min barel neftin daşındığı kəməri bağlayacaqları ilə hədələyib. Bununla da Kürd muxtariyyətinin blokada şəraitində qalacağına və embarqodan əziyyət çəkəcəyinə işarə edib.

Bundan başqa, referendum ərəfəsi İraq ordusu baş qərargah rəisi Ankaraya gəlib və bundan sonra iki ölkənin hərbi qüvvələri sərhəddə hərbi təlimlərə başlayıb. Eyni zamanda bəzi mənbələr Türkiyənin Ərbilə ordu yeridəcəyi haqda xəbərlər dövriyyəyə buraxıblar. Ancaq hələlik Ankara yalnız iqtisadi embarqolar və məhdudiyyətlər tətbiq edir. Türkiyə hakimiyyəti sərhəd-keçid fəaliyyətlərində və eləcə də ticarət əməliyyatlarını yalnız mərkəzi İraq hökuməti ilə aparacaqlarını bəyan edib. Bundan başqa, Ərbilə uçuşlar dayandırılıb.

İraq kürd muxtariyyətinin daha bir qonşusu və kürdlərin dövlət qurmasından narahat olan daha bir dövlət İrandır. Tehran müstəqil kürd dövlətinin yaranmasının öz ərazisindəki kürd separatizminin fəallaşmasına təsir edəcəyindən narahatdır. Üstəlik, İsrailin Bərzani ilə yaxınlaşması və Ərbil üzərindən İran ərazilərinə və onun bölgədəki maraqlarına zərbə vurulmasından narahatdır. Referendumdan iki gün əvvəl İran ordusu sərhəddə hərbi təlimlərə başlayıb və İran artilleriyası Ərbil əyalətinin sərhəd məntəqəsindəki bəzi bölgələri vurmağa başlayıb. İran ordusundan verilən məlumata görə, referendumdan bir gün sonra muxtariyyətlə sərhəd bölgəsinə raket sistemləri yerləşdirilib. İran ali dini liderinin xarici siyasət məsələləri üzrə müşaviri, keçmiş xarici işlər naziri Əli Əkbər Vilayəti bildirib ki, İran, İraq, Türkiyə və digər bölgə ölkələri bu hadisəyə səssiz qalmayacaq.

Ancaq maraqlıdır ki, daha əvvəl ehtiyatlı açıqlamalar verən kürd qüvvələri artıq sərt fikirlər səsləndirirlər. "Şərq əl-Avsət" qəzetinə müsahibə verən Suriya kürdlərinin lideri, PYD hərəkatının həmsədri Saleh Müslim bildirib ki. M.Bərzani ilə aralarında ixtilaf olsa da, "kürd xalqına hücum olarsa, onları müdafiə etməyə hazırdır".

Müslim bunu Türkiyənin sərhəddə hərbi təlim keçirməsinə cavab olaraq deyib. PYD-nin digər həmsədri Hədiyə Yusif isə embarqo tətbiq olunarsa Suriya kürdlərinin qapılarını İraq kürdlərinə açacağını deyib.

Bu arada İraqda siyasi qüvvələr də hərəkətə keçib. Ötən gün İraq mərkəzi hökumətinin sərhəd-keçid məntəqələrini nəzarətə götürməsi haqda xəbərlər yayılıb. Ancaq eyni zamanda Bağdadın bütün hava limanlarının idarəçiliyinin mərkəzi hökumətə verilməsi ilə bağlı tələbini kürd muxtariyyəti rədd edib. İraq Milli Hikmət Hərəkatı İraqın Birliyi və Bütünlüyü üçün Milli Cəbhənin qurduğunu bəyan edib. Bu barədə hərəkatın sözçüsü Nofəl Əbu Raqif mediaya açıqlama verib. Onun sözlərinə görə, bu qərarın səbəbi İraqdakı separatçı fəaliyyətlər olduğunu deyib.

Bir neçə gün əvvəl isə İraq Milli Hikmət Hərəkatının lideri Əmmar Həkim bəyan edib ki, ölkədəki etnik qruplar, siyasi partiya və hərəkatlar arasında ittifaqı gücləndirmək üçün yeni təşkilat yaradılacaq. Eyni zamanda bildirib ki, onlar bölgənin xəritəsinin zorla dəyişdirilməsinə imkan verməyəcəklər.

Qeyd edək ki, Türkiyə prezidentinin təhdidlərinə kürd muxtariyyətinin baş naziri Neçirvan Bərzanidən cavab gəlib. Türkiyə prezidentinin ölkə ərazisindən keçən Şimal İraq neft boru kəmərini nəzərdə tutaraq "petrolun kranı bizdədir, onu bağlasaq bu iş bitər" bəyanatına cavab olaraq Bərzani bildirib ki, neft boru kəmərinin kranı Türkiyənin əlindədir: **"Ancaq Türkiyə ilə imzaladığımız bir anlaşma var. Tam tərsinə, biz yeni qaz kəməri çəkirik. Referendumun Türkiyənin milli təhlükəsizliyinə bir təhdid kimi görünməsini istəmirik. Türkiyə ilə əlaqələrimiz çox qədimə gedib çıxır və davam edəcək. Sərhədlər olduğu kimi qalacaq. Türkiyə ilə dialoqu inkişaf etdirmək istəyirik, savaşa aparacaq bir müstəqillik istəmirik. Bağdadla anlaşılmazlıqları dialoq yolu ilə həll etmək istəyirik. Türkiyə bizim xaricə açılan qapımızdır, bölgə üçün istiqrar faktoru olacağıq".**

Görünən odur ki, İraq kürdləri xeyli rahatdır və yeni savaşın baş verməyəcəyinə inanırlar. Ehtimal ki, Ərbil rəhbərliyi Bağdadla ərazi anlaşılmazlıqlarını mübahisəli bölgələr üzərində danışıqlar başlanması və terrora qarşı birgə mübarizə yolu ilə həll etməyə çalışacaq. Yeri gəlmişkən, bu gün İŞİD gözlənilmədən fəallaşaraq Bağdad yaxınlığında postlara və Ramadi şəhərinə hücum edib. Bu da İraq mərkəzi hökumətinə daha ciddi problemin terror və İŞİD olduğunu xatırlatmaq mənasındadır. Belə görünür ki, Qərb ölkələri Bağdadın indi də olmasa, yaxın illərdə kürdlərlə anlaşmaya məcbur etməyə çalışacaqlar. Burada əsas narahat olacaq iki ölkə qalır: Türkiyə və İran. Lakin gedişat göstərir ki, bu iki ölkənin kürdlərə qarşı böyük müharibə etməsi hazırda real deyil. Kürdlərlə bağlı yeganə şans bölgədə yeni və gözlənilməz hərbi-siyasi situasiyanın baş verməsi ola bilər. Hələliksə belə gözlənilməz hadisənin işarəsi yoxdur.

❑ Kənan RÖVŞƏNOĞLU

**Havaların kəskin dəyişməsi ilə uşaqlar arasında soyuqdəymə xəstəliklərinin sayı artıb. Belə ki, yayılan məlumatlara görə, son günlər Azərbaycanda uşaqlar arasında qusma, ishal, qızdırma halları artıb. Valideynlər uşaqların boğaz ağrısı, temperaturun artması, öskürəklə müşayiət olunan virusa yoluxmalarından şikayətlənirlər. Hətta allergiyaya meylli uşaqlarda dəridə qızartıların və səpkilərin əmələ gəldiyi bildirilir.**

# Soyuqlar gəldi: uşaqları infeksiyalardan necə qorumalı?

## **Pediatr:** "Belə havalarda dərmanlardan çox, uşağın yeməyinə və geyiminə diqqət etmək lazımdır"

## **Vaqif Qarayev:** "Hava damcı yolu ilə keçən elə viruslar var ki, uşaq bir dəfə asqırmaqla, öskürməklə ətrafa kifayət qədər virus buraxır"

Günlərlə davam edən və 39 dərəcədən aşağı düşməyən temperatur herpangina xəstəliyinin əlaməti hesab edilir.

**Kəskin virus infeksiyasının yayılması ilə bağlı xəbərlərə ölkənin baş pediatrı Nəsib Quliyev virtualaz.org. saytında münasibət bildirərək deyib ki, uşaqlar arasında hər hansı qorxulu xəstəlik yayılmayıb, epidemiya yoxdur. Onun sözlərinə görə, havalar qənaətbəxş keçdiyinə və ciddi soyuma baş vermədiyinə görə mövsümi xəstəliklərdə artım müşahidə olunmur:** "Temperatur tədricən enir. Kim deyirsə ki, uşaqlar çox xəstələnir, düz demir. Gəlin bizim xəstəxanaya baxın, kimlər müraciət edir, özünüz görün. Hazırda ölkədə çox geniş yayılan və ciddi problem yaradan elə bir xəstəlik yoxdur".

Maraqlıdır, havaların gün keçdikcə soyuduğu bu ərəfələrdə uşaqları xəstəliklərdən necə qorumaq olar? Çox vaxt valideynlər hava soyuyan kimi uşaqlara vitaminlər, immun sistemini artıran müxtəlif dərman preparatları verirlər. Bu nə dərəcədə doğrudur, bunun uşaqlara ziyanı ola bilərmi?

**Pediatr Vaqif Qarayev bildirdi ki, belə havalarda dərmanlara yox, daha çox uşağın yeməyinə və geyiminə diqqət etmək lazımdır:** "Havalar artıq soyuyub. Bu cür havalarda ilk növbədə uşaqların geyiminə və yeməyinə fikir vermək lazımdır. Xəstələnən uşaq uşaqların sıx olduğu məkanlara bağçalara, məktəblərə getməməlidir. Bunu nə qədər desək də, nə valideyn başa düşür, nə də uşaqları məktəbə, bağçaya qəbul edən. Məktəbdə də, bağçada da həkim olmalıdır. Əgər bir xəstəlik yayılırsa və ya yayılma ehtimalı varsa, xüsusən kiçik yaşda uşaqların getdiyi bağçalarda səhər tezdən uşaqların qızdırması ölçülməlidir. Qızdırmalı uşaq isə bağçaya buraxılmamalıdır, eynilə məktəbə də. Uşaq evdə qalanda valideyn işə gedə bilməyəcək. İşə getməyəndə də pul qazana bilməyəcək. Amma heç bir halda uşağın xəstəliyini hansısa bəhanələrlə əsaslandırmaq olmaz. Hər şeydən əvvəl təbi ki, uşağın sağlamlığıdır. Bir daha qeyd edim ki, uşaq



kollektivlərinə xəstə uşaqların getməsi qəti qadağandır. Çünki hava damcı yolu ilə keçən elə viruslar var ki, uşaq bir dəfə asqırmaqla, öskürməklə ətrafa kifayət qədər virus buraxır. Xəstə uşaq evdə 3-4 günə sağalacaqsa, məktəbə gedə-gedə azı 1 həftəyə sağalır, bəzən isə ağırlaşmalar olur. Hələ ki kəskin virus xəstəlikləri yayılmayıb. Amma yenə də önləm almaq lazımdır. Payız aylarında hava saatbasaat dəyişir. Səhər tezdən hava yaxşıdırsa, o demək deyil ki, 1 saatdan, 3 saatdan sonra yenə də yaxşı olacaq. Ola bilər yağış yağsın, soyuq olsun. Ona görə də ehtiyat üçün qalın geyimlərdən birini qoymaq lazımdır. Uşaq kifayət qədər maye, meyvə qəbul etməlidir. Xüsusən də tərkibində C vitamini olan portağal, üzüm, alma kimi meyvələrdən kifayət qədər istifadə olunmalıdır. Yeməyində tərəvəzlərə üstünlük verilməlidir. Uşağın gündəlik menyusunda ət olmalıdır".

**Pediatr valideynlərin havalar soyuyan kimi uşaqlarına vitaminlər və immun sistemini artıran dərmanlar verməsinin sovet dövründən qalan bir ənənə olduğunu dedi:** "Sovet dövründə bizi məcbur edirdilər ki, uşaqlara vitaminlər verək. İmmunitet tamamilə başqa bir anlayışdır. Bir də var ki, xəstəliyə müqavimət. Ola bilər ki, uşağın çəkisi normal və ya artıq ola bilər. Ancaq bu o demək deyil ki, onun xəstəliyə müqaviməti yaxşıdır. Xəstəliyə müqavimət uşağın sağlamlıq parametrləri ilə ölçülür, çəkisinin azlığı ya da çoxluğu ilə yox. Bu gün çox dəbdədir ki, uşağa immunitetə görə nəsə versinlər. Yanıma gələnlər də deyir ki, immunitetə görə uşağa nəsə dərman yazın. Uşağın immuniteti normaldırsa, tez-tez xəstələnmək təbii ki, uşağın müqavimətini azaldacaq. Amma uşaq ayda-ildə bir dəfə xəstələnirsə, onda yalnız vitaminsizlik problemdirsə, orqanizmə izafi vitamin yeritmək özü də problem yaradacaq. Çünki normadan artıq vitaminin özü də problemdir. Ona görə də həkim məsləhət görmürsə, uşaqlarınıza immun preparatı verməyin. İmmun preparatı həm çox bahalıdır, həm də mən onun bir faydasını görməmişəm. Bəzi xəstəliklər var ki, immunitet defisiti yaradır. O zaman immunitet üçün xüsusi preparatlar var ki, onlardan istifadə etmək olar. Amma adi soyuqdəymədə bu preparatlar uşağa heç nə vermir. Sadəcə olaraq, uşağın yeməyinə, içməyinə və əyninə fikir vermək lazımdır".

Qeyd edək ki, payızda yalnız uşaqlar deyil, eləcə də böyüklər çox asanlıqla soyuqdəymədən əziyyət çəkirlər. Məhz buna görə də mütəxəssislər yaşlı nəslin nümayəndələrinə, eləcə də ürək-damar, təzyiq oynaması xəstəliklərindən əziyyət çəkənlərə qrip peyvəndi olmalarını məsləhət görürlər. Çünki payız soyuqdəymə ilə başlayan və ağır fəsadlar yarada bilən xəstəliklər fəslidir. Havalar soyuqlaşdığı üçün bədənimizin enerjiyə olan tələbatı artır. Payızda artıq çəki yığmamaq üçün gün ərzində 5 dəfə, amma az-az yemək lazımdır. Payız fəslinə keçid ürək-damar xəstələrində tarazlığı poza, onlarda ağrıları intensivləşə bilər. Ürək-damar xəstəliklərindən əziyyət çəkənlər idmanla məşğul olmalı, gündə ən az 30 dəqiqə gəzməlidirlər. Ət, süd, toyuq, balıq, qaraciyər, kişmiş, qoz ləpəsi immuniteti artırmağa yardım edən qidalardandır. Üzüm, nar, qırmızı giləmeyvə, moruq xəstəliyə tutulma riskini azaldır.

Mütəxəssislərin fikrincə, soğan və sarımsaq antibiotik tərkibinə malik olduğu üçün payızda yayılan soyuqdəymə xəstəliklərinin tez sağalmasına yardım edir. Payızda böyüklərdə müşahidə edilən bir psixoloji hal isə "payız depressiyası"dır. Payız depressiyası xəstəlik deyil, sadəcə, psixi qərarsızlıq vəziyyətidir. Bir sıra psixoloqlar payız depressiyasının ümumi olaraq əlamətlərini belə izah edir - daxili gərginlik, yuxudan erkən oyanmaq və yenidən yata bilməmək, əhvalın pisləşməsi, özünüqiymətləndirmənin aşağı düşməsi, həyata marağın azalması, kədər, əsəbilik, müsbət emosiyaların itirilməsi, gündəlik işlərin icrasında çətinlik çəkmə, stressli situasiyalara dözümsüzlük, tez özündən çıxma, daxili gərginlik, sosial əlaqələrdən, yaxınlarla və dostlarla ünsiyyətdən qaçmaq və sairə. Payız depressiyası haqda alimlərin və həkimlərin maraqlı fikirləri var. Onlar düşünür ki, orqanizmdə vitamin çatışmazlığı və az hərəkətli həyat tərzi bu psixoloji vəziyyəti yaradır.

❑ Günel MANAFLI

# Rus dili Azərbaycanda xarici dildirmi...





**Fazil Mustafa:** "Bu, bir qədər mürəkkəb məsələdir"

**Qulu Məhərrəmli:** "Rus dilinə xüsusi statusun verilməsinin əhəmiyyəti yoxdur"

**Bu günlərdə Ermənistanda rus dili xarici dil statusunu aldı. Bu barədə ölkənin təhsil və elm naziri məlumat yayıb. Nazir açıqlamasında qeyd edib ki, Ermənistanda yeganə rəsmi dövlət dili erməni dilidir.**

Qeyd edək ki, keçmiş sovet imperiyasının tərkibində olan bəzi ölkələrdə rus dili artıq xarici dil kimi rəsmiləşdirilib. 2014-cü ildə Ukraynada rus dili qadağan olunmuşdu. Belə ki, ölkə ərazisində rus dilinə rəsmi status verməyə icazə verən "Dövlət dili haqqında" qanun ləğv edilmişdi. Bu ildən isə başlayaraq Ukrayna məktəblərində 5-ci sinifdən sonra rus dilinin tədrisi ləğv olunub. Məlumata görə, 2020-ci ildən artıq ibtidai siniflərdə də rus dili qadağan olunacaq.

Danılmaz faktdır ki, Azərbaycanda əksəriyyət bu gün də rus dilində danışır. Son illər dünyada rus dilində danışanların sayı azaldıqca, ölkəmizdə əksinə, artmağa doğru gedir. Hətta yenidən valideynlər övladlarının daha çox rus dilli siniflərdə təhsil almasına maraq göstərməyə başlayıb. Bu haqda müzakirələr davam etməkdədir. Lakin bir sual ortaya çıxır, niyə Ermənistanda və digər keçmiş sovet ölkələrində olduğu kimi, Azərbaycanda da rus dili xarici dil deyil?

**Millət vəkili Fazil Mustafa mövzunu bu cür şərh etdi:** "Bunu müəyyən etmək doğru deyil. Açığı, bu, bir qədər mürəkkəb məsələdir. Çünki bu kimi məsələlərdə hansısa bir ölkəni qıcıqlandırmaq doğru deyil. Amma bütövlükdə Azərbaycan dili dövlət dili olmalı, digər dillərə isə müəyyən sərbəstlik verməlidir. Dövlət, rəsmi işlərdən başqa digər sahələrdə işlədilmək imkanı tanınmalıdır".

**Millət vəkili Azərbaycanda rus dilinin xarici dil kimi rəsmiləşdirilməsinin heç bir mənası olmadığını dedi:** "Niyə rəsmiləşdirsinlər ki? Bunu anlamaq da çətindir".

**Filologiya elləri doktoru, professor Qulu Məhərrəmli də ölkəmizdə rus dilinə xüsusi statusun verilməsinin əhəmiyyəti olmadığını vurğuladı:** "Rus dili xarici dillərdən biridir. Lakin ingilis, alman və digər dillərdən fərqli olaraq azərbaycanlıların şüurunda yeni statusu olan bir dildir. Uzun illər biz imperiyanın tərkibində olmuşuq və bu dil aparıcı dil olub. Rus dili vasitəsilə dünya klassiklərin dilimizə tərcümə etmişik. Beləliklə, bu dilin mədəniyyətimizdə, təfəkkürümüzün inkişafında xüsusi rolu olub.

Hazırda Azərbaycanda dövlət dili Azərbaycan dilidir, rus dili isə işlək dillərdən biridir. Lakin bununla yanaşı, ölkəmizdə rus dilinə xüsusi statusun verilməsinin əhəmiyyəti yoxdur. Bu dil indi də ingilis dili ilə yanaşı populyar dillərdən və ana dilimizin sıxışdırılmasında rol oynayan faktorlardan biridir. Yəni hazırda Azərbaycanda xüsusən də böyük şəhərlərdə insanların əksəri rus dilində danışır ki, bunu da məqbul qəbul etmirəm. Əlbəttə ki, rus dilinə olan münasibəti nə Rusiya dövlətinə, nə də rus xalqına olan münasibət kimi dəyərləndirmək olmaz. Özünə hörmət edən dövlət, cəmiyyət əsas dövlət dilində danışır və digər dillərin işlədilməsinə qarşı deyil. Belə yanaşma hesab edirəm ki, rus dilinə də aid olunmalıdır".

**Qulu Məhərrəmli Azərbaycanda rus dilinin ikinci dil olmadığını bildirdi:** "Deməzdim ki, ikinci dildir, türk dili ilə yanaşı işlədilir. Yaşlı nəsil daha çox rus dilində, gənc nəsil isə ana dili ilə yanaşı türk dilində danışır. Bu məsələdə isə telekanalların müəyyən rolu var".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

# Adam əti yeyənlər-onları necə tanıyaq?

## Hannibalizm haqda bilmədiklərimiz - əsəbi və ürəyi zəif olanlar bu yazını oxumasın

**Rusiyanın Krasnodar əyalətində adamyeyən ailə ifşa olunaraq həbs edilib. Sözügedən ər və arvad 1999-cu ildən etibarən insanları oğurlayıb, öldürüb və meyitləri yeyiblər. Hətta bəzi hallarda meyitlərdən tədarük görüblər.**

Adamyeyənlər həbs olunduqdan sonra törətdikləri əməlləri etiraf ediblər. İstintaq qrupu axtarış zamanı 7 nəfərin meyitini aşkarlayıb.

Dəhşətli cinayətləri ifşa etməkdə polisə küçələrdən birində aşkarlanan telefon kömək edib. Telefonda sözügedən adamyeyənlərin meyitlərlə və ya onların kəsilmiş hissələri ilə birlikdə fotoşəkilləri əks olunub. Telefonu ilk olaraq asfaltçəkənlər aşkarlayıblar və dərhal polisə təhvil veriblər.

Məlumata görə, azı 30 nəfər adamyeyənlərin qurbanı olub. Onlar öz qurbanlarını efir və karvalol ilə bihuş edir, daha sonra öldürərək yeyirmişlər.

Adamyeyən Dmitri B. mənzillərin dekorasiyası işi ilə məşğul olub, onun yoldaşı Nataliya isə tibb bacısı kimi fəaliyyət göstərib.

**Səbəb qıtlıq imiş...**

Bəs nədir bu xəstəliyin mənbəyi? Ümumiyyətlə, onu xəstəlik adlandırmaq mümkündürmü? Ətrafımızda belə insanların olmasından necə xəbər tuta bilərik?

"Yeni Müsavat" elmi mənbələrə istinad edərək yazır ki, elmi olaraq "hannibalizm" və ya "antropofagiya" adlandırılan adamyeyənlik insanların öz növündən olan insanların ətlərini qida olaraq qəbul etməsi vərdişidir. İlk olaraq Orta Afrikada yaşamış olan bir qəbilənin adında alınaraq terminləşdirilən hanniballıq, ilk dəfə 1492-ci ildə Xristofor Kolumbun Amerikaya ilk gedişində gördüyü qəbilələrin insanları bişirib yeməsindən sonra daha da yayılıb.

Yaxşı, bəs nədir bu xəstəliyin yaranma səbəbləri? Elm sübut edib ki, bunun səbəbi qıtlıq yaşanması, aclığın çox böyük miqyaslara çatması, ağır sosial şərtlərin insanların həyatına təsir göstərməsidir. Necə deyərlər, "sosial pozğunluq" kimi də qiymətləndirilə bilər. Əslində bəzi antropoloqlar sadəcə aclıq baxımdan qıtlığın üzə çıxdığını və bunun də hannibalların yaranmasına səbəb olduğunu iddia edirlər. Amma psixoloqlara görə, bu, bir psixoloji pozğunluq nümunəsidir.

**Hannibalların növləri hansılardır?**

Əslində hannibalların iki növü var. Bunlardan biri bu durumu öz daxilində yaşayanlar, digəri isə xarici aləmə yayanlardır. Hanniballığını daxildə yaşayanlar eyni qəbiləyə və ailəyə bağlı olan şəxslərin ölü bədənlərini yeyənlərdir. Xüsusən də ölü bədəndəki yağlı yerlərin yeyilməsi tərcih edilir. Buna səbəb isə yağın bədənə güc gətirəcəyinə inanmaları göstərilməkdədir. Amma xarici aləmə hanniballığını yayanların xüsusiyyəti fərqlidir. Onlar düşmən olduqları kəsim və şəxsləri öldürərək yeyirlər.





**Əvvəl ac qalmamaq üçün insan əti yeyirdilər, sonra....**

Dünyadakı ilk insanların yaşadığı dövrlərdə hanniballıq var olan bir hal kimi qeydə alınıb. Arxaik homo sapienslər olaraq adlandırılan insan ataları istəklərinə görə əllərinin altında tükədə biləcəkləri qida qaynaqları olmasına baxmayaraq, hanniballıq etməkdən çəkinməyiblər. Hətta o zamanlar bir-birinə düşmən olan qəbilələrdən hansı daha güclü və basqınçı xaraktere malik idisə, düşmən olduğu qrupdan insanların bədənlərini bişirib yeyərək ziyafətlər də vermişdilər.

Davam edən süreclərdə insanların inkişafa başlaması və dünyanın fərqli sahələrində yavaş-yavaş qəbilə həyatlarının yaranması insanları o dönəmlərdə belə silahlanma və güclü olma yarışına itələyib. Bu tip rəqabətlər içərisində bəzən aylarla davam edən aclıq və səfalət dönəmləri keçirilib. Yemək tapılmayacaq şərtlərdə və ya müharibə kimi vəziyyətlərdə qəbilə və toplumlar məcburən hanniballığa məcbur qalıblar.

Orta əsrə yaxınlaşan dönəmlərdə sistem bir az oturuşduğu üçün hanniballıq proseduruna daha çox "məcbur qalmadıqca baş vurulmayacaq bir üsul" kimi baxılıb. Bu dəfə də birbaşa cəsədlər yeyilməsə də, cəsədlərdən istifadə olunaraq, şəfalı bitkilərin istehsalına başlanıb.

12-ci yüz ildə başlanan bu vərdiş 16-cı yüz ilə qədər davam edib. Artıq 16-cı yüz ildə də fərqli bir dərman istehsalı metodunun inkişaf etdirilməsilə insan bədənindən dərman hazırlama dönəmi də yekunlaşıb.

Müasir günümüzdə hanniballıqla daha çox məşğul olan qəbilə "Korovai" adlanır. Özlərinə "Long Pig" adı qoyan bu qəbilə hanniballığa davam etdikləri kimi, özlərinə də bir konsepsiya uydurublar. Onlara görə, öz qəbilələrindən biri bir anda həyatını itirəndə bu vəziyyəti "ölən adamın bir cadugərlə davada məğlub olması" kimi qiymətləndirirlər. Onlar iddia edirlər ki, ifritə öz qalibiyyətini bu insanın ətini yeyərək qeyd edir. Odur ki, onlar da eyni ətdən yeməklə bu mübarizəni davam etdirdiklərini iddia edirlər.

**Hindistan - hannibalizmin məskəni**

Hannibalizmin qadağan edilməsinə baxmayaraq, Aqhori sekta qanundankənar hesab edilmir. Hindistan dövləti müxtəlif dini görüşləri mühafizə edir.

Bəzən Hindistanda Aqhori praktikasının qadağan edilmə cəhdləri meydana gəlir. Bu qəbildən olan qanunvericilik təşəbbüsləri induistlər tərəfindən qəzəblə qarşılanır. Seçkilərdə bu dini cərəyanın tərəfdarlarının da olduğu, BCP-nın qələbə çalması, gələcəkdə bu qəbildən olan qanunların verilməsini şübhə altına qoyur.

Hindistanda hannibalizmlə, sadəcə, dini görüşlərə görə məşğul olmurlar. Hələ yüz illər boyu ərəb, fars səyahətçiləri, daha sonra Marko Polo - dünyaya Andaman adalarının adamyeyənlərindən danışıb.

Hannibalizm hadisələri Hindistanın şimal-şərqində zaman-zaman qeydə alınaraq mətbuatda işıqlanır.

Burda yaşayan Naqa və başqa tayfaların nümayəndələrinin adam əti yeməkləri barədə informasiya Hindistan və Pakistan mətbuatında öz əksini tapıb.

Sonuncu dəfə belə şayiənin sənədli təsdiqi keçən ilin yanvarında mətbuatda yayılıb. O zaman muzdlu fəhlə kütləsi Assamada çay plantasiyalarından birinin sahibini və onun arvadını dəyənəklə ölənədək döyüblər. Münaqişə isə sahiblərin işçilərə düşən pul mükafatını verməmələri olub, daha çox səs-küy salan fəhlələri isə polisə təhvil veriblər. Qətldən sonra kütlədən beş nəfər plantasiya sahibinin cəsədini yeyiblər.

Hannibalizmlə məşğul olan 3 qəbilə - Yali, Vanuatı və Karafai qəbilələridir. Ən qəddar qəbilə Karafai qəbiləsidir. Onlar digər qəbilələrin adamlarını, azmış turistləri yeməklə yanaşı, həm də ölmüş qohumlarının cəsədlərini də yeyirlər. Vanuatu qəbiləsi onlar arasında ən mülayim qəbilə hesab olunur. Şəkilləri çəkən fotoqrafa toxunmamaq üçün onlara bir neçə donuz vermək kifayətdir. Sumatra adasında isə ölüm hökmünə məhkum olmuş adamları və əldən düşmüş qocaları yeyirlər. Yali qəbiləsi ən böyük bayram kimi ölüm bayramını keçirir. Qadınlar və kişilər bədənlərini skelet şəklində bəzəyirlər. Bayramda ölənin çıxarılmış isti beynini qəbilənin başçısı yeyir. İndi əvvəlkinə nisbətən Yali qəbiləsində adamları çox da öldürmürlər. Bu yalnız zəruri səbəblərdən (məhsul qıtlığı və s. olduqda) baş verir. Ümumilikdə hannibalizm qorxulu psixi xəstəlik kimi başa düşülür. Belə hal istintaq işlərində xüsusi qəddarlıqla törədilmiş qətl hadisəsi kimi tövsif olunur.

Amma bu cür tiplər təkcə qəbilələrdə, uzaqlarda yaşamır. Yazının girişindəki xəbərdən də aydın olur ki, bəzən heç şübhə edilməyən şəxslərin arasından da hanniballar çıxa bilir. Psixoloqlar müasir hannibalların olduqca sakit təbiətli, ətrafı, yaxınları ilə yola gedən tiplər olduğunu iddia edirlər. Yeni bu şəxslərin insan əti yediklərindən heç bir halda şübhələnmək mümkün deyil. Onlar qurbanlarını da olduqca ehtiyatla, ustalıqla seçirlər. Çox zaman yaxın olduqları şəxsləri evlərinə qonaq çağıraraq məqsədlərinə nail olurlar.

❑ **Sevinc TELMANQIZI**

## Dəhşətli avtoqəzada 7 nəfər öldü

**Sentyabrın 26-dan 27-nə keçən gecə İsmayıllı rayonunda dəhşətli avtoqəza baş verib. İsmayıllı-Qəbələ avtomobil yolunun Topçu kəndi ərazisindən keçən hissəsində 99-DF-907 dövlət nömrə nişanlı "Opel Zafira" markalı minik avtomobili qarşı tərəfdən gələn 99-AL- 238 dövlət nömrə nişanlı "Toyota Prado" markalı minik avtomobili ilə toqquşub. İlkin məlumata görə, "Prado" qəfil yola çıxaraq, yandan "Opel"i vuraraq aşırıb.**

Qəzada ölən 7 nəfərin meyiti tanınmaz hala düşüb. Onlardan 3-nün kimliyini hadisədən bir neçə saat sonra tam dəqiqləşdirmək mümkün olub.

Məlumata görə, "Opel Zafir" markalı avtomobildə olan şəxslər - Şəki sakini, 1964-cü il təvəllüdlü Abbasov Rahim Sərkər oğlu, Qax sakinləri - 1977-ci il təvəllüdlü Kərimov Yaşar Kamal oğlu, onun qızları - 1998-ci il təvəllüdlü Rufanə, 2001-ci il təvəllüdlü Turanə, 1978-ci il təvəllüdlü Bayramov Ruzigar Məmməd oğlu, onun oğlanları - 2003-cü il təvəllüdlü Sahib və 2006-cı il təvəllüdlü Cavid aldıqları xəsarətdən hadisə yerində ölüblər.

"Opel Zafira"ya baxış zamanı oradan başqa 3 uşağın - Alim Süleymanlı, Orxan Süleymanlı və Ayxan Süleymanlının məktəbli çantası tapıldığı üçün hadisə yerində işləyən aidiyyəti qurumların nümayəndələri ilkin ehtimal kimi həmin uşaqların öldüyü qənaətinə gəliblər. Bu səbəbdən onların ölməsi barədə məlumat yayılıb. Tanınmaz hala düşmüş meyitlərin müayinəsi və onların yaxınlarının müraciəti əsasında uşaqların şəxsiyyəti daha sonra tam dəqiqləşdirilib və 3 qardaşın ölmədiyi müəyyənləşib.

"Toyota Prado"nun sürücüsü olan və ağır xəsarətlər alan Böyük Britaniya vətəndaşının da adı məlum olub. Vilyam Henri adlı şəxs müxtəlif dərəcəli bədən xəsarətləri aldığı üçün təcili olaraq Qəbələ Müalicə Diaqnostika Mərkəzinə aparılıb.

Faktla bağlı araşdırma aparılır.

## Azərbaycanda şəxsiyyətin müəyyənləşdirilməsi üçün yeni sistem tətbiq olunur

**"Azərbaycan Respublikasında Dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" yeni qanun layihəsi hazırlanıb. APA-nın məlumatına görə, layihə Milli Məclisin 2017-ci il payız sessiyasında qanunvericilik işlər planına daxil edilib. Layihəyə əsasən, Azərbaycanda vətəndaşın daktiloskopik (əl-barmaq izləri) və genom məlumatlarının alınması, uçotu, saxlanılması, təsnifatı və verilməsi, o cümlədən insan şəxsiyyətinin müəyyənləşdirilməsi, insanın əl barmaqlarındakı kapilyar naxışların quruluşunun xüsusiyyətləri və onun şəxsiyyəti haqqında məlumatlar, DNK ilə bağlı məlumatlar, bunlardan hansı hallarda istifadə edilməsinin hüquqi mexanizmləri təsbit olunur.**

Sənəddə dövlət daktiloskopik və genom qeydiyyatı Konstitusiyada təsbit edilmiş vətəndaş hüquq və azadlıqlarına riayət edilməklə məxfilik, könüllülük və məcburilik uzlaşması prinsipləri nəzərə alınmaqla həyata keçirilməsi göstərilir. Qanun layihəsində qeyd olunan qeydiyyat məlumatları ilə itkin düşmüş Azərbaycan vətəndaşlarının axtarışı, naməlum meyitlərin şəxsiyyətinin müəyyənləşdirilməsi, səhhətinə və ya yaşına görə özü haqqında məlumat vermək qabiliyyətinə malik olmayan vətəndaşların şəxsiyyətlərinin müəyyənləşdirilməsi, cinayətlərin qarşısının alınması, açılması və inzibati xətaların qarşısının alınması, aşkarlanması əks olunur.

YENİ MÜSAVAT
N 199 (6813) 28 sentyabr 2017

**Türkiyədə yaşayan müğənni İradə İbrahimova yeni yaradıcılıq işləri ilə bağlı Bakıya gəlib. Musavat.com saytının suallarına cavab verən ifaçı ilə həm sənət yeniliklərindən, həm də ailə həyatından danışdıq:**

# "Ərimin xəyanətinə də dözərəm"



## İradə İbrahimova yeni yaradıcılıq işləri ilə bağlı Bakıya gəlib



- Bakıya yeni gözəl mahnılar, şəkillər və özümü gətirmişəm. Gövhər Həsənzadə ilə işbirliyimiz oldu. Bəzi mahnıların İstanbulda aranjiman edildi. İşimi həm Türkiyədə, həm Azərbaycanda görürəm. Fotosessiyam Türkiyədə oldu. Mahnımı təqdim edim, daha sonra klip barədə qərar verəcəyəm. Klipi Türkiyədə də çəkə bilərəm. Hər iki ölkədə işlərimi rahat görə bilirəm.

*- Bu yaxınlarda yeni fotosessiyanızı təqdim etdiniz. Keçən ilkindən fərqli olaraq bu dəfə daha ciddi obrazda idiniz. Sanki bir iş qadınını xatırladırdınız. 2016-cı ildə çəkilən fotosessiyanızda isə daha cəsarətli geyimlərdən istifadə etmişdiniz və bu, müzakirələrə səbəb olmuşdu.Ciddiliyə üstünlük verməyinizin səbəbi tənqidlərdir?*

- Bu dəfə az da olsa, açıq geyimlərdən istifadə etmişik. Geyimlər özəl olaraq nəyə isə uyğun seçilməyib. Mənim üçün çoxlu geyimlər gətirdilər. Mən də ürəyimə yatanları seçdim. O an ruh halım həmin geyimləri geyinməyi istədi. Mən də əhvalıma uyğun olanları seçdim. Yəni tənqidlərlə əlaqəsi yoxdur.

*- Hər zaman ruh halınıza uyğun hərəkət edirsiniz?*

- Hər zaman seçimlərimi əhvalıma uyğun edirəm. Əgər ürəyindən ağlamaq gəlirsə, ağlayacaqsan. Gülmək gəlirsə, güləcəksən. Amma hər şey yerində olmalıdır, dadını qaçırmaq olmaz.

*- Bu durumun həyatınıza mənfi təsiri olub?*

- Əlbəttə, olur. Bəzən elə əhvalda oluram ki, sonra xoş olmayan xatirələri xatırladır. Biz insanıq. Fəsillər dəyişir, hər fəslin öz xüsusiyyəti var. İnsanın da dəyişkən əhvalda olması normaldır. Allah bizi belə yaradıb. Bu xüsusiyyətimdən məmnunam.

*- Bəlkə də bu xüsusiyyətinizə görə sənətinizin zirvəsində olarkən hər şeyi atıb ailə qurdunuz və Türkiyəyə getdiniz. Həyat yoldaşınızın doğru, evləniləcək şəxs olduğuna necə əmin oldunuz?*

- Biz 8 il birgə olmuşuq. Bu müddətdə 6 ili sevgili münasibətimiz olub. Bir-birimizi tanıyırdıq.

*- Adətən deyirlər ki, bir insanı ailə qurmamış tanımaq çətin olur.*

- İnsanlar fərqlidir. Bəzən evdə bacı bacının elə xasiyyətini görür ki, məəttəl qalır. Heç nəyin qarantiyası yoxdur həyatda. Mən onun davranışını, xasiyyətini, tərbiyəli olmasını sevdim. Mənə qarşı çox qayğıkeş idi. Ceyhun heç kimə bənzəmirdi, bənzədə bilmirdim. Ətrafımda mənimlə maraqlanan çox adam var idi. Sağ tərəfimdə yüzlərlə adam vardı ki, onlar məşhur İradə İbrahimova ilə maraqlanır, onu sevirdilər. Adımın ətrafında dolanırdılar. Bu məni narahat edirdi.

Sol tərəfimdə isə Ceyhun vardı və məni mən olaraq sevirdi. Ceyhunda saflıq, təmizlik, əsl sevgi vardı. Ceyhun mənim içimi bildi, ürəyimi tanıdı, əsl İradəni sevdi. Hərdən yoldaşıma sual verirəm ki, necə oldu mənimlə evlənməyə qərar verdin? Müğənniyəm, hər an çıxıb gedə bilərdim. Səhnə elə şeydir ki, onun havasını udan əl çəkə bilmir. O dedi ki, bilirdim beləsən. Amma təxmin etdiyimdən daha betər imişsən, çox ailəyə bağlısan. Bu qədər ailəyə, övlada bağlı olacağın ağlıma gəlməzdi. Övladlarımın dünyaya gəlməsinə mən qərar verdim. Mənə dedi ki, uşağa sən baxacaqsan, onları yetişdirəcəksən. Ona görə özün qərar ver. Soruşdu ki, ikinci uşağa gücün var? Türkiyədə insanlar daha çox öz rahatlıqlarını düşünürlər. Onlar ailə qururlar, 5-6 il bir-birilərini tanıyırlar. Mənim üçün qəribə gəlmişdi, baldızım ailə qurmuşdu, 5 il uşaq istəmədilər. Sonra dedilər ki, uşaq istəmirik. Biz elə deyilik. Biz yorulmaq, ərimizə qulluq etmək, uşaq doğub böyütmək istəyirik. Biz belə böyümüşük. Ailə qurandan sonra yoldaşımı çaşdırdım. Deyir ki, fanatik imişsən, ailə üçün ən yaxşının yaxşısını eləmək istəyirsən. Gərək yoxdur, özünü yorma. Amma mən yenə də ailəm üçün çalışıram.

*- Həyat yoldaşınız sizi sənətdən uzaqlaşdırmadı, istədiyiniz vaxt səhnəyə qayıtdınız. Bəlkə də bu sizi hər şeyə daha çox bağladı?*

- Bəlkə də. Həyat yoldaşım mənə çərçivə qoymadı. Bu da mənə rahatlıq verdi. O mənə heç vaxt "filan şeyi etməyəcəksən" demədi. Mən də ona əsas verməmdim. Çünki həyata, yoldaşıma qarşı laqeyd olsaydım, onlara vaxt ayırmasaydım, problem yaşayardıq. Mən ailəmi ikinci plana atmadım.

*- Adətən, müğənnilərin boşanması ilə bağlı tez-tez xəbərlər yayılır. Sizin də başınıza gəlib. Bu cür məlumatlar sizi yormur?*

- Heç vaxt mənə kimsə deməyib ki, ay İradə, boşanmısan? Adətən, bu söhbətləri mediadan eşidirəm. Ayrılmaq utanılacaq bir şey deyil. Olsa da, danmaram. Mən ailəmi dağıtmaq fikrində deyiləm. Mənim iki övladım var. Mən nə problem olsa da, onlar üçün həll etməyə çalışaram. Uşaqlarımın bütöv ailədə böyüməyə, ana sevgisinə, ata öpücüyünə, əzizlənməyə ehtiyacı var. Ərsiz qala bilərəm, mənə heç nə olmaz. Amma uşaqlarım böyümə çağındadır, əziyyət çəkərlər. Onlara görə ömrümün sonuna qədər, səbrim çatana kimi hər şeyə dözəcəyəm. Şükür Allaha, həyat yoldaşım çətinlik yaşatmayıb mənə. O, mənə Allahın lütfüdür. O da mənim üçün eyni sözü deyir. Biz bir-birimizə Allahın hədiyyəsiyik. Həmişə deyir ki, İradə olmasaydı, heç vaxt evlənməzdim, evlilik İradə ilə gözəldir.

*- Bağışlaya bilməyəcəyiniz nə isə varmı?*

- Yoxdur. Qadın xəyanəti və şiddəti bağışlamaz. Bir qadını ancaq bunlar küsdürər. Allah qarşılaşdırmasın. Övladlarıma görə bunlara da göz yumaram. Allah Ceyhundan min dəfə razı olsun, məni bu cür söhbətlərlə qarşılaşdırmayıb.

*- Şou-biznesi necə izləyirsiniz?*

- İzləyirəm. Müğənnilərin birindən soruşursan ki, filan müğənnini tanıyırsan? Deyir, tanımıram. Halbuki keçən dəfə eyni masada oturmuşdular. Hər kəs şəxsiyyətdir, insandır. Lazım olmasaydı, Allah onu dünyaya göndərməzdi. Kiminsə varlığını dana bilməzsiniz. Düzünü deyim ki, izləməyə vaxtım yoxdur. O gün Brilliant Dadaşovanın bir mahnısını eşitdim, ürəyim getdi. Tez telefonuma yüklədim. İndi mahnı qıtlığıdır...

❑ **Könül İBRAHİM**
❑ **Fotolar müəllifindir**

# Müğənnilərin ATV-nin sabiq rəhbərliyi haqda ittihamları aranı qatdı

**ATV rəhbəri Vüqar Qaradağlının və telekanalın bir neçə vəzifəli əməkdaşının işdən çıxarılması ölkə gündəmini bir anda zəbt etdi. Rəhbərliyin hansı səbəbdən dəyişdirilməsi müzakirə edildiyi bir vaxtda müğənni Nura Surinin baku.ws-ə verdiyi açıqlamalar ortalığı daha da qarışdırdı. Belə ki, müğənni ATV-nin vitse-prezidenti Rauf Dadaşovun istəyi ilə sənətçilərin pulsuz şou-proqramlarda çıxış etdiyini deyib:**



**Elza Seyidcahan:** "Səhv etdilər, cəzalarını da aldılar"



**Ayan Babakişiyeva:** "Artıq 4 ildir ki, mənim adım "qara siyahı"ya düşüb"



**Günay İbrahimli:** "Hər şeyi zaman həll edəcək"

"Bölgələrdə dövlət tədbirləri olur və bizə o tədbirlərə getmək üçün heç avtobus belə ayırmırlar. Öz cibimizdən xərcləyirdik yola da, stilistlərə də. ATV kanalında Tural adlı prodüser var idi. Bütün bu tədbirlərə müğənniləri Tural çağırırdı. Zəng edib deyir ki, Rauf müəllimin rəhbərliyi istəyir ki, filan tədbirdə gedib oxuyun. Filankəsin toyunda gedin oxuyun. Tanımadığımız adamların toyunda gedib pulsuz oxuyurduq. Mən 7 ildən çoxdur ki, vergi ödəyicisiyəm. Mən gedib pul almadığım tədbirlərdən sabah vergi gəlib soruşacaq ki, bu tədbirlərdə oxumusan. Mən onlara necə sübut edim ki, biz tədbirlərdə pulsuz oxuyuruq. Mənim efirə çıxmamağımın bir səbəbi də budur".

Nura Suri həmçinin iddia edib ki, efirə çıxmaq üçün pul verməyən və çağırılan məclislərə getməyən ifaçılar "qara siyahı"ya salınırmış.

Qafqazinfo.az saytının yazdığına görə isə bu hadisə təkcə Nura Surinin başına gəlməyib. Şou-biznesin bir çox parlaq ulduzları belə bir problemlə rastlaşıblar. Ölkənin tanınmış simaları kanalın vəzifəli şəxslərinin adından toya çağırılır və ATV-nin əməkdaşlarının məclisində çıxış etmələri tələb olunur. TV-nin "qara siyahı"sına düşmək istəməyən ifaçı məclisdə çıxış etmək üçün şadlıq sarayına gedir və hər dəfə yaşadığı mənzərə ilə yenidən qarşılaşır. Yəni həmin məclisdə ATV-nin heç bir işçisi ilə rastlaşmır. Hətta 15 dəqiqəlik mahnı oxuyan müğənniyə irad olunur ki, "sizə yarım saatlıq yer ayrılıb, niyə oxumamısız?" Müğənnilər daha sonra öyrənir ki, toyun ATV ilə heç bir bağlılığı yoxdur və televiziyanın əməkdaşı ifaçını məclisə gətirmək müqabilində müəyyən qədər qonorar alıb. Hətta şou-biznesin bir neçə tanınmış ulduzu var ki, bu "kələk"dən xəbərdar olub və toyu yarımçıq tərk edib. Həmin məşhurlar avtomatik olaraq kanalın musiqi departamentinin rəhbəri Allahverdi Xələfov tərəfindən "qara siyahı"ya salınıb. Belə ulduzlar arasında Nura Suri, Günay İbrahimli, Səidə Sultan, Xatirə İslam və başqaları var.

Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı bir neçə sənətçi ilə əlaqə saxlayıb.

Əməkdar artist **Elza Seyidcahan işdən çıxarılan ATV rəhbərliyi haqda danışmaq istəmədiyini bildirdi:** "Özümə yaraşdırmaram ki, gedənin dalınca danışım. Yıxılana balta vurmazlar. Səhv etdilər, cəzalarını da aldılar".

**Elza Seyidcahan ATV rəhbərliyi tərəfindən pulsuz toylara dəvət aldığını gizlətməyib:**

"Xahiş ediblər, vaxtım olanda getmişəm, olmayıb getməmişəm. Buna görə mənə kimsə bir söz deməyib... Sizə deyim ki, Vüqar Qaradağlı onun-bunun güdazına getdi".

**Müğənni Ayan Babakişiyeva adının "qara siyahı"ya salındığını bildirib:** "Artıq 4 ildir ki, mənim adım "qara siyahı"ya düşüb. Bunun da məlum səbəbləri var. Övladım dünyaya gələndən sonra kimlərinsə sifarişi ilə mənə efir qadağası qoyulub".

Müğənni Günay İbrahimli isə məsələ haqda çox danışmaq istəmədiyini dedi: "Hər şeyi zaman həll edəcək. Bir anlaşılmazlıq olub, inanıram ki, bu, aradan qalxacaq".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
Son səhifə
N 199 (6813) 28 sentyabr 2017



# İtirdiyi yaddaşı... 30 il sonra qayıtdı

Kanada sakini Sent Ketrins 30 il öncə unutduğu adını, eləcə də doğulduğu zamanı və məkanı xatırlayıb. 30 il bundan öncə amneziyaya uğrayan 51 yaşlı Sent sosial işçinin yanına gələrək adının Edqar Latyulip olduğunu və Ontarionun Kitçener şəhərində doğulduğunu deyib. Kanadalının sözlərinə görə, 1986-cı ildə, onun 21 yaşı olanda, əqli cəhətdən problemlər yaşayıb. Öz doğma şəhərindən Niaqara şəlaləsinə gedən yolda Latyulip başından ciddi zərbə alıb və beləcə kim olduğunu, harada yaşadığını unudub. Bütün bu illər ərzində onun adı itkin düşənlərin siyahısında olub. Hətta anası əlil olan oğlunun oğurlandığı qənaətinə gəlib. 30 il boyunca Latyulip Sent-Ketrinsdə, doğma şəhərindən saat yarımlıq məsafədə yaşayıb. Edqarın ailəsinə xəbər verilib ki, o, sağdır. Doğmalarını təsdiqlətməsi üçün ona DNK testi də edilib. Kişinin anası danışıb ki, oğlunun itdiyi ilk iki il özündə olmayıb. Bu hekayəni araşdıran detektiv Duyen Qinqeriç isə deyib ki, bu, onun təcrübəsində ilk belə hadisədir. Onun sözlərinə görə, itkin düşdüyü zənn edilən şəxsin amneziya qurbanı olaraq başqa bir şəhərdə yaşaması faktına bu günə qədər rast gəlinməyib.

# Yapon milyarderlərin cehiz çılğınlığı



Çinin ən böyük şirkətlərindən birinin sahibi olan Vu Duanbiao qızına aldığı toy hədiyyələri ilə heyrət doğurur. Ölkənin cənubundakı Jinjiang şəhərində qızı üçün təşkil etdiyi 8 günlük toy dillərə dastan olub. Qızına toy hədiyyəsi olaraq dörd qutu qızılla "Porcshe" və "Mercedes" markalı iki lüks maşın hədiyyə edən Duanbiao sürətini ala bilmədiyi üçün qızının yatağına 3 milyon dollarlıq bir bank kitabçası qoyub. 16 milyon dollarlıq şirkət səhmini transfer etməyi yaddan çıxarmayan fabrik sahibinin hədiyyə siyahısında villa və dükanlar da əskik olmadı. Səxavətli ata son olaraq uğur gətirsin deyə iki xeyriyyə təşkilatına 10 milyon dollar da bağışladı. Çin mediasına görə, ixracat sayəsində varlanan Jinjiang şəhərində son illərdə milyarder iş adamlarının "cehiz rəqabəti" ənənəsini aşdı. Bu şəhərdə tekstil fabriki olan iş adamı keçən ay qızına buna bənzər bir cehiz hazırlamışdı. Yerli mediaya açıqlama verən gəlinin anası isə "tək arzumuz uşağımızın bizimkindən daha yaxşı bir həyata sahib olmasıdır" deyib.

# Əgər adamda dəmir çatmırsa, arıqlaya bilməz




**Dəmir çatışmazlığı bir sıra xəstəliklərə səbəb olan problemdir. Ancaq yeni araşdırmalar göstərib ki, dəmir çatışmazlığından əziyyət çəkənlər köklüyə daha meyllidirlər. Üstəlik, onlar istəsələr də, arıqlaya bilmirlər. Yəni kök insanda dəmir əskikliyi varsa, o, nə qədər pəhriz saxlasa da, arıqlaya bilməyəcək. Çünki dəmir çatışmazlığı müəyyən hormonların nisbətinin pozulmasına səbəb olur ki, bu da kökəlməklə nəticələnir. Dəmir çatışmazlığı arıqlama prosesinin də qarşısını alır.**

Dəmir çatışmazlığına daha çox böyümə çağındakı uşaqlarda, menstruasiya olan gənc qızlarda, hamilələrdə və uşaq əmzirən analarda, həmçinin sağlam qidalanmayan insanlarda rast gəlinir.

Hər ay mütəmadi olaraq menstruasiya keçirənlər 1 ml. qanla 5 mg. dəmir itirirlər. Bu itirilən dəmir bərpa edilməlidir. Dəmir çatışmazlığından əziyyət çəkən insanlar tez-tez acırlar. Ona görə də arıqlaya bilmir, hətta gün keçdikcə daha da kökəlirlər. Ən pisi isə odur ki, belə insanlar pəhriz saxlasalar, təhlükəli xəstəliklərə yaxalana bilərlər.

Mütəxəssislər tez-tez acan və üşüyən insanların qan azlığı və dəmir çatışmazlığından şübhələnmələrini və həkimə müraciət etmələrini tövsiyə edirlər. Əgər arıqlaya bilməməyinizin səbəbi dəmir çatışmazlığıdırsa, o zaman bol miqdarda dəmir ehtiva edən qidalar yeyərək bu problemi kökündən həll etməlisiniz.




**QOÇ** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Artıq daxili süstlüyünüz və fəaliyyətlə bağlı gərginliyiniz arxada qalacaq. Ətrafınıza yığışan yeni dost-tanışlar məqsədlərə yetişməkdə sizə yardımçı olacaqlar.

**BUĞA** - Kifayət qədər təzadlı ərəfədir. Hər addımı ölçüb-biçməyə çalışın. Mövqeyinizə zidd hərəkətlərə yol verməyin. Astroloji göstəricilər saat 14-dən sonra kiməsə güzəştə getməyi məsləhət görmür.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas diqqətinizi maliyyə məsələlərinə yönəldəsiniz. Bilirsiniz ki, qlobal işləriniz pulsuz keçmir. Bu səbəbdən kiməsə borc vermək fikrinə düşməyin. Başqalarının şəxsi işlərinə müdaxilə etməyin.

**XƏRÇƏNG** - Qarşınızda kifayət qədər mistik bir gün durur, anlaşılmaz hadisələr çox olacaq. Passivlik müstəvisində qərar tutan ailə-sevgi münasibətlərinə yenidən baxın. Mümkün qədər bütün neqativlikləri minimuma endirin.

**ŞİR** - İndi sizə mübahisələrə girişmək, böyük və müəmmalı məsələlər barədə müzakirələr aparmaq yolverilməzdir. Yaxşısı budur, adi işlərin həlli ilə məşğul olasınız. Əks halda, çəkdiyiniz əziyyətlər hədər gedəcək.

**QIZ** - Ehtiyatlı olun, səhhətinizlə bağlı xoşagəlməzliklər baş verə bilər. Ələlxüsus da saat 12-16 arası özünüzü maksimum qorumalı, əsəblərinizi cilovlamalısınız. Bu gün istənilən səfəri təxirə salsanız, yaxşıdır.

**TƏRƏZİ** - Bürcünüzün romantikaya olan hədsiz həvəsi çox güman ki, bu gün təmin olunacaq. Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Bir az səmimi olun, dünyamızı, insanları daha çox sevin.

**ƏQRƏB** - Gün ərzində enerji sərf etdiyiniz istənilən sahədə uğurlar sizi tərk etməyəcək. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Bütün işləriniz qaydasında getdiyindən kimlərəsə yalan vəd verməyin. Qətiyyən bacarmadığınız işin qulpundan yapışmayın. Əsəbi anlarda dostlarınız arasında sakitləşməyə çalışın.

**OĞLAQ** - Bütün vacib işlərinizi saat 16-ya qədər tamamlamağa çalışın. Əmin olun ki, həmin vaxtda qarşınızda duran vəzifələrin əksəriyyətini həyata keçirə biləcəksiniz. Sonrakı saatlarda isə istənilən riskdən imtina edin.

**SUTÖKƏN** - Əgər bu təqvimdən zövq alıb rahatlanmaq istəyirsinizsə, mütləq səfərə çıxın. Bununla siz stress və ağrılarınızı aradan qaldıra, enerjinizi daha da saflaşdıra bilərsiniz. Ailə-sevgi məsələlərində xırdaçılığa yer verməyin.

**BALIQLAR** - Özünüzü gərginliyə salmayın. Uzun-uzadı kiməsə, nəyisə izah etmək enerji itkinizdən savayı bir iş deyil. Əgər bu kimi lüzumsuz işlərlə məşğul olsanız, ixtiyarınızda olan tarixdən zövq almayacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 3 il boyunca "hamilə olan" qadın



"Daily Mail"in xəbərinə görə, Amerikada Margaret Mcmahon adlı qadın 3 il boyunca hamilə kimi gəzib. Buna səbəb bağırsaq sistemindəki problem və bunun nəticəsi olaraq yaranan şişlik olub. 48 yaşlı qadın əvvəlcə bu şişliyin hamiləliklə bağlı olmasından şübhələnsə də, sonradan tomoqrafiyadan keçərək, bağırsağında bir uşaq böyüklüyündə şiş olduğunu öyrənib. Təhlükəli olmayan şişin həssas şəkildə götürülməsi lazım idi. Əməliyyat üçün gözləyən Margaret bu zaman həyatını da arxa plana atmışdı. Belə ki, qarnındakı şiş idrar kisəsinə təzyiq etdiyi üçün sürəkli ayaqyoluna gedirdi. 2 uşaq anası olan qadın yaşadıqları ilə bağlı "heç bitməyən hamiləlik kimi idi" deyib. Qadın düzgün diaqnoz üçün düz 3 il gözləyib. Ona bağırsaq sindromu diaqnozu qoyan həkimlər öncə arıqlamasını məsləhət gördülər. Şişi görəndən sonra narahatlıq üçün heç nə olmadığını dedilər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100